# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 45 (I HİSSƏ)

Bakı - 2025

ISSN 2409-0859

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

**BURAXILIŞ № 45**

**I hissə**

BAKI – 2025

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 904, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 45, hissə I. Bakı: 2025, 110 s.

**Redaksiya heyəti**

**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor, baş redaktor, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** fəlsəfə üzrə fəlsəfə doktoru, buraxılışa məsul redaktor, BDU
**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəfail Musa oğlu Həsənov,** sosiologiya elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Səxavət Nəsrulla qızı Əliyeva,** psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və doktorantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

## HUMANİTAR ELMLƏR

## SOSİOLOGİYA, SOSİAL İŞ

# YAŞLI İNSANLARIN SOSİAL FƏALLIĞININ ARTMASI VƏ İQTİSADİ ÇEVRİLMƏ ŞƏRAİTİNDƏ CƏMİYYƏTƏ REİNTEQRASİYA MEXANİZMLƏRİ

***Vəliyev Elçin Ayyət oğlu***
***Bakı Biznes Universiteti II kurs magistrantı***
***valiyevelcin02@gmail.com***

***Açar sözlər***: yaşlılar, sosial aktivlik, sosial reinteqrasiya, sosial inklüzivlik, iqtisadi transformasiya, sosial rifah, Aktiv yaşlanma
***Keywords***: Older adults, social activity, social reintegration, social inclusion, economic transformation, social well-being, active ageing
***Ключевые слова***: пожилые люди, социальная активность, социальная реинтеграция, социальная инклюзия, экономическая трансформация, социальное благополучие, активное старение

**Giriş.** Dünya miqyasında əhalinin qocalması həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün əhəmiyyətli sosial və iqtisadi problemlər yaradır. Sürətlə dəyişən demoqrafik struktur, yaşlı əhalinin sayının artması və ömür uzunluğunun uzanması bu prosesin əsas göstəriciləridir. BMT-nin məlumatına görə, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 22%-i 60 yaşdan yuxarı olacaq. Bu isə təxminən 2 milyard insan deməkdir, bu göstərici əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli artımı əks etdirir (1,s111-123).

Qlobal demoqrafik tendensiyaların səbəbləri arasında tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşması, qidalanma və həyat şəraitinin yüksəlməsi, eləcə də xroniki xəstəliklərin daha effektiv idarə olunması göstərilə bilər. Nəticədə insanların orta ömür uzunluğu uzanır və yaşlı əhali daha böyük bir faiz təşkil etməyə başlayır. Əhalinin qocalması ilə paralel olaraq, işçi qüvvəsinin nisbəti azalır, bu da iqtisadi və sosial siyasətdə yeni yanaşmaların tətbiqini zəruri edir.Ahıl əhali yalnız say baxımından deyil, həm də sosial, iqtisadi və psixoloji baxımdan müxtəlif ehtiyaclara malikdir. Onların tibbi və sosial xidmətlərə çıxışı, pensiya təminatı, mənzil şəraiti, ictimai nəqliyyat və texnoloji vasitələrə uyğunlaşması demoqrafik dəyişikliklərin idarə olunmasında əsas prioritetlərdən biridir.

Eyni zamanda, yaşlıların sosial izolyasiya və yalnızlıqla üzləşməsi də əhalinin qocalması ilə bağlı önəmli sosial məsələ kimi qeyd olunur (2,s157-164).Yalnızlıq və sosial izolyasiya ahıl insanların həyat keyfiyyətinə ciddi təsir göstərən mühüm amillərdəndir. Yalnızlıq, fərdin özünü kimsəsiz, dəstəksiz və sosial əlaqələrdən məhrum hiss etməsi ilə xarakterizə olunur. Sosial izolyasiya isə yaşlı şəxsin cəmiyyətlə, ailə üzvləri və dostlarla əlaqələrinin zəifləməsi, gündəlik fəaliyyətlərdə iştirak imkanlarının məhdudlaşması kimi müşahidə olunur. Elmi tədqiqatlar göstərir ki, yalnızlıq və sosial izolyasiya həm psixoloji, həm də fiziki sağlamlığa mənfi təsir göstərir. Uzun müddətli yalnızlıq depressiya, narahatlıq pozuntuları və emosional gərginliyin artmasına səbəb olur. Həmçinin, demensiya və kognitiv funksiyaların azalması riski də yüksəlir.

Yaşlı insanların sosial əlaqələrinin azalması onların özünə hörmət və cəmiyyətə faydalı olma hissini zəiflədir, bu isə həyat keyfiyyətinin ümumi düşməsinə gətirib çıxarır (3,s132-137).Fiziki sağlamlıq baxımından da yalnızlıq və izolyasiya ciddi nəticələrə malikdir. Dünya Səhiyyə Təşkilatının hesabatında qeyd olunur ki, sosial təcrid gündə 15 siqaret çəkməyə bərabər risk yaradır. Sosial izolyasiya ürək-damar xəstəlikləri, yüksək qan təzyiqi, metabolik pozuntular və immun sistemin zəifləməsi ilə birbaşa əlaqəlidir. Bununla yanaşı,

ictimai təcrid fiziki aktivliyin azalmasına, balans və koordinasiya problemlərinə, düşmə riskinin artmasına da səbəb olur. Yalnızlıq və izolyasiyanın sosial nəticələri də diqqətəlayiqdir. Sosial fəaliyyətlərdən kənarda qalmaq, könüllü və icma layihələrinə qatılmamaq, ailə və dostlarla münasibətləri minimuma endirmək yaşlı insanların cəmiyyətə bağlılığını zəifldir. Bu vəziyyət, həm fərdi, həm də kollektiv səviyyədə sosial inteqrasiyanın pozulmasına gətirib çıxarır və yaşlı şəxslərin qərar qəbuletmə proseslərində iştirak imkanlarını məhdudlaşdırır (4,s453-462).Sosial iş peşəsi, ahıl şəxslərin həyat keyfiyyətini yüksəltmək və onların cəmiyyətlə əlaqələrini bərpa etmək baxımından əvəzsiz bir rola malikdir.

Ahıllarla işləyən sosial işçilər, yalnız fiziki və tibbi ehtiyacları təmin etməklə kifayətlənməyərək, onların psixoloji və sosial rifahını da prioritet olaraq qəbul edirlər. Bu yanaşma ahılların həyatına holistik – yəni bütöv – baxışı nəzərdə tutur və onların fərdi, ailəvi və icma səviyyəsində ehtiyaclarını əhatə edir. Sosial işin əsas rolu, ahıl şəxslərin sosial təcridinin qarşısını almaq və onların aktiv sosial iştirakını təmin etməkdir. Sosial işçilər bu məqsədlə fərdi planlar hazırlayır, sosial əlaqələrin bərpasını təmin edən proqramlar təşkil edir və yaşlıların gündəlik həyat fəaliyyətlərinə cəlb edilməsini təşviq edirlər. Bu yanaşmalar psixoloji rifahın yüksəlməsinə, emosional balansın bərpasına və depressiya kimi ruhi sağlamlıq problemlərinin qarşısının alınmasına kömək edir.

Ahıllarla sosial işin digər mühüm aspekti icma əsaslı xidmətlərin təşkili və inkişaf etdirilməsidir. Sosial işçilər müxtəlif icma mərkəzləri, klub və qruplar vasitəsilə yaşlıların sosial fəaliyyətlərdə iştirakını təmin edir. Məsələn, əl işləri, idman fəaliyyətləri, mədəni və intellektual proqramlar yaşlıların həm sosial, həm də fiziki aktivliyini artırır. Bu tip fəaliyyətlər həm də sosial dəstək şəbəkələrinin güclənməsinə və yaşlıların yalnızlıq hissinin azalmasına şərait yaradır. Könüllülük təşəbbüsləri sosial işin ahıllarla işləyərkən tətbiq etdiyi digər vacib strategiyalardan biridir.

Sosial işçilər yaşlı şəxslərin həm könüllü fəaliyyətlərdə iştirak etməsinə şərait yaradır, həm də onların təcrübə və biliklərini gənc nəsillərlə paylaşmasını təşviq edir. Bu, yaşlıların özlərini cəmiyyətin dəyərli üzvü kimi hiss etmələrinə və sosial rolunun qorunmasına kömək edir (5,s65-74).Sosial müdaxilələrin uğurlu olması üçün mədəni və kontekstual amillər nəzərə alınmalıdır. Şərq cəmiyyətlərində ailə strukturu daha möhkəmdir və yaşlılara qulluq əsasən ailə üzvləri tərəfindən həyata keçirilir. Bu halda sosial işçilər ailə ilə sıx əməkdaşlıq etməli, onların sosial dəstək rolunu gücləndirməlidirlər. Qərb cəmiyyətlərində isə yaşlılar daha çox dövlət və qeyri-hökumət təşkilatlarının xidmətlərindən istifadə edirlər. Burada icma əsaslı yanaşmalar və sosial xidmət mərkəzləri daha ön plana çıxır. Beləliklə, hər region üçün sosial iş strategiyaları fərqli və kontekstə uyğun olmalıdır.

Müasir dövrdə texnologiyanın inkişafı həyatın hər sahəsində olduğu kimi ahıl şəxslərin sosial həyatı və rifahı üçün də mühüm imkanlar yaradır. Texnologiya yalnız məlumat əldə etmə vasitəsi kimi deyil, həm də yaşlıların sosial əlaqələrini qorumaq və genişləndirmək, yalnızlıq və izolyasiyanın mənfi təsirlərini azaltmaq üçün effektiv bir vasitə kimi çıxış edir. Pandemiya dövrü texnologiyanın əhəmiyyətini xüsusilə aydın göstərdi. Karantin və sosial təcrid dövrlərində video zənglər, onlayn görüşlər, virtual sosial qruplar və sosial media platformaları yaşlıların ailə üzvləri, dostlar və icma ilə əlaqələrini qorumasına imkan yaratdı. Bu, yaşlıların sosial təcrid hissini azaltmaqla yanaşı, onların psixoloji rifahına müsbət təsir göstərdi və emosional dəstək almalarını təmin etdi. Texnologiya həmçinin sosial işçilərə ahıllarla daha effektiv işləmək imkanı verir.

Məsələn, fərdi ehtiyacların qiymətləndirilməsi və sosial dəstək planlarının hazırlanması üçün onlayn sorğular və məlumat bazaları istifadə oluna bilər. Sosial işçilər bu vasitələrlə yaşlıların ehtiyaclarını daha sürətli və dəqiq müəyyən edə, fərdi və qrup əsaslı müdaxilələr planlaya bilirlər. Gələcəkdə sosial işin ahıllarla işləmədə rolu daha da vacib və əhəmiyyətli olacaq. Əhali qocaldıqca, yaşlı insanların psixoloji, sosial və iqtisadi ehtiyaclarına cavab

verən proqramların inkişaf etdirilməsi zərurəti artır. Sosial iş yalnız mövcud problemləri həll etməklə kifayətlənməyəcək, eyni zamanda cəmiyyətin yaşlılara münasibətini dəyişdirmək, onların hüquqlarını qorumaq və fəal həyat tərzinə təşviq etmək funksiyasını da daşıyacaq.Gələcək perspektivlər arasında önəmli istiqamətlərdən biri yaşlıların cəmiyyətin aktiv üzvü kimi iştirakını təmin etməkdir.

Sosial işçilər, yaşlıların qərar qəbuletmə proseslərinə cəlb olunmasını təşviq etməli, onların maraqlarını müdafiə etməli və sosial proqramlarda bərabərhüquqlu iştirakını təmin etməlidirlər. Bu yanaşma yalnız yaşlıların rifahını artırmır, eyni zamanda cəmiyyətin yaşlılara qarşı stereotiplərini və ayrı-seçkilik meyllərini azaltmağa xidmət edir. Əhalinin qocalması təkcə sosial sahədə deyil, həm də makroiqtisadi inkişafda ciddi dəyişikliklərə səbəb olur. Yaşlı əhalinin sayının artması dövlət büdcələrinə əlavə yük yaradır, xüsusilə səhiyyə, sosial müdafiə və pensiya sistemlərinin maliyyələşdirilməsinə daha çox vəsait tələb olunur. İşçi qüvvəsinin azalması isə əmək bazarında ixtisaslı kadrlara tələbatı artırır və istehsal potensialını zəiflədir. Bir çox ölkələr bu problemi həll etmək üçün pensiya yaşının artırılması, əmək qabiliyyətli yaşlıların məşğulluq imkanlarının genişləndirilməsi və avtomatlaşdırma proseslərinin sürətləndirilməsi kimi tədbirlər görür.Texnologiyanın imkanlarının genişlənməsi ilə yanaşı yaşlıların rəqəmsal savadlılıq səviyyəsi xüsusi diqqət tələb edir.

Bir çox yaşlı insanlar mobil tətbiqlərdən, onlayn bank xidmətlərindən, videozəng platformalarından və rəqəmsal səhiyyə sistemlərindən istifadə etməkdə çətinlik çəkirlər. Sosial işçilər bu sahədə maarifləndirmə treninqləri, interaktiv dərslər və uyğunlaşdırılmış təlim proqramları vasitəsilə ahılların texnologiyaya inteqrasiyasını asanlaşdıra bilərlər. Bu, həm onların sosial əlaqələrini gücləndirir, həm də gündəlik həyatda müstəqillik səviyyəsini artırır. Müasir yanaşmalar göstərir ki, yaşlı əhalinin rifahının artırılmasında icma əsaslı proqramlar daha effektiv nəticələr verir. Yaşlılara yönəlmiş "qonşu dəstəyi", "yaş dostu icmalar", könüllü ziyarət xidmətləri və yerli mərkəzlərdə gündüz qayğı proqramları onların sosial inteqrasiyasını gücləndirir. Bu şəbəkələr təkcə sosial əlaqələri artırmır, həm də təhlükəsizlik, emosional dəstək və gündəlik fəaliyyətlərdə yardım kimi funksiyalar yerinə yetirir. Demoqrafik qocalma ilə bağlı ortaya çıxan problemlərdən biri də yaş ayrı-seçkiliyinin — ageizmin artmasıdır. Yaşlı şəxslərin işə qəbulu, tibbi xidmətə çıxışı, sosial həyatda iştirak imkanları bəzən onların yaşı səbəbilə məhdudlaşdırılır.

Sosial iş bu diskriminasiyaya qarşı mübarizədə mühüm rol oynayır. Yaşlıların hüquqlarının müdafiəsi, onların qərar qəbuletmə proseslərində iştirakı və ageizmə qarşı maarifləndirmə kampaniyaları sosial siyasətin əsas istiqamətlərindən hesab edilir. Müasir sosial siyasətdə sağlam qocalmanın təşviqi prioritet istiqamətlərdən biridir. Yaşlı insanların yalnız xəstəliklərin müalicəsinə deyil, həm də onların qarşısının alınmasına yönəlmiş preventiv proqramlara ehtiyacı var. Balanslaşdırılmış qidalanma, fiziki aktivlik, stressin idarə edilməsi və sağlam həyat tərzi üzrə təlimlər yaşlıların həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. Bir çox ölkələr yaşlı əhali üçün xüsusi reabilitasiya mərkəzləri, fizioterapiya proqramları və sağlam həyat tərzi klubları təşkil edirlər ki, bu da onları daha aktiv və müstəqil edir. Sosial xidmətlərdə elektron sistemlərin tətbiqi yaşlıların ehtiyaclarını daha operativ müəyyən etməyə imkan verir.

E-səhiyyə kartları, online qeydiyyat sistemləri, uzaqdan müşahidə cihazları (tele-nəzarət), elektron pensiya platformaları sosial xidmətlərin keyfiyyətini yaxşılaşdırır. Bu, yaşlıların tibb və sosial sahələrdə uzun növbələrdən və mürəkkəb prosedurlardan azad olmasına kömək edir. Yaşlı və gənc nəsil arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi sosial inteqrasiyanın mühüm tərkib hissəsidir. Multinəsil layihələr — gənclərin ahıllarla birlikdə könüllü fəaliyyətlərdə iştirakı, oral tarix proqramları, texnologiya öyrətmə dərsləri, mədəni tədbirlər nəsillərarası bağlılığı artırır. Bu tip proqramlar yaşlıların təcrübəsini cəmiyyətə qaytarmağa, gənclərin isə empatiya və insan münasibətləri bacarıqlarının

inkişafına şərait yaradır. Şəhər və yaşayış məkanlarının yaş dostu formada tərtib edilməsi yaşlıların təhlükəsizliyi və rahatlığı üçün vacibdir.

Kənar maneələrin minimuma endirilməsi, əlçatan ictimai nəqliyyat, yaşlılar üçün uyğunlaşdırılmış parklar, lift və rampaların geniş istifadəsi onların gündəlik həyatdakı müstəqilliyini xeyli artırır. Dünya üzrə çoxlu şəhərlər "Age-Friendly Cities" modelini tətbiq edir və yaşlıların ehtiyaclarına uyğun urban məkanlar yaradır. Əhalinin qocalması ilə birlikdə ailədaxili qayğının strukturu da dəyişir. Kiçik ailə modelinin yayılması, miqrasiya, qadınların məşğulluğunun artması kimi faktorlar ailələrin yaşlılara ayırdığı vaxtı və resursları azaldır. Buna görə də bir çox ölkələrdə ailələrə dəstək mexanizmləri — evdə qulluq xidmətləri, sosial işçilərin ev ziyarətləri, gündüz qayğı mərkəzləri və ailə baxıcılarına məvacib və ya güzəştlərin verilməsi kimi tətbiqlər genişlənir. Bu model həm yaşlıların rahatlığını təmin edir, həm də ailələrin yükünü azaldır.

Yaşlı insanların işçi qüvvəsindən tam kənarlaşdırılması iqtisadi və sosial baxımdan mənfi nəticələr doğurur. Bir çox ölkələrdə "gümüş iqtisadiyyatı" (silver economy) konsepsiyası tətbiq olunur və yaşlıların bacarıqlarından istifadəyə yönəlmiş modellər formalaşdırılır. Fleksibil iş qrafiki, qısamüddətli layihələr, mentorluq proqramları və yaşlılar üçün peşə yenilənmə kursları onların əmək fəaliyyətini davam etdirməsinə şərait yaradır. Bu, həm də yaşlıların sosial aktivliyinin qorunmasına töhfə verir. Yaşlı insanların depressiya, kognitiv zəifləmə, demensiya və stress pozuntularına meyli yüksək olduğundan psixi sağlamlıq xidmətlərinin əlçatanlığı xüsusi əhəmiyyət daşıyır. Psixoloji konsultasiyalar, qrup terapiyaları, yaddaşın gücləndirilməsi məşğələləri və emosional dəstək proqramları yaşlılara psixoloji cəhətdən daha sabit həyat təmin edir. Bu xidmətlərin icma səviyyəsində göstərilməsi onların rahatlıq və təhlükəsizlik hissinə müsbət təsir göstərir (6. 27-35).

**Nəticə.** İqtisadi transformasiya şəraitində ahıl insanların sosial aktivliyinin artırılması və onların cəmiyyətə reinteqrasiyası müasir sosial siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Demoqrafik qocalma, əmək bazarındakı dəyişikliklər, rəqəmsallaşma və urbanizasiya yaşlı əhalinin sosial həyatdakı iştirakını zəiflədən yeni çağırışlar yaradır. Eyni zamanda yalnızlıq, sosial izolyasiya, psixoloji gərginlik və sağlamlıq problemləri ahılların həyat keyfiyyətinə mənfi təsir göstərən əsas amillər kimi çıxış edir. Aparılan elmi araşdırmalar göstərir ki, sosial aktivliyin artırılması ahılların həm psixoloji, həm də fiziki sağlamlığının yaxşılaşmasına, onların özünəinamının və cəmiyyətə bağlılıq hissinin güclənməsinə səbəb olur. Bununla yanaşı, icma əsaslı fəaliyyətlər, könüllülük proqramları, sosial klublar və mədəni tədbirlər yaşlıların sosial şəbəkələrinin genişlənməsinə, özünütəsdiq imkanlarının artmasına və izolyasiyanın azaldılmasına mühüm töhfə verir.

Sosial işçilərin bu prosesdə rolu əvəzsizdir: onlar ahılların ehtiyaclarını müəyyənləşdirir, fərdi müdaxilə planları hazırlayır, icma əlaqələrini gücləndirir və sosial xidmətlərin əlçatanlığını təmin edirlər.nTexnologiyanın inkişafı da ahılların sosial reinteqrasiyasında yeni imkanlar açır. Rəqəmsal platformalar yaşlılara sosial əlaqələri qorumağa, informasiya əldə etməyə, onlayn icmalara qoşulmağa və sosial xidmətlərə daha asan çıxış əldə etməyə şərait yaradır. Bu isə həm pandemiya dövründə, həm də post-pandemiya şəraitində yaşlılar üçün vacib dəstək mexanizmi kimi əhəmiyyətini qoruyur. Nəticə olaraq, iqtisadi transformasiya dövründə ahılların sosial aktivliyinin artırılması kompleks, çoxsahəli və uzunmüddətli yanaşma tələb edir. Dövlət siyasəti, sosial xidmətlər, icma təşəbbüsləri, ailə institutları və texnoloji innovasiyalar arasında koordinasiyalı əməkdaşlıq yaradılmalıdır. Bu cür inteqrativ yanaşma ahılların cəmiyyətin fəal, məhsuldar və sosial cəhətdən dəyərli üzvü kimi iştirakını təmin edir, onların rifahını yüksəldir və sosial inklüzivliyi gücləndirir(7s 320-325)

## ƏDƏBİYYAT

1. World Health Organization (WHO). (2015). *World Report on Ageing and Health*. Geneva: WHO Press.
2. United Nations Department of Economic and Social Affairs (UNDESA). (2020). *World Population Ageing 2020*. New York: United Nations.
3. WHO. (2002). *Active Ageing: A Policy Framework*. Geneva: World Health Organization.
4. Holt-Lunstad, J., Smith, T. B., & Layton, J. B. (2010). *Social relationships and mortality risk: A meta-analytic review*. PLOS Medicine.
5. Coyle, C. E., & Dugan, E. (2012). *Social isolation, loneliness and health among older adults*. Journal of Aging and Health.
6. Walker, A. (2002). *A strategy for active ageing*. International Social Security Review.
7. Cornwell, E. Y., & Waite, L. J. (2009). *Social disconnectedness, perceived isolation, and health among older adults*. Journal of Health and Social Behavior, 50.

## YAŞLI İNSANLARIN SOSİAL FƏALLIĞININ ARTMASI VƏ İQTİSADİ ÇEVRİLMƏ ŞƏRAİTİNDƏ CƏMİYYƏTƏ REİNTEQRASİYA MEXANİZMLƏRİ

***Vəliyev Elçin***

### XÜLASƏ

Transformasiyanın iqtisadi prosesləri sosial rifaha, funksionallığa və yaşlı insanların cəmiyyətdə iştirak səviyyəsinə birbaşa təsir göstərir. Sürətli rəqəmsallaşma, əmək bazarındakı struktur dəyişiklikləri və sosial qurumların yenilənməsi yaşlı əhali üçün yeni uyğunlaşma tələbləri yaradır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, aktiv yaşlanma siyasəti yaşlı insanların sağlamlığını, təhlükəsizliyini və sosial iştirakını yaxşılaşdırmağa kömək edir və bununla da onların cəmiyyətə inteqrasiyasını gücləndirir. Birləşmiş Millətlər Təşkilatının yaşlanma hesabatları, iqtisadi dəyişikliklər dövründə yaşlı insanlar arasında sosial təcrid riskinin artdığını vurğulayır; bununla birlikdə, icma əsaslı proqramlar, könüllü fəaliyyətlər, rəqəmsal savadlılıq təhsili və nəsillərarası əməkdaşlıq təşəbbüsləri onların sosial fəallığını əhəmiyyətli dərəcədə artırır.

# ПОВЫШЕНИЕ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ ПОЖИЛЫХ ЛЮДЕЙ И МЕХАНИЗМЫ ИХ РЕИНТЕГРАЦИИ В ОБЩЕСТВО В УСЛОВИЯХ ЭКОНОМИЧЕСКОЙ ТРАНСФОРМАЦИИ

***Велиев Эльчин***

## АННОТАЦИЯ

Экономические процессы трансформации напрямую влияют на социальное благополучие, функциональные возможности и уровень участия пожилых людей в жизни общества. Быстрая цифровизация, структурные изменения на рынке труда и обновление социальных институтов создают новые требования к адаптации для пожилого населения. Согласно данным Всемирной организации здравоохранения, политика активного старения способствует улучшению здоровья, безопасности и социальной вовлеченности пожилых людей, тем самым укрепляя их интеграцию в общество. Отчеты Организации Объединенных Наций по вопросам старения подчеркивают, что в период экономических изменений повышается риск социальной изоляции среди пожилых людей; однако программы на базе сообществ, волонтерская деятельность, обучение цифровой грамотности и инициативы по межпоколенческому сотрудничеству значительно повышают их социальную активность.

# INCREASİNG THE SOCİAL ACTİVİTY OF OLDER ADULTS AND MECHANİSMS OF THEİR REİNTEGRATİON İNTO SOCİETY UNDER CONDİTİONS OF ECONOMİC TRANSFORMATİON

***Veliyev Elchin***

## SUMMARY

Economic transformation processes have a direct impact on the social well-being, functional capabilities, and level of participation of older adults in society. Rapid digitalization, structural changes in the labor market, and the renewal of social institutions create new adaptation requirements for the elderly population. According to the World Health Organization, active ageing policies enhance the health, safety, and social participation of older adults, thereby strengthening their integration into society. United Nations reports on ageing emphasize that during periods of economic change, the risk of social isolation among older people increases; however, community-based programs, volunteer activities, digital literacy training, and intergenerational cooperation initiatives significantly improve their social activity.

# NİKAH VƏ AİLƏ ANLAYIŞLARINA SOSİOLOJİ VƏ PSİXOLOJİ KONTEKSTDƏ YANAŞMALAR

*Əmrahova Ülviyyə İlyas qızı*
*Bakı Biznes Universitetinin II kurs magistrantı*
amrahovaa02@gmail.com

***Açar sözlər:*** Ailə, nikah, evlilik, dəyərlər, nikah hüququ, ailə institu, həyat yoldaşı
***Keywords:*** Family, marriage, marriage, values, marriage law, family institution, spouse
***Ключевые слова:*** Семья, брак, супружеские отношения, ценности, брачное право, институт семьи, супруг

**Giriş.** Evlilik münasibətlərini özündə biləşdirən ailə, cəmiyyətdə yaranan dəyişikliklərdən ən çox təsirlənən ictimai və eyni zamanda sosial insitutlardan biridir. Siyasi-iqtisadi inkşaf və onların bərabərində gətirdiyi təhsil səviyyəsinin yüksəlməsi, nəticəsində isə qadınların aman keçdikcə əmək bazarına daha çox daxil olması kimi bir çox faktorlar misal göstərmək olar. Bu səbəbdən ailə münasibətləri mütəmadi araşdırılmalı və muasir dövr evliliklərinin harmoniyasını hansı mərhələdə olduğunu tədqiq etməkdə mühüm əhəmiyyət kəsb edir [13.s.16]. Dünya sosiologiya elminin qarşısında duran əsas məsələlərdən biridə ailə məişət münasibətlərinin tədqiqidir. Ailə bioloji, psixoloji, hüquqi, sosioloji münasibətlərlə yanaşı eyni zamanda əxlaqi, mədəni və dini bağlara dayanan sosial müəsisədir [2.s.1122-1126]. Əksər hallarda ailə qadınla kişinin nikah əsasında qurulmuş ittifaqı və bu ittifaqdan doğulan uşaqların birgəyaşayışı və ümumi təsərrüfatla bağlı bir yerdə yaşayan digər qohumların qarşılıqlıhüquq və vəzifələrin olması kimi təzahür edilir [1.s.51-58]. Cəmiyyətin təməli olan ailə müqəddəs bir birlikdir. Ailə aid olduğu dövlətin milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirən kiçik dövlətdir [2.s.1124]. İnsanların cinsi, psixoloji, sosial və iqtisadi ehtiyaclarının ödənildiyi, inteqrasiyasının və cəmiyyətdə iştirakının təmin edildiyi və tənzimləndiyi əsas sosial vahiddir [3]. Ailənin əsas meyarları kimi, birgəyaşayış və qarşılıqlı hüquq və vəzifələr ailə hüquq nəzəriyyəsində də qəbul olun-muşdur [4.s.51].

Ailə hüququ ailə qrupunun ölçüsü və ailə qrupunda hakimiyyətin atada və ya anada toplanması olmaqla 2 prinsipdən ibarətdir. Ailə qrupu ölçüsünə görə “geniş ailə” və “natamam ailə” tiplərinə ayrılır. Geniş ailə dedikdə nənə, baba, ailə həyatı qurmuş uşaqlar uşaqlar və onların həyat yoldaşları, nəvələr və yerinə görə bəzi yaxın qohumların olduğu kiçik qrupdur. Geniş ailələrdə əsasən kənd təsərrüfatına əsaslanan qruplarda rast gəlmək olur. Natamam ailələr isə sənayeləşmiş şəhərli qruplara aid olmaqla ana, ata və evlənmiş uşaqlardan ibarətdir [4.s.167]. Ailə-qohumluq, ailə və digər hüquqi münasibətlərdə olan və eyni evdə yaşayan insanlardan ibarətdir [3].

AR Konstitusiyasında da ailə hüququ ilə yanaşı nikah hüququndan bəhs edilmiş maddələrdə(maddə 34) ailə üzvlərinə ata, ana, ər-arvad, və övladlar daxildir. AR Konstitusiyasında cəmiyyətin əsas özəyi kimi ailə təsbit olunmuşdur və dövlətin xüsusi himayəsində olduğu qeyd edilmişdir (maddə 17) [4.s.51-58].

Ailə, güc, birlik və iradəni simvolizə edir ki, Azərbaycan cəmiyyətinin milli dəyərlərin təhlili zamanı bu məqamlar daima vurğulanır. Təsadüfi deyil ki, ailə dəyərləri ədəbiyyatımızın incilərindən olan Kitabi-Dədə Qorqud və Koroğlu dastanlarında da öz əksini tapmışdır. Buna ağsaqqalın el-oba içində hörmətinin vurğulanmasını, Kitabi-Dədə Qorqud dastanından nümunə olaraq göstərmək olar. Gənclərcəmiyyətdə kimin oğlu olması ilə bilinir, hətta özünü sübut edən bir əməl törədənə qədər ad qoyulmur,. Cəsur bir əməl törətdikdən sonra elin ağsaqqalı Dədə Qorqud tərəfindən ona ad qoyur.

Cəmiyyətin ən kiçik sosial vahidi olan ailə, geniş ekosistemlər daxilində mövcudluğunu davam etdirir. Mədəni dəyərlər və normalar ailə həyatına və evlilik münasibətlərinə təsir göstərir. Ailə özü bu sistemlərdən təsirləndiyi kimi, ailə də həmin sistemlərə təsir edir. Lakin evlilik və ailə ilə bağlı mədəni normalar və dəyərlər zaman keçdikcə dəyişə bilər. Türkiyədə boşanma səbəbləri həm ənənəvi sosial normaların, həm də modernləşmə proseslərinin təsiri altında formalaşır [9.s.1439-1461].

Koroğlu dastanında isə həyat yoldaşları arasındakı münasibətə Nigarla Koroğlunun münasibəti ən gözəl nümunədir. Nigar Koroğlunun zərif, incə və gözəl qadını yeri gəldikdə həm də vətəni qoruyan, yoldaşının silahdaşı, cəsur qadındır. Övladları olmamasına baxmayaraq, onların arasında onları bağlayan böyük sevgi. hörmət hökm sürür [2.s.1124].

Ailə həyatı qurmanın ilkin mərhələsi evlilikdir bu prosesində ilkin addımı isə həyat yoldaşı seçiminə kimin qərar verəcəyidir. evlilik növü və evlilik yaşı cəmiyyətdən cəmiyyətə və hətta eyni cəmiyyətdə fərqli gəlirləri, təhsili və Yaşayış yeri olan fərqli mənşəli insanlara görə dəyişə bilər [3].

Evlilik yolu ilə cəmiyyətin ən təməl qrumunu təşkil edən ailə institutunun bütövlüyünün və davamlılığının təmin edilməsi də ənənələr, dini qaydalar və hüquq sistemi tərəfindən dəstəklənir [6.s.889-890].

Evliliyə təsir edən bir  çox amillər mövcuddur və bu amillərin mühüm əhəmiyyət kəsb edən məqamlardan  biri də cütlüklərin sosial-demoqrafik xüsusiyyətləridir. Gəlir səviyyəsi, təhsil dərəcəsi, yaş kimi faktorların evlilikdə xoşbəxtlik səviyyəsinə təsir göstərdiyi və evlilik uyğunluğunda mühüm rol oynadığı bir çox araşdırmalarda qeyd edilir [12.s.251]. Mədəni dəyər və normalar fərdin evliliyə verdiyi mənanı, onun öz ata-anadan ibarət kök ailəsi ilə qurduğu qarşılıqlı münasibətləri və həmin ailədə yaşadığı təcrübələri formalaşdırır [9.1439-1461]. Evlilik qarşılıqlı öhdəliklər və rollar çərçivəsində inkşaf edən və mübət gözləntilərlə qurulan yaxın münasibətlərin bir növüdür [5.s.1-11].

Həm ölkə daxilində, həm də xaricdə aparılan araşdırmalar cütlüklərin evliliyinin ailə problemlərini necə həll etdiklərinə görə təsnif edilə biləcəyini və bunun əsasında tipologiyanın yaradıldığını göstərdi. Bu araşdırmaya görə üç növ evlilik (cütlük) mövcuddur [10.s.180].

**Ənənəvi tip:** bu növ cüntlük münasibətlərində, evlənmək üçün bəzi fərdi azadlıqlardan imtina edilməli olduğuna inancın olduğu bir evlilik formasıdır. Belə münasibətlərdə bağlılıq yüksəkdir. Müvafiq olaraq, altruistik və birgə münasibətlər yüksək səviyyədə nümayiş etdirilir. Onların münasibətlərindəki nüfuz vəziyyəti müzakirə əsasında müəyyən edilir. Fiziki məkanın avtonom istifadəsi ənənəvi növlərdə müşahidə olunmadığı üçün tərəfdaşlar arasındakı qarşılıqlı əlaqəni də aradan qaldırır. Bu tiplər həyat yoldaşları ilə ziddiyyət təşkil etmir. Müsbət emosionallıq ifadə olunur. Tərəfdaşın xoşbəxtliyinə can atmaq, birlikdə vaxt keçirmək, tərəfdaşa davamlı ehtiyac və s .bu kimi xüsusiyyətlər diqqətə layiqdir. [10.s.180]

**İlişkili Özerk Tip:** Həyat yoldaşlarının bir-birinin fikirlərinə önəm verdiyi, ailədaxili məsələlərdə qərarların birlikdə alındığı və evlilikdə qadın–kişi bərabərliyinə inanılan tipdir. Bu cütlüklər ənənəvi tiplərə nisbətən daha müstəqil quruluşa malikdirlər və buna görə də qarşılıqlı təsirləri daha məhduddur. Cütlüklərin bir-birindən ayrı şəxsi, müstəqil sahələri mövcuddur. İlişkili özerklər ünsiyyət tərzlərini "atalqan" kimi xarakterizə edirlər və mübahisələr daha intensiv olur. Özünü ifadə etmə, ortaq dost çevrələri və realizm əsas yer tutur [10.s.180-181].

**Özerk Tip:** Evlilikdən əvvəl razılaşdırılmış qaydalara və anlaşmaya sadiq qalınan, şəxsi hədəflərin evlilikdən daha ön planda olduğu evlilik tipidir. Asılılıq səviyyəsi çox aşağıdır və paylaşım, fədakarlıq digər tiplərlə müqayisədə xeyli azdır. Bu tip cütlüklər birlikdə vaxt keçirmək üçün daha planlı hərəkət edirlər. Həyəcanlıdırlar, yeniliklərə açıqdırlar [10.s.181].

Evliliklər bir ömür boyu xoşbəxt yaşamaq və qarşılıqlı dayaq məqsədi ilə edilir. Azərbaycan və digər bütün cəmiyyətlərdə əsas dəyərlərdən biri də evlilik fenomeninin

sağlam və balanslı bir şəkildə davam etməsidir. Nikah birliyinə qərar verən insanlar ailə həyatı quraraq (uşaq sahibi olmaq, tək qalmamaq, birlikdə yaşamaq və s.) daha dinc, xoşbəxt və gələcəyə yönəlmiş nəticələrə arxalana bilərlər.) gözləyərək addımlayırlar. Bununla birlikdə, bəzi hallarda, ailə münasibətləri ilə ailə həyatı ilə bağlı gözləntilər arasında dekommunizasiya və sağlam bir quruluş meydana gələ bilməz. Bu gözləntilər yerinə yetirilmədikdə və harmoniya əldə edilmədikdə, insanlar daha sakit bir həyat təmin etmək üçün nikahın sonlandırılmasına qərar verə bilərlər [6.s.889-890].

Haldford, Kelly və Markman (1997) evlilikdə uyğunluğu aşağıdakı kimi izah etmişlər: cütlər arasındakı münasibətin müsbət bir sxeminə sahib olması, eyni zamanda həyat yoldaşlarının bir-biri haqqında pozitiv duyğu və düşüncələrə sahib olması olması, dügün ünsiyyət qura bilmələri, yaranan konfliktlərin həll etmə bacarığı və nəticə olaraq cütlüklərin zövq alaraq birgə fəaliyyət göstərə bilməsidir [12.s.251].

Klassik ailə tərifləri ailəni, bioloji funksiyası ilə insan nəslinin davamlılığını təmin edən, sosiallaşma və mədəniyyətlənmə mərhələlərinin başladığı yer olan, müəyyən qaydalar çərçivəsində qarşılıqlı münasibətlərin qurulduğu, keçmişin bütün irsinin nəsillərarası ötürülməsini təmin edən, bioloji, psixoloji, sosial, hüquqi, mali və digər yönləri özündə birləşdirən bir struktur kimi izah edir (Sayın, 1990, s. 2). Lakin buna baxmayaraq, ailənin tək bir tərifindən danışmaq mümkün deyildir. Bir çox elm sahəsi və düşünür ailə anlayışını öz perspektivləri və ya sahələrinin tələbləri çərçivəsində dəyərləndirmişdir. Məsələn, Parsons sənaye inqilabının inkişafını nəzərə alaraq ailəni iqtisadi istehsal vahidi kimi tanıtmışdır. Murdock isə ailəni ortaq yaşayış yeri, iqtisadi əməkdaşlıq və cinsəlliklə xarakterizə olunan bir sosial qrup kimi qəbul etmişdir (Murdock, 1949, s. 1). Digər bir tərifdə ailənin iqtisadi və sosial funksiyası vurğulanaraq, ailə ana, ata, uşaq və qohumlardan ibarət birlik kimi izah edilmişdir (Gökçe, 1976, s. 48). Bununla yanaşı, Dikeçligil də ailəni uşaqların baxımının həyata keçirildiyi və tərbiyə olunduğu sosial bir institut kimi qeyd edir [8.s.231-266].

Ailə, evlilik İnstitutu vasitəsi ilə yaradılan cəmiyyətin ən kiçik və ən əsas qurumlarından biridir [3]. Ailə, insan nəslinin müəyyən bir şəkildə davam etdirildiyi, toplum həyatına hazırlıq prosesinin müəyyən qədər ilk və təsirli şəkildə baş verdiyi, cinsi münasibətlərin tənzimləndiyi, həyat yoldaşları, uşaqlar və digər yaxınlar arasında səmimi, isti və etibarverici münasibətlərin formalaşdığı, həmçinin mövcud ictimai quruluşa uyğun olaraq iqtisadi fəaliyyətlərin yer aldığı sosial bir müəssisədir. [11.s.71].

Həyat yoldaşları arasındakı uyğunluq, münasibətin bütün sahələrinə təsir göstərə bilən mühüm amillərdən biridir. Zaman keçdikcə həyat yoldaşları arasındakı münasibətdə müsbət faktorlarla yanaşı həm də mənfi faktorların birlikdə fəaliyyət göstərdiyi bir balans formalaşır. Bu balans sistemi evliliyi ya davam etdirən, ya da pozan rol oynaya bilər [11.s.71].

Ailə münasibətlərində sabit funksiyaya malik olan bu balanslar sosial, iqtisadi, mədəni və eyni zamanda fərdi (xəstəlik, xarakter xüsusiyyətləri, sədaqətsizlik və s.) mənbəli pozucu amillərlə sarsıla bilər. Xüsusilə də kövrək bir zəmin üzərində qurulmuş evliliklər bu amillər nəticəsində sonlana biləcək qədər güclü təsir altına düşə bilər. Bəzən də formalaşmış balans həyat yoldaşlarından birinin fərdi psixoloji probleminə əsaslana bilər və həmin tərəfin müalicə nəticəsində yaxşılaşması ilə mövcud sistem çökmə vəziyyətinə düşə bilər [11.s.71].

Evlilikdə xoşbəxtlik, həyat yoldaşlarının münasibət qurma bacarıqları ilə birbaşa əlaqəlidir. Bu baxımdan, problem həll etmə vacib ünsiyyət bacarığıdır. Problem həll etmə bacarıqları ilə evlilik doyumu eyni zamanda cütlük münasibətləri arasındakı əlaqə haqqında isə nisbətən az məlumat mövcuddur. Buna baxmayaraq evlilik daxilində yaşanan problemlərdə təsirli şəkildə həll yolu tapma bacarığının evlilik doyumuna əhəmiyyətli töhfə verdiyi barizdi [13.s.42].

Evliliklə bağlı vacib anlayışlardan biri də evlənmə formasıdır. Evlənmə forması həm şəxslər, həm də cəmiyyətlər arasında müxtəliflik göstərir. Fərdiyyətçiliyin ön planda olduğu Qərb mədəniyyətində sevgi, bağlılıq və evlilikdə bərabərliyi təmsil edən qarşılıqlı razılaşma əsasında evlənmə daha geniş yayılmışdır [13.s.17].

Azərbaycan vəTürkiyə kimi ənənənəvi dəyərlərə malik olan mədəniyyətlərdə isə razılaşma əsasında evlənməkdən əlavə görücü üsulu və qohum evlilikləri kimi nadir rast gəlinən evliliklərdə mövcuddur [13.s.17].

Ənənəvi evliliklərdə qadınların ev işi və uşaqlara baxmaq kimi nisbətən dəqiq müəyyənləşdirilmiş rollara sahib olduqları halda kişilər isə əksər hallarda işləməkdə və ailənin maddi təminatını qarşılamaq rolunu davam etdirməkdədirlər. Bu zaman qadınların həyat yoldaşlarından daha asılı vəziyyətdə olduqları müşahidə edilir [13.s.17].

Ailə daxili problemlərini həll etmək üçün bir çox uyğun kodlaşdırma sistemləri mövcuddur və bu sistemlər daha çox bacarıqdan çox prosesin özünə fokuslanır. David R. Winemiller evlilik daxilində problemlərin həllini qiymətləndirən Evlilik Effektiv Kodlama Sistemi (Marital Efficacy Coding System) ilə apardığı tədqiqatda, tərəflərin təsirli həll təklifləri verə bilmə bacarığının evlilik doyumunun mühüm müəyyənedicilərindən biri olduğunu qeyd etmişdir [13.s.42].

Evlilik doyumunun, tərəflərin nə qədər tez-tez problem yaşadıqları, problemi həll edərkən real həyat şərtlərini hansı dərəcədə nəzərə aldıqları və nə qədər tez-tez təsirli həll yolları yarada bildikləri ilə əlaqəli olduğu müəyyən edilmişdir. Şübhəsiz ki, evliliklərində doyumsuzluq yaşayan cütlüklərin problem həll etmə səyləri daha az nəticə verir [13.s.42].

**Nəticə.** İnsanlığın başlanğıc dövrlərində "var olma" mübarizəsinin üstünlük təşkil etdiyi şəraitdə ailə, ailə anlayışının əsas funksiyalarından biri olan "birlikdə yaşama" prinsipinə əsaslanırdı. Birlikdə yaşamaq isə qorunma, təhlükəsizlik, sosial, iqtisadi və dini səbəblərə, xüsusilə də istehsala dayanırdı. Bu baxımdan ailə üzvləri arasında güclü bir "dayanışma" və ailənin bütövlüyünə qarşı "məsuliyyət" hakim idi [6.s.889-890]. Nəticə etibarilə, ailənin mənası insandan insana, mədəniyyətdən mədəniyyətə, nəsildən nəslə dəyişdiyi üçün ümumi bir tərif vermək çətindir. Əslində iki mühüm amil ailə ilə bağlı universal bir tərif yaratmağı çətinləşdirir. Bunlardan birincisi, ailənin mədəniyyətə görə fərqlənməsi və beləliklə cəmiyyətlər arasında müxtəliflik göstərməsi; ikincisi isə ailə quruluşu və ailədaxili münasibətlər kimi məsələlərin daim dəyişməsidir [8.s.231-266].

## ƏDƏBİYYAT

1. Mirzəyeva, S. H. (2013). İslamda ailə daxili məsələlər. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, 51-58.)

2. Abdullayeva, S. (2024). Ailə Milli-Mənəvi Dəyər Kimi. Akademik Tarih ve Düşünc Dergisi, 11(2), 1122-1126.).

3. Kələntərli, C. (2023).Boşanmış qadınlarda stress səviyyələri və stressin yaranmasına təsir edən faktorların təhlili (Master's thesis, Khazar University (Azerbaijan)).)

4. Mirzəyeva, S. H. (2017). Din ailə və ailə münasibətləri. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, 167-172.)

5. Cabılar, B. Ö., & Yılmaz, A. E. (2022). Boşanma ve boşanma sonrası uyum: Tanımlar, modeller ve uyumun değerlendirilmesi. Psikiyatride Güncel Yaklaşımlar, 14(1), 1-11.)

6. Can, Y., & Aksu, N. B. (2016). Boşanma sürecinde ve sonrasinda kadin. Elektronik Sosyal Bilimler Dergisi, 15(58).)

7. Bulut. I. (1993). Ruh sağlığının aile işlevlerine etkisi. Ankara: T.C. Başbakanlık Aile Araştırma Kurumu yayını)

8. Kucur, F., & Kelebek, Ö. (2021). Boşanmış kadınların boşanma aşaması, süreci ve sonrasında yaşadıkları zorluklar: Esenler SHM örneği. In *Journal of Social Policy Conferences* (No. 80, pp. 231-266). Istanbul University.
9. Şahan, B., & Kılıçarslan, S. (2024). Boşanmış bireylerin boşanma nedenleri ve boşanma sürecinde yaşadığı güçlükler. İnönü Üniversitesi Eğitim Fakültesi Dergisi, 25(3), 1439-1461.
10. Çatal, M. T., & Kalkan, M. (2019). *Evli bireylerin evlilik değerleri evlilik doyumu ve evlilik tipleri* (Doctoral dissertation, Muhammed YILDIZ).
11. Gülsün, M., Ak, M., & Bozkurt, A. (2009). Psikiyatrik açıdan evlilik ve cinsellik. *Psikiyatride Güncel Yaklaşımlar*, *1*(1), 68-79.
12. Yalçın, H. (2014). EVLİLİK UYUMU İLE SOSYODEMOGRAFİK ÖZELLİKLER ARASINDAKİ İLİŞKİ.
13. Şendil, G., & Korkut, Y. (2008). Evli çiftlerdeki çift uyumu ve evlilik çatişmasinin demografik özellikler açisindan incelenmesi. Studies in Psychology, 28, 15-34.

## NİKAH VƏ AİLƏ ANLAYIŞLARINA SOSİOLOJİ VƏ PSİXOLOJİ KONTEKSTDƏ YANAŞMALAR

***Əmrahova Ülviyyə***

### XÜLASƏ

Evlilikdə həyat yoldaşlarının müəyyən sosial və psixoloji ehtiyacları var. - Sosial ehtiyaclara təhlükəsizlik, qorunma, həmrəylik hissi və gələcəyə inam, bir-birinizə qayğı, birlik hissi, bir-birinizlə qürur duymaq, ortaq hədəflərə çatmaq üçün birlikdə çalışmaq və s.daxildir. bu ona aid edilə bilər. - Digər tərəfdən, psixoloji ehtiyaclar sevgi və münasibətlərdən asılı olaraq evlilikdə məmnuniyyət əldə etməklə əlaqələndirilir.Bulut'a (1993) görə, araşdırmalar güclü ünsiyyət bacarıqlarına sahib ailələrdə yüksək münasibət məmnuniyyətini də göstərdi. Beləliklə, müsbət ünsiyyət ailə üzvlərini dekommunizasiya edir, bir-birlərini kompensasiya etməyə imkan verir, aralarındakı birlik və bərabərlik hissini gücləndirir, özlərinə və bir-birlərinə hörmət etməyə imkan verir. Ünsiyyətsiz ailələr arasındakı ünsiyyətin qarşılıqlı harmoniya, empatiya və hörmətin ötürülməsində mühüm rol oynadığı düşünülür. Ailə və üzvləri arasında müsbət və ya mənfi duyğuların ötürülməsi yalnız təsirli ünsiyyət yolu ilə aradan qaldırıla bilər.

## ПОДХОДЫ К ПОНЯТИЯМ БРАКА И СЕМЬИ В СОЦИОЛОГИЧЕСКОМ И ПСИХОЛОГИЧЕСКОМ КОНТЕКСТЕ

***Ульвия Амрахова***

### АННОТАЦИЯ

В браке супруги имеют определенные социальные и психологические потребности. -Социальные потребности включают безопасность, защиту, чувство солидарности и веры в будущее, заботу друг о друге, чувство единства, гордость друг за друга, совместную работу для достижения общих целей и т. д.включает в себя. это можно отнести к нему. - С другой стороны, психологические потребности связаны с достижением удовлетворения в браке в зависимости от любви и отношений.Согласно Cloud (1993), исследования также показали высокую удовлетворенность отношениями в семьях с сильными коммуникативными навыками. Таким образом, позитивное общение декоммунизирует членов семьи, позволяет компенсировать друг

друга, укрепляет чувство единства и равенства между ними, позволяет уважать себя и друг друга. Считается, что общение между необщительными семьями играет важную роль в передаче взаимной гармонии, сочувствия и уважения. Передача положительных или отрицательных эмоций между семьей и ее членами может быть устранена только посредством эффективного общения.

## APPROACHES TO THE CONCEPTS OF MARRİAGE AND FAMİLY İN A SOCİOLOGİCAL AND PSYCHOLOGİCAL CONTEXT

***Ulviyya Amrahova***

**SUMMARY**

In marriage, spouses have certain social and psychological needs. - Social needs include security, protection, a sense of solidarity and confidence in the future, caring for each other, a sense of unity, pride in each other, working together to achieve common goals, etc.included. this can be attributed to him. - On the other hand, psychological needs are associated with obtaining satisfaction in marriage, depending on Love and relationships.According to Bulut (1993), studies have also shown high relationship satisfaction in families with strong communication skills. Thus, positive communication decommunizes family members, allows them to compensate for each other, strengthens the feeling of unity and equality between them, and allows them to respect themselves and each other. Communication between unsociable families is thought to play an important role in transmitting mutual harmony, empathy, and respect. The transmission of positive or negative emotions between the family and its members can only be overcome through effective communication.

# EKOLOJİ ƏDALƏT VƏ SOSİAL İŞ: YAŞIL SOSİAL İŞƏ GİRİŞ

***Nərimanlı Nuhu Nəriman oğlu***
***Bakı Biznes Universiteti 2-ci kurs magistrantı***
**nuhu.narimanli@gmail.com**

***Açar sözlər***: Ekoloji ədalət, sosial iş, yaşıl sosial iş, dayanıqlı inkişaf, iqlim dəyişikliyi
***Ключевые слова***: экологическая справедливость, социальная работа, зелёная социальная работа, устойчивое развитие, изменение климата
***Keywords.*** Environmental justice, social work, green social work, sustainable development, climate change.

**Giriş.** Ekoloji ədalət anlayışı son onilliklərdə həm sosial elm, həm də ətraf mühit siyasəti sahələrində mühüm konseptlərdən birinə çevrilmişdir. Qlobal iqlim dəyişikliyi, sürətlə artan sənayeləşmə, urbanizasiya və təbii resurslardan qeyri-bərabər istifadə kimi faktorlar göstərir ki, ətraf mühitlə bağlı qərarların yalnız ekoloji deyil, həm də sosial nəticələri vardır. Bu baxımdan ekoloji ədalət cəmiyyətin müxtəlif sosial qrupları arasında resurslara çıxışın, ekoloji risklərin və faydaların ədalətli bölüşdürülməsini təmin edən yanaşma kimi çıxış edir. Xüsusilə sosial-iqtisadi cəhətdən zəif təbəqələrin ekoloji risklərə daha həssas olması bu anlayışın aktuallığını artırır. Ekoloji ədalət anlayışı, ətraf mühitlə bağlı qərarların bütün sosial qruplar üçün bərabər şəkildə verilməsini və təbiətin qorunması prosesində sosial haqsızlıqların qarşısının alınmasını nəzərdə tutur. Ən çox çirklənmiş və təhlükəli bölgələrdə yaşamaq məcburiyyətində qalan əhali, adətən sosial baxımdan zəif təbəqələrdən ibarət olur. Bu səbəbdən, ekoloji ədalət həm də sosial ədalətin ayrılmaz hissəsi kimi qəbul edilir [3, s. 25]. Bu fikirlərdən aydın olur ki, ekoloji məsələlərin yalnız bioloji proseslər kontekstində deyil, həm də sosial struktur və bərabərlik çərçivəsində araşdırılması zəruridir. Müasir yanaşmalar göstərir ki, ekoloji ədalət problemi əslində struktur bərabərsizliklərin təzahür formalarından biridir. Məsələn, inkişaf etməkdə olan ölkələrdə sənaye müəssisələrinin daha çox aşağı gəlirli ərazilərdə yerləşdirilməsi, həmin regionlarda yaşayanların sağlamlıq risklərini artırmaqla yanaşı, onların sosial və iqtisadi inkişaf perspektivlərini də məhdudlaşdırır. Bu isə ekoloji ədaləti həm makro, həm də mikro səviyyədə araşdırmağı vacib edir.

Müasir sosial iş nəzəriyyələri insanın rifahını yalnız sosial münasibətlər və psixoloji amillər çərçivəsində deyil, həm də onun bütün mühitlə — xüsusən də təbii ekosistemlə qarşılıqlı təsirində dəyərləndirir. Artan ekoloji böhranlar, iqlim dəyişiklikləri, urbanizasiya və sənayeləşmənin sosial nəticələri göstərir ki, ekoloji faktorlar insanların həyat keyfiyyəti, sağlamlığı və sosial imkanları üzərində ciddi təsirə malikdir. Bu səbəbdən sosial işdə ekoloji yanaşma həm nəzəri, həm də praktik səviyyədə insan–mühit münasibətlərinə daha kompleks baxış tələb edir. Bu yanaşma insan rifahını bütövlükdə ekoloji sistemin vəziyyətindən asılı olan dinamik proses kimi şərh edir. Sosial işdə ekoloji yanaşma, insanın yalnız fərdi və sosial mühitdə deyil, həm də təbii mühitdə fəaliyyət göstərən bir varlıq kimi qəbul edilməsini tələb edir. Bu perspektivə görə, fərdlərin rifahı onların yaşadığı ekoloji şəraitlə sıx əlaqəlidir. Sosial işçilər bu yanaşma ilə müştərilərinin ətraf mühit problemlərindən necə təsirləndiyini nəzərə alır və uyğun müdaxilələr planlaşdırır [2, s. 32]. Bunlar sosial işin mahiyyətində insanın çoxşaxəli və sistemli şəkildə dərk olunmasının vacibliyini bir daha vurğulayır. Belə ki, ekoloji yanaşma çərçivəsində sosial işçilər yalnız psixososial çətinlikləri deyil, həm də ekoloji stress faktorlarını — hava çirkliliyi, təhlükəli yaşayış zonaları, su çatışmazlığı, iqlim dəyişməsinin yaratdığı risklər və ya ekosistemin deqradasiyası kimi problemləri də qiymətləndirirlər. Bu, müdaxilə planlarının daha çevik, daha inklüziv və daha dayanıqlı şəkildə hazırlanmasına şərait yaradır.

Eyni zamanda, ekoloji yanaşma sosial siyasətlərin formalaşdırılmasına da yeni baxış gətirir. Sosial rifahın təminində ekoloji amillərin nəzərə alınması həm sosial bərabərliyin qorunmasına, həm də ətraf mühitə həssas yanaşmanın güclənməsinə səbəb olur. Bu çərçivədə sosial işçilər yalnız fərdlərlə deyil, həm də icmalarla, yerli idarəetmə qurumları ilə və ekoloji təşkilatlarla əməkdaşlıq edərək daha geniş miqyasda dəyişiklik yaratmağa çalışırlar.

Qlobal iqlim dəyişikliyi və onun insanlar üzərindəki təsirləri elmi dairələr tərəfindən uzun illərdir müzakirə olunmaqdadır. İqlim dəyişikliyinin insan rifahına təsirləri barədə aparılan beynəlxalq tədqiqatlar göstərir ki, ekosistemlərin deqradasiyası və ekstremal hava hadisələrinin artması xüsusilə sosial cəhətdən həssas qrupları daha çox zərbə altında qoyur. IPCC-nin 2022-ci il hesabatında vurğulandığı kimi, iqlim risklərinin qeyri-bərabər paylanması sosial bərabərsizlikləri daha da dərinləşdirir və yeni miqrasiya dalğalarına təkan verir [6, s. 36]. İqlim dəyişikliyi; quraqlıq, səhralaşma, daşqın, sunami, dəniz səviyyəsinin qalxması, qasırğa kimi təbii hadisələrin tezliyini və şiddətini artırır. İqlim dəyişikliyi və ətraf mühitin pozulması nəticəsində əsas ehtiyaclarını ödəyə bilməyən insanlar köç etməyə məcbur qalırlar. Mövcud elmi ədəbiyyatda bu proses mühüm sosial risk faktoru kimi qiymətləndirilir və ekoloji dəyişikliklərə bağlı məcburi miqrasiya fenomeninin gələcək illərdə daha da artacağı proqnozlaşdırılır [6, s. 36].

Bu vəziyyəti ifadə edən "iqlim qaçqınları" anlayışı, insan mənşəli – kapitalist/neo-liberal siyasətlərə bağlı – iqlim dəyişikliyinin insanlar və ətraf mühit üzərindəki təsirlərinin fərqli bir yönünü ortaya qoyur. McAdam və Piguet-in ekoloji miqrasiya ilə bağlı araşdırmalarında qeyd edilir ki, iqlim qaçqınlarının yaranması təkcə təbii proseslərin nəticəsi deyil, həm də iqtisadi model, idarəetmə siyasətləri və resursların qeyri-bərabər paylaşdırılması ilə sıx bağlıdır [7, s. 41]. Yaşadıqları əraziləri və mədəni xüsusiyyətlərini tərk etməyə məcbur olan iqlim qaçqınları; iqtisadi, sosial və ekoloji problemlərə görə sosial xidmət mütəxəssislərinin peşəkar fəaliyyət göstərməli olduğu bir sahəni təşkil edir. Bundan əlavə, köç başlamazdan əvvəl sosial xidmətin qoruyucu – fiziki və ictimai mühiti qorumağa yönəlik – və qabaqlayıcı fəaliyyətlər həyata keçirilməsi vacibdir. Dominelli yaşıl sosial xidmət strategiyalarında qeyd edir ki, sosial xidmət yalnız insana yönəlmiş dəstək mexanizmləri ilə məhdudlaşmamalı, həm də ətraf mühitin təhlükəsizliyinə yönəlmiş tədbirləri özünə daxil etməlidir [1, s. 57].

İnsan mənşəli iqlim dəyişikliyi səbəbilə köç edən insanlarla aparılan sosial xidmət tətbiqlərində fiziki və təbii mühitə – flora və faunaya – lazımi əhəmiyyətin verilməsini önə çəkən "yaşıl sosial xidmət" baxış bucağından istifadə edilə bilər. Yaşıl sosial xidmət, sosial xidmət mütəxəssislərinin ətraf mühitlə bağlı ədalətsizliklərin qarşısının alınmasında və davamlı sosial-ətraf mühit inkişafında rolunu ifadə edən və son illərdə istifadəsi artan bir anlayışdır. Dominelli bu modelin mahiyyətini izah edərkən vurğulayır ki, sosial xidmət ekoloji problemlərin insan həyatına təsirini nəzərə alan kompleks və ekosistem yönümlü müdaxilələr həyata keçirməlidir [1, s. 60]. Lakin sosial xidmət ədəbiyyatına nəzər salındıqda, yaşıl sosial xidmət anlayışının, sosial xidmətin mövzusu olan iqlim qaçqınları kontekstində yetərincə dəyərləndirildiyi mənbələrin az olduğu müşahidə olunur. Bu boşluq həm nəzəri tədqiqatların, həm də praktik yanaşmaların genişləndirilməsinin zəruriliyini göstərir.

**Yaşıl Sosial İşin Prinsipləri və Tətbiq Sahələri**

Yaşıl sosial iş ekoloji və sosial ədalət arasında körpü rolunu oynayan, davamlı inkişaf və resursların ədalətli bölüşdürülməsini əsas alan bir sahədir. Onun əsas prinsipləri bunlardır:

1. İnsan və təbiət arasında qarşılıqlı asılılıq anlayışı
2. İcma yönümlü yanaşmaların təşviqi

3. Sosial bərabərliyin və ətraf mühitin qorunmasının paralel aparılması
Pandemiya dövründə sosial işçilərin artan psixoloji yüklənməsinin qarşısını almaq və onların emosional rifahını qorumaq üçün çoxsəviyyəli dəstək mexanizmlərinin qurulması vacib olmuşdur. Bu dəstək strategiyaları mikro yəni fərdi, mezo yəni təşkilati, makro sistem səviyyəsində həyata keçirilməli və sosial işçilərin həm şəxsi, həm də peşəkar ehtiyaclarını qarşılamalıdır. İlk olaraq fərdi səviyyədə yəni mikro səviyyədə dəstək strategiyalarına nəzər yetirək. Sosial işçinin öz psixoloji sabitliyini qoruması, emosional tükənmənin qarşısını almaqda əsas faktordur. Fərdi səviyyədə tətbiq olunan strategiyalar bunlardır: (2. 259)

1.Özünəqayğı bacarıqlarının inkişaf etdirilməsi. Sosial işçilərin öz rifahlarına diqqət yetirməsi və bu mövzuda maariflənməsi vacibdir. İstirahət vaxtının qorunması, hobbilərinə vaxt ayırıb məşğul ilməsi, sağlam qidalanma və yuxu rejiminə riayət etmək onların stressə qarşı davamlılığını artırır.

2.Stresslə mübarizə texnikaları. Meditasiya, nəfəs məşqləri, fiziki fəaliyyət, jurnal və ya məqalə yazmaq kimi fərdi üsullar sosial işçilərin emosional cəhətdən rahatlamasına kömək edir.

3.Emosional sərhədlərin müəyyənləşdirilməsi. Sosial işçilər yardım etdikləri şəxslərlə peşəkar sərhədləri qorumağı öyrənməlidir. Bu, onların emosional olaraq hadisələrə qapanmasının və psixoloji yüklənməsinin qarşısını alır.

Digər bir səviyyə mezo, yəni təşkilati səviyyədə həyata keçirilən dəstək tədbirləridir. Sosial işçilərin çalışdıqları müəssisələr onların psixoloji rifahını qorumaqda əsas rol oynayır. Bu məqsədlə aşağıdakı müdaxilələr effektiv hesab olunur:

1. Psixoloji dəstək və superviziya proqramlarının təşkili. Təşkilatlar sosial işçilər üçün mütəmadi psixoloji konsultasiyalar, dəstək qrupları və superviziyalar (nəzarət və yönləndirmə) imkanları yaratmalıdır. Bu, sosial işçilərin hisslərini ifadə etməsinə və peşəkar yardım almasına imkan verir.

2. Elastik iş rejimi və iş yükünün tənzimlənməsi. Pandemiya dövründə çevik iş saatları, növbəli sistem və məsafədən iş imkanları işçilərin balanslı şəkildə işləməsinə şərait yaradır. İş yükünün ədalətli bölüşdürülməsi isə emosional tükənmənin qarşısını alır.

3. Peşəkar inkişaf imkanlarının yaradılması. Onlayn təlimlər, vebinarlar və interaktiv seminarlar sosial işçilərə həm bilik, həm də motivasiya qazandırır. Peşəkar bacarıqların təkmilləşdirilməsi onların özlərinə olan inamını, güvənini artırır.

4. Motivasiya mexanizmlərinin təşkili. Sosial işçilərin fəaliyyəti rəhbərlik tərəfindən qiymətləndirilməli və mükafatlandırılmalıdır. Fikrimcə, sadə təşəkkürlər, diplomlar , hətta kiçik stimullar belə onların mənəvi motivasiyasını yüksəldə bilər.

Makro səviyyədə, yəni sistem səviyyəsində dəstək və həmçinin müdaxilə yollarına diqqət yetirək. Sosial siyasət səviyyəsində dəstək tədbirləri sosial işçilərin daha təhlükəsiz və dayanıqlı mühitdə fəaliyyət göstərməsinə şərait yaradır. Bu müdaxilə strategiyalarına daxildir:

1.Sosial işçilər üçün hüquqi təminatlar. Dövlət tərəfindən sosial işçilərin statusunun rəsmiləşdirilməsi, əmək hüquqlarının qorunması və riskli şəraitdə işləyənlər üçün əlavə güzəştlər tətbiq olunmalıdır.

2.Əmək haqqı və sosial təminat məsələlərinin gücləndirilməsi. Sosial işçilərin motivasiyası yalnız mənəvi deyil, maddi dəstəklə də təmin olunmalıdır. Əmək haqqlarının artırılması, sığorta və tibbi yardım imkanlarının genişləndirilməsi onların rifahını artırar.

3.Krizis planlarının hazırlanması. Gələcək fövqəladə hallarda sosial xidmət sektorunun hazırlıqlı olması üçün böhran dövrü fəaliyyət planları, ehtiyat resurslar və xüsusi təlimat sistemləri yaradılmalıdır.

4.Cəmiyyətin məlumatlandırılması və maarifləndirmə. Sosial işçilərin cəmiyyətdəki rolu və əhəmiyyəti barədə ictimai məlumatlandırma işləri aparılmalıdır. Bu həm onların nüfuzunu artırar, həm də daha geniş dəstək formalaşdırar.

**Nəticə.** Pandemiya dövrü sosial iş sahəsində çalışan mütəxəssislərin üzərinə həm funksional, həm də emosional baxımdan böyük yük qoymuşdur. Sosial işçilər pandemiya dövründə cəmiyyətin psixososial sabitliyini qoruyan əsas qruplarından biri olmuşdur. Sosial işçilər cəmiyyətin ən həssas təbəqələri ilə işləyərkən öz sağlamlıqlarını, psixoloji sabitliklərini və peşəkar dayanıqlıqlarını qorumaq üçün çətin şərtlərlə üz-üzə qalmışlar. Yoluxma qorxusu, artan iş yükü, emosional tükənmə və sosial təcrid kimi faktorlar onların psixoloji rifahına ciddi təsir göstərmişdir. Bu baxımdan, sosial işçilərin psixoloji yüklənməsinin azaldılması və onların dayanıqlılığının təmin olunması üçün çoxsəviyyəli dəstək mexanizmləri zəruridir. Fərdi özünəqayğı strattegiyalarından başlayaraq, təşkilati psixoloji dəstək sistemlərinə və dövlət səviyyəsində qəbul olunmuş hüquqi-sosial tədbirlərə qədər bütün səviyyələrdə koordinasiyalı fəaliyyət tələb olunur. Belə yanaşmalar yalnız pandemiya dövrü üçün deyil, eyni zamanda gələcək böhran hallarında sosial işin davamlılığını və keyfiyyətini təmin etmək baxımından damühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT

1.Mehmet Selahattin KARAHAN, Leyla ÖZGEN. Sosyal Hizmet ve Merhamet Yorgunluğu Kavramı. Ases Ulusal Sosyal Bilimler Dergisi 4 (2), 162-167, 2024

2. Merve Nur Oktar, Zeynep Uyanık Negiz. Covid-19 Salgin Döneminde Psiko-Sosyal Destek Uygulamasinda Aktif Çalişan Sosyal Hizmet Uzmanlari Üzerine Nitel Bir Araştirma 10 (1), 246-276, 2023

3. Serdar Aykut, Sezen Soner Aykut. Kovid-19 pandemisi ve travma sonrası stres bozukluğu temelinde sosyal hizmetin önemi. Toplumsal Politika Dergisi 1 (1), 56-66, 2020

4. Toker, G., & Yalçın, A. (2020). COVID-19 pandemisinin sosyal hizmet çalışanlarının iş yükü ve psikolojik sağlık üzerine etkisi. Türk Psikiyatri Dergisi, 31(4), 367-379.

5. Özdemir, M. (2017). Sosyal hizmet uygulamalarında duygusal tükenmişlik ve başa çıkma stratejileri. Sosyal Hizmetler Dergisi, 11(2), 112-125.

6. Harun Ceylan, Niğmet Gül, Metin Öksüz. Sosyal çalışmacılarda iş doyumu ve tükenmişliğe etki eden faktörlerin sosyal hizmet alanlarına göre karşılaştırmalı incelenmesi. Yalova Sosyal Bilimler Dergisi 6 (11), 43-69, 2016

7.Dolgun, U. (2010). Tükenmişlik sendromu. Örgütsel davranışta güncel konular, 287-310

## PANDEMİYA DÖVRÜNDƏ SOSİAL İŞÇİLƏRİN PSİXOLOJİ YÜKÜ VƏ DƏSTƏK STRATEGİYALARI

***Hüseynzadə Günay***

### XÜLASƏ

Məlum olduğu kimi, COVID-19 pandemiyası bütün dünyada səhiyyə və sosial sistemləri sınaqdan keçirib. Xüsusilə sosial işçilər cəmiyyətin ən həssas qrupları ilə birbaşa işlədikləri üçün bu dövrdə həm peşəkar, həm də şəxsi baxımdan əhəmiyyətli psixoloji yükə məruz qalıblar. Onlar evsizlər, yaşlılar, uşaqlar, zorakılıq qurbanları və psixososial dəstəyə ehtiyacı olan digər insanlarla təmasda olublar və fasiləsiz yardımı təmin etmək üçün riskli şəraitdə fəaliyyət göstəriblər. Bu məqalədə sosial işçilər arasında psixoloji yükün əsas səbəbləri, o cümlədən infeksiya qorxusu, artan iş yükü, emosional stress, sosial təcrid, texnoloji uyğunlaşmada çətinliklər və cəmiyyət tərəfindən tam tanınmama sistematik şəkildə təhlil ediləcək. Bundan əlavə, məqalədə sosial işçilərin psixoloji rifahını dəstəkləmək üçün mikro, mezo və makro səviyyələrdə potensial strategiyalar araşdırılacaq.

## ПСИХОЛОГИЧЕСКАЯ НАГРУЗКА СОЦИАЛЬНЫХ РАБОТНИКОВ В ПЕРИОД ПАНДЕМИИ И СТРАТЕГИИ ПОДДЕРЖКИ

***Гусейнзаде Гюнай***

### АННОТАЦИЯ

Как известно, пандемия COVID-19 стала серьезным испытанием для систем здравоохранения и социальной защиты по всему миру. Особенно пострадали социальные работники, которые в этот период непосредственно работали с наиболее уязвимыми слоями населения и подвергались значительной психологической нагрузке как на профессиональном, так и на личном уровне. Они взаимодействовали с бездомными, пожилыми людьми, детьми, жертвами насилия и другими группами, нуждающимися в психосоциальной поддержке, при этом продолжая оказывать помощь в условиях повышенного риска. В данной статье будут системно проанализированы основные причины психологической нагрузки социальных работников, такие как страх заражения, увеличение объема работы, эмоциональное напряжение, социальная изоляция, трудности адаптации к технологиям и недостаточная оценка со стороны общества. Кроме того, будут рассмотрены стратегии поддержки психологического благополучия социальных работников на микро-, мезо- и макроуровнях.

# PSYCHOLOGICAL BURDEN OF SOCIAL WORKERS DURING THE PANDEMIC AND SUPPORT STRATEGIES

***Huseynzadeh Gunay***

## SUMMARY

As is well known, the COVID-19 pandemic has tested healthcare and social systems worldwide. Social workers, in particular, were exposed to significant psychological burden both professionally and personally during this period, as they worked directly with the most vulnerable groups in society. They were in contact with the homeless, the elderly, children, victims of violence, and others in need of psychosocial support, operating in risky conditions to ensure uninterrupted assistance. This article will systematically analyze the main causes of psychological burden among social workers, including the fear of infection, increased workload, emotional stress, social isolation, difficulties in technological adaptation, and lack of full recognition by society. In addition, the paper will explore potential strategies at the micro, mezo, and macro levels to support the psychological well-being of social workers.

# UŞAQLARIN YAŞADIĞI FİZİKİ ZORAKILIQ VƏ ONUN DİAQNOSTİK İNDİKATORLARI

***Abbaszadə Əsmər Azər qızı***
***Bakı Biznes Universitetinin II kurs magistrantı***
***esmerabbszd@gmail.com***

***Açar sözlər***: fiziki zorakılıq, risk faktorları, uşaq, cinsi zorakılıq, emosional gərginlik, xəsarət, valideyn
***Keywords***: physical violence, risk factors, child, sexual violence, emotional tension, injury, parent
***Ключевые слова***: физическое насилие, факторы риска, ребенок, сексуальное насилие, эмоциональное напряжение, травмы, родитель

**Giriş.** Ümumdüya Səhiyyə Təşkilatının (ÜST) tərifinə əsasən zorakılıq, fiziki qüvvə və ya səlahiyyətin istər faktiki istərsə də hədə şəklində özünə, digər şəxsə, bir qrup insana və ya icmaya qarşı tətbiq edilməsidir. Nəticə olaraq isə, cismani xəsarətlət, ölüm, psixoloji travma, inkişafın pozulması və digər zərərlər yarana bilir [1.s.5]. J.Dowey, qüvvənin üç anlayışını əsas üç kateqoriyada fərqləndirmişdir: güc və ya enerji, məcburedici qüvvə və zorakılıq. Güc və ya enerji – məqsədləri həyata keçirmək və ya bu məqsədləri icra etmək bacarığı olaraq əks olunur. [2.s.5] Zorakılıq isə, qüvvənin, gücün və ya enerjinin yalnış müstəvində istifadəsidir. Burada məqsəq nizam yaratmaq və həyata keçirmək deyildir. Tam tərsinə dağıdıcı rol oynamaq və parçalamaqdan ibarətdir [2.s.5]. Zorakılıq faktorundan ən çox əziyyət çəkən qrup sırasına uşaqlar, qadınlar və yaşlı şəxslər hesab edilir. Uşaqlara qarşı zorakılıq zorakılığın çox vaxt gizli qalan və cəmiyyət tərəfindən açıq şəkildə görünməyən formasıdır. Bu davranış uşaqların fiziki və psixososial inkişafına ciddi maneələr törədir. Həmçinin cəmiyyətin mədəni-mənəvi dəyərlərinin pozulmasına səbəb olan amillərdən biri olaraq hesab olunur [5.s.16].

Uşağa qarşı olan zorakılığın növlərinə fiziki zorakılıq,emosional zorakılıq, cinsi zorakılıq və etinasızlıq daxildir. Fiziki zorakılıq - 18 yaşından kiçik olan uşağın digər şəxs tərəfindən sağlamlığına zərər yetirəcək formada fiziki zədə alması, yaralanması və ya yaralanma riskinin mövcud olmasıdır. Fiziki zorakılıq müxtəlif üsullar ilə həyata keçirilə bilər. Məsələn, əl ilə və ya başqa bir əşya ilə vurmaq, itələmək, silkələmək, yandırmaq, dişləmək və s. Başqa bir ad olaraq "uşağın qəza xarici yaralanması" deyə bilərik. Uşağın qəza xarici yaralanması adətən valideynin uşağı tərbiyyə və ya digər məqsədlər altında cəzalandırmaq istəyi zamanı baş verir. Bu kimi hallarda bəzi valideynlər idarəsini itirir və uşağın zədə almasına səbəb olacaq davranışlara əl atır. Cəza metodu olaraq isə insanların ən çox istifadə etdiyi metod döymə hesab olunur [4.s.51-52]. Uşağa qarşı fiziki zorakılığın ən çox rastlandığı müəyyən bir yaş aralığı vardır. Bu yaş aralığı əsasən 4-8 yaş aralığı olaraq qəbul edilir. Yaş artdıqca fiziki zorakılığa məruz qalma nisbətinin azaldığı müşahidə olunmuşdur. Cinsiyyət baxımından isə yeniyetməlik dövründə olan qızu şaqlarının daha çox fiziki zorakılığa məruz qaldığı müəyyən edilmişdir [4.s.51-52].

Uşağa qarşı fiziki zorakılıq hallarınən altında xüsusi qəddarlıq müşayət olunur. Uşaqları döymək, alcaldıcı cəzaların vermək, siqaretlə yandırmaq, qapalı bir yerdə bağlı saxlamaq qəddar davranış başlığı altında birləşir. Uşaqlara qarşı qəddarlığın müxtəlif formaları mövcuddur. Bu da zorakılığın hansı miqyasda yayıldığını anlamağımızda çətinlik yaradır. Digər yandan isə, insanların hansı davranışın qəddarlıq olduğuna dair müxtəlif anlayışları vardır. Bəzi insanların yanaşmasına görə zorakı davranış sadəcə sərt cəza tədbiridir. Bu səbəblə uşağın "tərbiyyə məqsədi" ilə döyülməsi norma olaraq qəbul edilir. (Çocuğa Uygulanan şiddet: Türkiye Özelinde Sosyolojik Bir Yaklaşım) Fiziki zorakılıq halları tez-

tez tərbiyyə vasitəsi, intizamın təminatı və uşağın sosial normalara uyğun davranışların uşağa öyrədilməsi məqsədi ilə tətbiq edilən metod olaraq qəbul edilir. Təəssüf ki, bir çox mədəniyyətlərdə uşağın cəzalandırılması üçün fiziki cəza üsullarının istifadəsi köklənmiş bir ənənə halına gəlmişdir. Bir çox valideynlər və pedaqoqlar fiziki cəzanı uşağın tərbiyyəsində və davranışına nəzarət üçünn zəruri və effektiv üsul olaraq hesab edirlər. Bu səbəblə əksəriyyət davranışının haqlı çərçivələr daxilində qiymətləndirir. Qeyd olunan yanaşmanın gətirdiyi ən ağır nəticələ, fiziki zorakılıq qurbanı olmuş uşağın bu tərz cəzaya laiq olduğunun düşünəcək nöqteyi-nəzərə gəlməsi, özünü günahkar hesab etməsi və ya onlara qarşı irəli sürüləcək ittihamlardan qorxması daxildir [7.s.7-14].

Fiziki zorakılığa məruz qalma baxımından müəyyən risk faktorları vardır:

1. **Valideyndən qaynaqlanan səbəblər;** ana və ya atanın təcrübəsiz olması, uşaq inkişafı haqqında kifayət qədər məlumata sahib olmamaları, həyat yoldaşı ilə bağlı problemlər, emosional çətinliklər, alkaqol və ya narkotik asılılığı, şəxsiyyət pozuntuları, uşağa qarşı qeyri-real gözləntilərin olması, öz uşaqlıqlarına dair zorakılıq təcrübələrinin olması, şəxsi məmnuniyyətlərini uşağın mənafeyindən üstün tutmaları və s.
2. **Uşaqdan qaynaqlanan risk faktorları;** valideynin istədiyi cinsiyyətdə olmaması, arzuolunmaz hamiləlikdən doğulması, davranış pozuntusu və s.
3. **Vəziyyətdən qaynaqlanan amillər;** iqtisadi çətinliklər, miqrasiya, işsizlik, böhran yaradamn vəziyyətlər, valideynlərdən birinin vəfatı və s.[4.s.51-52].

Fiziki zorakılığın ən çox rast gəlinən formaları döymə, yanıq izləri, kəsici alət ilə bədəndə yaradılan xəsarətlər, zəhərlənmələr, asfiksiya (boğulma), prenatal zorakılıq nəticəsində zədə almalar və ya fetal ölümlər və ya "Sarsılmış\Sallanmış Körpə Sindromu"dur. Uşağa qarşı fiziki istismarım bir digər forması kifayət qədər təhlükəli hesab olunan Münchhausen by proxy (Pole) Sindromudur. Lakin bu kateqoriaya daxil olan zorakılıq forması digərləri ilə müqayisədə daha nadir rastlanır . Ananın hamiləlik dövründə həddindən artıq zərərli vasitələrdən (məsələn, tütün, alkoqol və ya narkotik maddələr) istifadə etməsi və infantil olaraq adlandırılan yeni anadan olmuş uşağa qarşı edilən istismarın edilməsi zorakılıq anlayışına daxildir [3s.132].

**Döyülmə:** Uşaqlar əl ilə, çubuq, əsa və ya kəmər kimi müxtəlif fiziki alətlər ilə zorakılığa məruz qalırlar. Bu zaman adətən baş, boyun, kürək, omba kimi nayihələrdə hematomalar (qançılar) müşahidə olunur. Zərərlər sadəcə hematomalar ilə məhdudlaşmır, bəzən bu hematomalar atlında sınıqlar da meydana gələ bilir. Həmçinin fiziki zorakılığın digər əlaməti uşaqda dişləmə izlərinin mövcudluğudur. Bəzən insanlar zorakılıq faktorunu gizləmək üçün izlərin heyvana və ya başqa uşağa məxsus olduğunu bildirirlər. Lakin, heyvan dişləri dar və iti olduğu üçün dəridə kiçik deşiklər yaranır. İnsan dişləri isə tamamilə fərqli olaraq geniş səthlidir. Bu səbəblə dəridə yırtıq və əzilmə izləri buraxır. Əgər üst çənə köpək dişləri arasında məsafə 3 sm-dən çoxdursa bu yetkin şəxsə sahib izlər hesab olunur. Belə bir halın təsadüf olması ehtimal verilən bir vəziyyət deyil [3s.132].

**Sarsılmış uşaq sindromu:** Bu sindromun yaranmasın ən böyük risk faktoru olaraq uşağın aralıqsız olaraq ağlaması və onun sakitləşdirilməsinin bir qədər çətin olmasıdır. Beləki, bu kimi situasiaya adətən valideynin (ana və ata) və ya uşağın ehtiyaclarını qarşılayan şəxsin aqressiv affektiv vəziyyətdə və emosional gərgin olması səbəb olur. Çünki, bu psixoloji həssas vəziyyətdə olan şəxslər uşağı yatızdırmaq və ya sakitləşdirmək məqsədi ilə körpəni sürətli və artan intensivlik ilə silkələməyə başlayır. Silkələnmə zamanı beynin kəllə boşluğu daxilində ön-arxa istiqamətində hərəkətlər baş verir. Bu hərəkətlər beyin damarlarının zədələnməsinin, subdural hematomanın (beyin qişaları arasında qan yığılması), kontuziyanın (beyin toxumasının travmatik əzilməsi), beyin qanamasının inkişafına səbəb ola bilər. Qeyd olunan istismar növü adətən iki yaşdan kiçik bəzən isə atlı yaşa qədər olan uşaqlarda görülür. Lakin ən çox altı ayında kiçik uşaqlarda rast gəlinir [3.s.132].

**Münchhausen sindromu:** Münchhausen sindromu adını XVIII əsrdə yaşamış, keçmiş süvari zabiti Baron Karl von Münchhausendən almışdır. Bu sindromda uşağın baxıcısı və ya valideynləri uşağın xəstə olduğunu təəssüratını və ya xəstəliyə səbəb olmaqla, tibbi yardıma ehtiyac olduğu görüntüsünü formalaşdırır. Şikayətlər nəzərə alınaraq uşağın tibbi anamnezi toplanılır, laborator müayinələrdən və ya müalicə prosedurlarından keçir. Nəticə etibarı ilə uşaq bu proseslərdən zərər görə bilər. Bəzi hallarda valideyn və ya baxıcı tərərfindən birbaşa zəhərləmə, qeyri-lazımi dərman tətbiqi və ya uşağın qəsdən zərərli təsirlərə (məsələn, arı sancması) məruz qoyulması kimi hadisələr ilə qarşılaşmaq ehtimal daxilindədir [3.s.132].

**Fiziki zorakığın fiziki indikatorları:** Adətən zədələnməyən bədən səthlərində hematomalar: Belə nahiyələrdə hematomaların olması fiziki zorakılıq şübhəsini artırır, çünki təsadüfi xəsarətlər adətən açıq və həssas yerlərdə müşahidə olunur. Küt alət ilə vurulma izləri və ya yanıq izləri: Bu tip izlər müvafiq zorakı mexanizmin varlığını göstərir. Əl izləri və ya dişləmə izləri: Əl barmaqlarının və ya dişlərin dəqiq konturları şəklində olan zədələrin müşahidəsi. Sağalma prosesində çoxsaylı xəsarətlər: Bədənin müxtəlif nahiyələrində, fərqli vaxtlarda zədələrin meydana gəlməsi fiziki zorakılığın davamlılığını göstərə bilər [8.s. 3057–3064].

**Fiziki zorakılığın psixoloji indikatorları:** Uşağın qeyri-adi dərəcdə introvert və ya həddindən artıq aqressiv olması. Uşağın ormadan çox daha az hərəkətli, passiv olması, zəif emosional reaksiya verməsi. Uşağın aid olduğu qrupa qarşı mğənfi reaksiya verməsi, dəyişikliyə qarşı ehtiyatlı və aqressiv davranması.Uşağın yaşına uyğun olmayan yetkinlik səviyyəsində davranışlar göstərməsi. Uşağın özünəqəsd xarakterli davranış nümayiş etdirməsi. (məsələn, intihara təşəbbüs etməsi**.** Uşağın bədənində olan izləri və xəsarətləri gizlətmək məqsədi ilə havay şəraitinə uyğun olmayan, lakin bədəni örtən geyimlərdən istifadə etməsi. Uşağın digər insanlar ilə ünsiyyət zamanı böyük narahatlıq və gərginlik içərisində olması. Uşağın böyüklərdən, əsasən də onlar ilə fiziki təmasdan qorxması. Uşağın yaşadığı evdən qaçmağa çalışması, öz evinə yenidən qayıtmaqdan qorxması. Uşağın digər uşaqlar ağladıqları zaman bundan həddindən artıq narahatlıq hiss etməsi və emosional reaksiya göstərməsi [7.s.7-14].

**Nəticə.** Fiziki zorakılığın nəticələri uşağın yaş mərhələlərindən asılı olaraq fərqli formalarda təzahür edə bilər. Zorakılığın bu növü ağır fiziki nəticələrə səbəb ola bilir. Məsələn, fiziki sağlamlığın pozulması, həyati təhlükənin yaranması, hətta ölüm də buraya daxildir. Fiziki zorakılıq psixoloji aspektdə də fəsadlar yaradır. Təəssüf ki, fiziki zorakılıq görmüş uşaqların əksəriyyətinin özünə hörmət və özünüqiymətləndirmə hissi zədələnir. Bundan əlavə təhlükəsizlik duyğusu və ətraf mühitə qarşı fundamental etibar hissi dərindən sarsılır.

Fiziki zorakılıq uşağın çəxsiyyətinin formalaşması və sonraki psixososial inkişaf mərhələlərində mühüm ləngimələrə və sapmalara səbəb ola bilər. Bu kimi hall isə uşağın gələcəkdəki həyatında aqressiya, narahatlıq, psixoaktiv maddələrdən asılılıq, empatiya qabiliyyətinin aşağı olması və s. kimi narahatlıqların müşahidə olunmasına gətirə bilər.

Fiziki zorakılığın klinik və davranışa dair təzahürləri arasında psizofiziki inkişafın ləngiməsi, yuxu və iştaha pozuntuları, müxtəlif nevrozabənzər sindromlar yer tutur. Həmçinin fiziki zorakılıq qurbanı uşaqlarda tez-tez enurez (gecə sidik saxlaya bilməmə), enkoprez (nəcis saxlaya bilməmə), gecə qorxuları kimi psixovegetativ pozuntulara da rast gəlinir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. (2017). *Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait* / Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Kollegiyasının 15 fevral 2017-ci il tarixli 08 saylı qərarı ilə təsdiq edilmişdir. – Bakı: Səhiyyə Nazirliyi, 5 s.
2. Dursun, Y. (2011). *Şiddetin izini sürmek: Şiddet nedir?* FLSF Felsefe ve Sosyal Bilimler Dergisi, (12), 1–18. – 5 s.
3. Geçkil, E. (2017). *Çocuklarda fiziksel istismar ve hemşirelik yaklaşımı*. Gümüşhane Üniversitesi Sağlık Bilimleri Dergisi, 6(1), 129–139. – 132 s.
4. Pelendecioğlu, B., & Bulut, S. (2009). *Çocuğa yönelik aile içi fiziksel istismar*. Abant İzzet Baysal Üniversitesi Eğitim Fakültesi Dergisi, 9(1), 49–62. – s. 51–52.
5. Polat, O. (2016). *Şiddet*. Marmara Üniversitesi Hukuk Fakültesi Hukuk Araştırmaları Dergisi, 22(1), 15–34. – 16 s.
6. Şenol, D., & Mazman, İ. (2014). *Çocuğa uygulanan şiddet: Türkiye özelinde sosyolojik bir yaklaşım*. Karamanoğlu Mehmetbey Üniversitesi Sosyal və Ekonomik Araştırmalar Dergisi, 2014(1), 11–17. – s. 15–16.
7. Волкова, Е. Н., & Исаева, О. М. (2015). *Ребенок и насилие: диагностика, предотвращение и профилактика: монография*. Н. Новгород, 2015. – s. 7, 9, 10, 14.
8. Malinosky-Rummell, R., & Hansen, D. J. (1993). Long-term consequences of childhood physical abuse. Psychological Bulletin, 114(1), 68–73 s.

## UŞAQLARIN YAŞADIĞI FİZİKİ ZORAKILIQ VƏ ONUN DİAQNOSTİK İNDİKATORLARI

***Əsmər Abbaszadə***

## XÜLASƏ

Zorakılıq uşaqlarda həm eyni dövrdə, həm də sonrakı mərhələlərdə psixopotologiyanın yaranması riskini əhəmiyyətli dərəcədə artırır. XX əsrin ikinci yarısından etibarən cəmiyyət uşaq zorakılığı ilə çox diqqət etməyə başlamışdır. Əvvəllər müzakirəsi qadağan olan mövzular artıq ailə daxilində və kiçik qruplar daxilində olaraq araşdırılmağa başlamışdır. Uşaq istismarının bildirilməsi, araşdırılması və ona cavab tədbirlərinin görülməsi valideynlər, qohumlar, tanışlar, uşaq baxıcıları, müəllimlər, ictimai birliklər, uşaq yardım cəmiyyətləri, polis, prokurorluq və məhkəmə orqanları kimi müxtəlif sahələrdə olan şəxsləri əhatə edir.

Məqalədə uşaqların qarşılaşdıqları fiziki zorakılıq və onun diaqnostik indikatorları haqqında danışılacaq. Fiziki zorakılıq uşağı döydükdə, silkələdikdə, onu fiziki gücündən və imkanlarından ağır olan işə məcbur edildiyi hallarda ortaya çıxır. Başqa yollar ilə fiziki əzabların verilməsi də fiziki zorakılıq halına daxil edilir.

## ФИЗИЧЕСКОЕ НАСИЛИЕ НАД ДЕТЬМИ И ЕГО ДИАГНОСТИЧЕСКИЕ ИНДИКАТОРЫ

***Асмар Аббасзаде***

## АННОТАЦИЯ

Насилие значительно повышает риск развития психопатологии у детей как в тот же период, так и на последующих этапах развития. Начиная со второй половины XX века, общество стало уделять гораздо больше внимания жестокому обращению с детьми. Темы, которые ранее считались запретными или неприемлемыми для обсуждения, начали открыто изучаться, в том числе внутри семей и небольших социальных групп.
Сообщение о случаях жестокого обращения с детьми, их расследование и

реагирование на них охватывает представителей различных сфер — родителей, родственников, знакомых, воспитателей, учителей, общественные организации, общества помощи детям, полицию, прокуратуру и судебные органы.

В данной статье рассматриваются физическое насилие в отношении детей и его диагностические индикаторы. Физическое насилие возникает в случаях, когда ребёнка бьют, трясут или заставляют выполнять работу, превышающую его физические возможности. Другие формы умышленного причинения телесных страданий также относятся к физическому насилию.

## PHYSICAL VIOLENCE EXPERIENCED BY CHILDREN AND ITS DIAGNOSTIC INDICATORS

***Asmar Abbaszadeh***

## SUMMARY

Violence significantly increases the risk of psychopathology in children both concurrently and in later developmental stages. Since the second half of the 20th century, society has begun to pay much greater attention to child abuse. Topics that were previously considered forbidden or inappropriate for discussion have started to be examined openly, including within families and small social groups. The reporting, investigation, and response to child maltreatment involve individuals from various sectors, including parents, relatives, acquaintances, childcare providers, teachers, community organizations, child aid societies, police, prosecutors, and judicial authorities. This article will address physical violence against children and its diagnostic indicators. Physical abuse occurs when a child is beaten, shaken, or forced to perform tasks that exceed their physical strength and capabilities. Other forms of intentionally inflicted bodily harm are also classified as physical abuse.

# UŞAQ ƏMƏK VƏ İSTİSMARININ QARŞISININ ALINMASINDA SOSİAL MÜDAXİLƏLƏR

***Behbudova Lamiyə Qənimət qızı***
***Bakı Biznes Universiteti II kurs magistrantı***
***lamiyebehbudova2023@gmail.com***

***Açar sözlər***: Uşaq hüquqları, uşaq əməyi, uşaq istismarı, sosial müdaxilələr, sosial siyasət
***Keywords***: child rights, child labor, child exploitation, social interventions, social policy
***Ключевые слова***: Права ребёнка, детский труд, эксплуатация, социальные вмешательства, Социальная политика

**Giriş.** Uşaq əməyinin tərifini vermədən əvvəl "uşaq" anlayışını müəyyənləşdirməyimiz daha düzgün olar. Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasına əsasən, 18 yaşına qədər olan hər bir şəxs uşaq hesab edilir. Azərbaycan Statistika Komitəsinin verdiyi məlumata əsasən, Azərbaycanda 2.800.000- dən çox uşaq var və bu ölkə əhalisinin 29 faizini təşkil edir. Dünyanın bir çox ölkəsində uşaqlar yaşına və gördüyü işlərə görə müxtəlif şəkildə tərif oluna bilir.

Lakin Azərbaycanda qəbul edilmiş əsas tərif Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasının 1-ci maddəsinə uyğundur. Uşaqlar yetkinlik yaşına çatana və cəmiyyətə inteqrasiya olana qədər fiziki,psixoloji və zehni inkişafları baxımından yektinlərdən asılı olan bir fərd olaraq tanınır [Rodgers və Standing, 1981: 160]. Başqa bir mənbədə verilmiş tərifə əsasən uşaq hələ fiziki və zehni inkişafını tamamlamamış gənc bir fərddir. [Yörükoğlu, 2000: 13] Hətta bəzi mənbələrdə uşağın doğumundan yetkinliyə qədər olduğu bir dövr kimi tərif verilir [Akyüz, 2000: 66].

Türk hüquq sisteminə görə uşaq,zehni və fiziki inkişafını tamamlamamış,18 yaşına qədər qorunması lazım olan,cəmiyyətə ən az zərərlə və ya zərərsiz daxil olmasına çalışılan şəxs anlamına gəlir. [Usta, 1995: 86]. Ennew, Myers və Plateau-ya [2005: 27] görə,uşaq əməyininin tərifini az əmək haqqı,zərərli ,standartlara cavab verməyən,onları birbaşa istismar edən,məktəbə getmələrini əngəlləyən elementləri əhatə edir. Türkiyənin Əmək Məcəllərinə əsasən,15 yaşdan kiçik uşaqların işlədilməsi qadağandır. 15 yaşını tamamlamış, təhsilini bitirmiş və ya davam etdirən uşaqlar gündə 8 saat və həftədə 40 saatdan artıq olmayacaq müddətdə işləyə bilərlər. 15 yaşını tamamlamamış uşaqlar isə gündə 7 saat və həftədə 35 saatdan artıq olmamaq şərti ilə onların fiziki,zehni və əxlaqi inkişaflarına zərər verməyən işlərdə işləyə bilərlər [Əmək Məcəlləsi № 4857, Maddə 71].

Beynəlxalq anlayışlara əsasən uşaq əməyinin - uşaqların usta,sənətkar,bərbər yanında işlədilməsi və eləcə də kənd təsərrüfatında ailəsi ilə birlikdə işləyən uşaqları,qeyri-qanuni şəraitdə məcbur işlədilən uşaqları əhatə edir. Ümumiyyətlə uşaq əməyini - hələ 18 yaşını tamamlamamış, uşaqların fiziki,emosional,sosial və psixoloji baxımdan zərər görməsinə səbəb olan,onların sosial mühitdən,təhsildən yayınmasına səbəb olan iş şəklində anlaya bilərik. Beynəlxalq Əmək Təşkilatına görə,işləyən uşaq və uşaq əməyi anlayışlarının tərifi bir-biri ilə üst-üstə düşmür. (FAO, 2013) Uşaq əməyi uşaqları uşaqlığını yaşamaqdan, potensiallarından, fiziki və zehni inkişaflarından, sağlamlıqlarından və təhsilindən məhrum edən bir fəaliyyət toplusudur. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının "Əmək Qanunvericiliyi" ilə müəyyən edilir.[1] Milli qanunvericiliyə əsasən uşaqlar 16 yaşa çatdıqda işə götürülməsinə, uşaqların sağlamlığının,təhkükəsizliyinin və mənəviyyatının mühafizəsi tam təmin edilmə şərti ilə icazə verilə bilər [2].

Uşaqların əməyə cəlb edilməsinin bir sıra səbəbləri var: iqdisadi,təhsilin əlçatan olmaması,sosial və mədəniyyət fərqliliyi,hüquqi və siyasi çatışmazlıqlar,köç,miqrasiya və s. Birinci sırada, işəgötürənlərin uşaq əməyinin gücünə olan tələbidir. Hal-hazırda bazar iqdisadiyyatında işəgötürənlər rəqabətə davamlılığı artırmaq üçün və xərclərini azaltmaq üçün uşaq işçilər çalışdırmağa üstünlük verir [UNICEF, 1997: 27].

Dünya ölkələrin bir çoxunda iqdisadiyyatın qloballaşması səbəbindən uşaq işçilərin də sayı artmaqdadır. Belə ki, Çin, Hindistan, Pakistan kimi ölkələrdə əmək haqqı aşağı olduğu üçün uşaqlar onlar üçün əvəzolunmaz işçi qüvvəsi hesab edilir. Uzaq Şərq ölkələri də Qərb ölkələri ilə asanlıqla rəqabət apara bilmək üçün uşaq əməyindən geniş şəkildə istifadə edirlər [Baştaymaz, 1994: 84–85].

Dünya üzərində uşaqların 9.6%-i davamlı olaraq işləyir və təhsilini davam etdirmir. Bu rəqəmlərin 11.2%-i oğlanlar, 7.8% -i isə qızlar təşkil edir. Təhsilini davam etdirməyib işləyən uşaqların 53.2%-i 15-17 yaş aralığındadır. [UNICEF: Child Labour: Global estimates 2020]

Həm oğlanlar həm də qızlar üçün uşaq əməyinin böyük bir hissəsi kənd təsərrüfatı sahəsindədir. Kənd təsərrüfatı onların bir növ əməyə giriş dövrüdür ki, bu da çox zaman kiçik yaşlarında baş verir. Uşaq əməyindən əsasən ailə təsərrüfatı, kiçik fermer təsərrüfatları,aqrosənaye kompleksləri, kommersiya plantasiyaları, dəniz və okean balıqçılığında,balıq emalında və meşə təsərrüfatında istifadə edilir. Təsərrüfat sahələri ilə bərabər uşaq əməyinə xidmət və sənaye sahələrində də rast gəlirik. Xidmət sektorunda ticarət,ev işləri,nəqliyyat və avtomobil təmiri kimi fəaliyyətlər daxildir. Sənaye sektoruna isə tikinti,mədənçilik və istehsal sahələrindəki işlər daxildir.

Kənd təsərrüfatında uşaq əməyinə cəlb olunmuş oğlan və qızların sayı təxminən bərabər olsa da, xidmət və sənaye sahələrində daha aydın gender ixtisaslaşması müşahidə olunur. Uşaq əməyinə cəlb olunan qızlar daha çox xidmət sahəsində, o cümlədən ev işlərində çalışırlar, oğlanlar isə ən çox sənaye sahələrində işləməyə meyllidirlər.

Uşaq əməyinin harada baş verməsindən asılı olmayaraq, çox vaxt təhlükəli xarakter daşıyır və bu təhlükələr müxtəlif formalarda özünü göstərir. Ailə təsərrüfatlarında və kommersiya yönümlü kənd təsərrüfatında geniş yayılmış risklərə qeyri-üzvi gübrələrə, pestisidlərə və digər zərərli aqrokimyəvi maddələrə məruz qalma; ağır yüklərin daşınması kimi fiziki cəhətdən çətin işlər; uzun müddət ayaqüstə qalmaq, əyilmək, bükülmək və narahat bədən vəziyyətində təkrarlanan, güc tələb edən hərəkətlər daxildir. Həmçinin uşaqlar çox vaxt ekstremal temperatur şəraitinə məruz qalır, iti kəsmə alətlərindən istifadə etməli olurlar və kənd təsərrüfatı texnikası və ağır maşınlarla işləmək və ya onların yanında olmaq məcburiyyətində qalırlar.

BƏT-in verdiyi məlumata görə, dünyada 152 milyon uşaq məcburi əməyə cəlb olunub. BMT-nin 2015-ci ildə qəbul etdiyi "2030-cu ilədək Davamlı İnkişaf Gündəliyinə" uyğun olaraq 2025-ci ilə qədər uşaq əməyinin aradan qaldırılması əsas məqsədlərdəndir.

18 yaşına çatmamış olan fərdlərin-yəni ki,uşaqların qorunması,onlara sevgi, hörmət, dəyər göstərilməsi uşaqların yaşadıqları cəmiyyət üçün dəyərli olduqları düşüncəsinə əsaslanır. Əgər bir cəmiyyətdə uşaqların hüquqları pozulursa,zorakılığa,istismara məruz qalırsa, onların şəfər və ləyaqətini alçaldan davranışlara yol verilirsə bu onu deməyə əsas verir ki, həmin cəmiyyət mədəni baxımdan geridədir. Bunun əskisə,uşaqların biopsixososial inkişafına önəm verən,onların sağlam və şəxsiyyət kimi formalaşmasında çalışan cəmiyyət isə yüksək mədəniyyət səviyyəsində qiymətləndirilə bilər. [İnan, 1968; Roma, 1966; akt. Akyüz, 2016]. Onu da əlavə edə bilərik ki,uşaqların hüquqlarının qorunmadığı bir cəmiyyətdə böyüklərin də insan hüquqlarından faydalana bilməyəcəyi məsələsi diqqət çəkir [Serozan, 2017].

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən uşaqların inkişafına yönəlik təhsil almaq,istirahət etmək,ailədə yaşamaq oyun oynamaq və s. kimi hüquqları var.[1] Uşaq

hüquqlarının müdafiəsi sahəsində onun fiziki,cinsi,emosional və iqdisadi istismarının qarşısının alınması,hüquqlarının qorunması məsələləri yer alır.Bununla bərabər,onun əməyə cəlb olunması hallarının zəruruliyi də diqqətdə saxlanılır [Uğurlu və Aksoy, 2014]. BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına əsasən uşaqların hüquqlarının qorunması ilə bərabər həm də inkişafı üçün də addımlar atılması zəruridir. Belə ki,inkişaf hüququ(həm fiziki-bioloji,həmdə sosial baxımdan ehtiyaclarının qarşılanması), iştirak hüququ (asudə vaxtlarının təşkili,müəyyən fəaliyyətlərə qoşulması,onların fikrinin nəzərə alınması) qorunma hüququ (bütün növ zorakılıq, laqeydlik, istismar kimi hallardan) və s. hüquqların tanınması zəruriliyi vurğulanır [Dirican, 2018: 53–57].

Uşaq əməyi sosial işin mikro, mezo və makro səviyyələrini əhatə edən sosial problemdir. Bu problem uşaqların iqdisadi istismar forması olduğu üçün, məsələyə kompleks yanaşma tələb edir. Uşağın əməyinin istimarı ailədən başlasa da,ilkin müdaxilə mikro və mezo səviyyələrdə həyata keçirilməlidir. Ailələr arasında uşaqların hüquqları barədə maarifləndirmə tədbirləri aparılmalı,uşaqları işləməyə məcbur edilmənin səbəbləri araşdırılmalı və təhsildən yayındırılmanın əslində hüquq pozuntusu olduğu izah edilməlidir. Bildiyimiz kimi,ailə və uşaqların dövlətin sosial yardım formalarından istifadə etmək hüququ var. Sosial işçilər ailələri məlumatlandıraraq,resursları əlçatan etməli və onlara bu resurslardan maksimum faydalanmanın yollarını izah etməlidir.

Sosial işçilərin makro səviyyədə edə biləcəyi müdaxilələr bunlardır:

1. Sosial və iqdisadi çətinliyi olan ailələrin araşdırılması və onların sosial yardımlara yönləndirilmədi
2. Hüquq yönümlü və maarifləndirici sosial tədbirlərin təşkili
3. Uşaqların qanunsuz şəkildə təhsildən yayındıraraq məcburi əməyə cəlb edən ailələrə və işəgötürənlərə cəzalandırıcı tədbirlərin tətbiqi

Sosial iş və sosial işçilər uşaq əməyi və istismarının qarşısının alınması üçün sosial siyasətlərin tənzimlənməsində və formalaşmasında yaxından iştirak etməlidir. Sosial işçilər, fəaliyyətləri zamanı müdaxilə model və metodlarına əsaslanan peşəkar xidmət göstərirlər [Lovy, 1995].

Təhsil, cəmiyyət daxilində insanların bərabər mövqe qazana bilmələri üçün bilik, bacarıq, dəyərləri aşılayaraq, fərdlərə dövrün tələblərinə uyğun olaraq özlərini inkişaf etdirə bilmələri üçün imkanlar təqdim edir. [UNICEF, 2006: 22] Uşaqların qabiliyyətlərinin və şəxsiyyətlərinin formalaşmasında təhsil bir vasitə kimi çıxış edir [Murnane, 1994: 296].

Uşaq əməyinə qarşı mübarizə iki mərhələlidir. Bu sahədə atılacaq ilk addım,görünməyən halları-uşaqların çalışdığı yerləri və sahələri,bunun uşaqlara birbaşa təsirini görünən hala gətirmək və ictimaiyyəti maarifləndirməkdir. Bu problemin həllində sosial,psixoloji,hüquqi və digər sahələr üzrə koordinasiyalı iş aparılmalıdır. Beynəlxalq Əmək Təşkilalatının orta və uzunmüddətli məqsədi, uşaqlar işlədiyi müddətdə onların qorunması və uzunmüddətli dövrdə uşaq əməyinin tamamilə aradan qaldırılmasıdır [ILO-IPEC, 1994: 27] .

Uşaq əməyi iqdisadi istirmarı bir növüdür və bunun qarşısını almaq üçün də atılması lazım ilk addım təhsil tədbirləridir.Həm Azərbaycanda, həm də dünyanın bir sıra ölkələrində bu problemin qarşısının alınmasında,sosial rifah səviyyəsinin artırılmasında əsas məsuliyyətlərdən biri təhsilin vacibliyini bütün cəmiyyətə yaymaqdır. Burada sosial işşiləri əsas vəzifəsi,sosial funksiyalarını itirmiş şəxslərə bu funksiyalarını yenidən qazanmaqda kömək etməkdir.Ailə və uşaqlarla çalışan sosial işçilər qiymətləndirmə zamanı uşağı təhsildən yayındıra biləcək təhlükələri sezməli və bərabərliyi təmin edə bilmək üçün müdaxilələr etməlidir.Bununla bərabər,sosial işçilər makro səviyyədə çalışmalı-qanunvericilik fəaliyyətlərində iştirak etməli,layihə və proqramların icrasında öz töhvələrini verməlidir. Uşaq əməyinə qarşı mübarizədə yoxsulluq,ayrı-seçkilik, bərabərsizlik, işsizlik, təhsil sistemində uğursuzluq kimi qiymətləndirilməlidir.

Uşaq əməyinin istismarı mövzusunda geniş tədqiqatlar aparılmalı,onun sosial iqdisadi və mədəni səbəbləri araşdırılaraq yeni siyasətlər hazırlanmalıdır. Bu siyasətləri hazırlayarkən keçmiş təcrübələr araşdırılmalı və bunlardan nəticə çıxarılaraq hazırlanmalıdır. Mövcud olan məhdud resurlar ilk növbədə köləlik,uşaq fahişəliyi,təhlükəli iş yerlərində çalışdırılan uşaqlara yönləndirilməli. [Forastieri, 1992: 8] Beynəlxalq Əmək Təşkilatının qarşıya qoyduğu qısa müddətli məqsədlərdən biri də uşaqların mədən və daş karxanalarında işlədilməsinin,pornoqrafiya və fahişəlik,köləlik kimi məcburi əməyə yönləndirilməsinin qarşısını almaqdır [ILO-IPEC, 1994: 27; World of Work, 1997b: 23]. Etiraf etmək lazımdır ki,uşaq əməyinin istismarının qarşısının alınması qısa müddətdə mümkün deyildir. Buna görə də uşaqların işlədiyi müddətdə onların qorunması üçün layihələr hazırlanmalı və həyata keçirilməlidir [Karabulut, 1996: 46].

**Nəticə.** Uşaq əməyinin istismarı həm milli, həm də qlobal miqyasda sosial, iqtisadi və hüquqi aspektləri özündə birləşdirən çoxşaxəli problemdir.Məqalədə aparılan təhlillər göstərir ki, uşaq əməyinin aradan qaldırılması təkcə hüquqi qadağalarla məhdudlaşmamalıdır. Ailələrin sosial rifahının artırılması, təhsil sisteminin gücləndirilməsi, uşaqların hüquqları barədə cəmiyyətin maarifləndirilməsi, icmaların potensialının yüksəldilməsi və uşaqlar üçün təhlükəsiz mühit yaradılması əsas hədəflərdən olmalıdır. Bu prosesdə sosial işçilərin rolu xüsusi önəm daşıyır. Sosial işin mikro, mezo və makro səviyyələrində həyata keçirilən müdaxilələr uşaq əməyinin istismarı riskini azalda, uşaqların sosial inteqrasiyasına və inkişafına dəstək ola bilər. Sosial işçilər həm uşağın, həm ailənin, həm də cəmiyyətin ehtiyaclarını nəzərə alaraq problemin hərtərəfli həllinə yönəlik multidissiplinar fəaliyyət həyata keçirməlidirlər.

Beynəlxalq təşkilatların – xüsusilə BMT və Beynəlxalq Əmək Təşkilatının qəbul etdiyi sənədlər – uşaq əməyinə qarşı aparılan mübarizənin strateji istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasının qanunvericiliyində də uşaqların hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilməsi, onların əməyə cəlb olunmasında yaş, sağlamlıq və təhlükəsizlik tələblərinin müəyyən edilməsi dövlətin bu sahədə öhdəliklərini təsdiqləyir. Lakin qanunların mövcudluğu ilə yanaşı, onların effektiv icrası, nəzarət mexanizmlərinin gücləndirilməsi və sosial siyasətlərin davamlılığı vacibdir.

Nəticə olaraq demək olar ki, uşaq əməyinin istismarı yalnız bir ölkənin deyil, bütün dünyanın həllinə çalışdığı ciddi sosial problemdir. Bu problemin azaldılması və gələcəkdə tam aradan qaldırılması üçün dövlət qurumları, sosial xidmət müəssisələri, təhsil sistemi, qeyri-hökumət təşkilatları və cəmiyyət birgə fəaliyyət göstərməlidir. Ən əsası isə, hər bir uşağın potensialını reallaşdırmağa imkan verən təhlükəsiz, inkişaf yönümlü və hüquqlarına hörmət edən sosial mühitin formalaşdırılması zəruridir. Uşaqların rifahının təmin edilməsi cəmiyyətin gələcəyinin təminatı kimi dəyərləndirilməlidir.

## ƏDƏBİYYAT

1. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının qanunu
2. "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu
3. Akyüz, E. (2000), Ulusal ve Uluslararası Hukukta Çocuğun Haklarının ve Güvenliğinin Korunması, Ankara: Milli Eğitim Yayınevi.
4. BAŞTAYMAZ, Tahir (1994), Formel ve Enformel Sektörlerde Çalışan Çocuklar ve Sanayiye Etkileri, Türkiye’de Çocuk İşgücü, Ankara: TİSK Yayını.
5. Derrien, J.M. (1994), Çocuk Çalıştırılması ile İlgili Politika Hazırlanması ve İş Denetimi Eğitim Kılavuzu, (Çev: Haluk Başçıl, Bülent Piyal), Ankara: ILO Yayınları.

6. Dirican, R. (2018). Tarihi Süreçte Çocukluk ve Çocuk Hakları, Çocuk ve Gelişim Dergisi, 2 (2) 51-62.
7. Ennew, Judith, W. Myers, D. Plateau (2005), Defining Child Labour as if Human Rights Really Matter, Child Labour and Human Rights. London: Lynne Rienner Press.
8. FAO. (2013) Children's work in the live stock sector: Herdingand beyond. Rome: FAO. Güler, M. (2011). Dünyada ve Türkiye'de önemli bir sorun: Çocuk istihdamı. In Yayına Hazırlama Ekibi (Eds), Yetişkin Bildirileri Kitabı – 1 (pp. 515 – 531). İstanbul: Çocuk Vakfı Yayınları.
9. Human Rights Really Matter, Child Labour and Human Rights. London: Lynne Rienner Press.
10. ILO. (2004). Child labour: A text book for university students. Geneva: ILO.
11. ILO. (2010). Accelerating action aganist child labour global report under the follow – up to the ILO declaration on fundemental principles and rights at work (Report I B). Geneva:ILO.
12. ILO (2010). Joining forces aganist child labour: Inter – agency report for the hague global child labour conference of 2010. Understanding Children's Work (UCW) Programme – Geneva: ILO.
13. Murnane, R. (1994), Education and Well-Being of the Next Generation, Confronting Poverty, Prescriptions for Change, (ed. Dangizer, S., Sandefur, G., Weinberg, D.) Library Congress Cataloging Pulbication Data, USA: Harvard College Press.
14. Rodgers, Gerry, G. Standıng (1981), Child Work Poverty and Underdevelopment, Geneva: ILO Press.
15. Serozan, R. (2017). Çocuk Hukuku, İstanbul: Vedat Kitapçılık.
16. Uğurlu, Z., Aksoy İ. G. (2014). Çocuk Hakları ve Hukuki Bağlamda Çocuğun İhmali ve İstismardan Korunması. International Journal of Social and Educational Sciences, Uluslararası Sosyal ve Eğitim Bilimleri Dergisi, 1(1), 36-58
17. UNICEF. (2006). Children's Rights And Business Principles (Broşür). Web: http://www.unglobalcompact.org/docs/issues_doc/ human_rights/CRBP/Childrens_Rights_and_Business_Principles.pdf, Taken on: 04. 05. 2013.
18. UNICEF. (2006). Preventing Child Poverty (Broşür). Web: http://www.unicef.org/turkey/pdf/cp28c.pdf, Taken on: 01. 05. 2013. Web: http://www.meb.gov.tr/duyurular/duyurular2012/12Yil_Soru_Cevaplar.pdf, 12 Yıllık Zorunlu Eğitim: Sorular – Cevaplar, (2012), Taken on: 26.04. 2014.
19. UNICEF 2020a, Child Labour: Global estimates 2020, trends and road forward, UNİCEF/İLO joint publication, New York (2021)
20. United Nations Children's Fund (Unicef), (2006), Dünya Çocuklarının Durumu 2006, Ankara: UNICEF Yayını.
21. United Nations Children's Fund (Unicef), (1997), Dünya Çocuklarının Durumu 1997, Ankara: UNICEF Yayını.
22. Usta, S. (1995), "Türkiye'de Çocuğun Korunması", İstanbul Bürosu Dergisi, Cilt 69, S. 1-2-3, s. 86-94.
23. Yörükoğlu, A. (2000), Değişen Toplumda Aile ve Çocuk, İstanbul: Özgür Yayınları.

# UŞAQ ƏMƏK VƏ İSTİSMARININ QARŞISININ ALINMASINDA SOSİAL MÜDAXİLƏLƏR

***Behbudova Lamiyə***

## XÜLASƏ

Uşaq əməyi və istimarı mövzusu qlobal miqyasda,xüsusən də inkişaf etməkdə olan ölkələrdə ciddi sosial problem olaraq qalır. Bu məqalə uşaq əməyi və istismarının yerli və qlobal miqyasda araşdırılmasını,mövzunun sosial,hüquqi və iqdisadi aspektlərini,problemin yaranma səbəblərini,nəticələrini və sosial müdaxilə metodlarını təhlil edir. Uşaq əməyi-onların yaşına,sağlamlıq vəziyyətinə,inkişafına zərər vuran,aşağı maaşlı,təhsil hüquqlarını pozan və dərin köklərə malik bir problemdir. Problemin əsas səbəblərini araşdırdıqda yoxsulluq, işsizlik, ailədaxilində çətinliklər, təhsil imkanlarının məhdud olması kimi məsələlər ortaya çıxır. İşəgötürənlərin uşaq əməyinə marağı, əsasən, ucuz, çevik və etiraz etməyən işçi qüvvəsinə ehtiyacdan qaynaqlanır. Uşaq əməyinin aradan qaldırılması yalnız qanunvericiliyin təkmilləşdirilməsi ilə mümkün deyil. Bununla yanaşı, sosial siyasətlərin gücləndirilməsi, ailələrin iqtisadi cəhətdən dəstəklənməsi və cəmiyyətin maarifləndirilməsi zəruridir. Bu məsələlər, eyni zamanda, uşaqların hüquqlarının qorunmasına diqqət yetirilməsini tələb edən çoxşaxəli yanaşma tələb edir. Bu istiqamətdə yerli icmalarla yanaşı, hökumətlər və beynəlxalq qurumlar arasında daha sıx əməkdaşlığa ehtiyac vardır.

# СОЦИАЛЬНОЕ ВМЕШАТЕЛЬСТВО В ПРЕДОТВРАЩЕНИЕ ДЕТСКОГО ТРУДА И ЭКСПЛУАТАЦИИ

***Бехбудова Ламия***

## АННОТАЦИЯ

Детский труд и эксплуатация остаются серьезной социальной проблемой на глобальном уровне, особенно в развивающихся странах. Эта статья анализирует детский труд и эксплуатацию как на местном, так и на глобальном уровне, рассматривая социальные, юридические и экономические аспекты данной проблемы, а также причины, последствия и методы социальной интервенции. Детский труд — это проблема, наносящая вред возрасту, здоровью, развитию и образовательным правам детей, часто сопровождающаяся низкими заработными платами и глубоко укоренившимися социальными проблемами. При исследовании основных причин данной проблемы выявляются такие факторы, как бедность, безработица, семейные трудности и ограниченный доступ к образованию. Интерес работодателей к детскому труду в первую очередь объясняется потребностью в дешевой, гибкой и не сопротивляющейся рабочей силе. Исключение детского труда невозможно достичь только путем улучшения законодательства. Кроме того, необходимо усилить социальные политики, обеспечить экономическую поддержку семей и повысить осведомленность общества. Эти вопросы требуют многогранного подхода, ориентированного на защиту прав детей. В этом контексте также необходимо более тесное сотрудничество между местными сообществами, правительствами и международными организациями.

**SOCIAL INTERVENTIONS IN PREVENTING CHILD LABOR AND EXPLOITATION**

***Behbudova Lamiya***

**SUMMARY**

Child labor and exploitation remain a serious social issue globally, particularly in developing countries. This article examines the local and global aspects of child labor and exploitation, focusing on the social, legal, and economic dimensions of the issue, its causes, consequences, and social intervention methods. Child labor is a problem that harms their age, health, development, and educational rights, often involving low wages and deep-rooted issues. When investigating the main causes of the problem, issues such as poverty, unemployment, difficulties within families, and limited educational opportunities emerge. Employers' interest in child labor mainly stems from the need for cheap, flexible, and non-protesting labor. The elimination of child labor cannot be achieved solely through the improvement of legislation. Additionally, strengthening social policies, supporting families economically, and raising public awareness are essential. These issues require a multifaceted approach that emphasizes the protection of children's rights. In this regard, closer cooperation between local communities, governments, and international organizations is necessary.

# YENİYETMƏLİK DÖVRÜNDƏ SUİSİDAL DAVRANIŞLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Mehdizadə Məlahət Barat qızı***
***Bakı Biznes Universiteti, Magistrant***
***mehdizademelahet015@gmail.com***

***Açar sözlər***: intihar, yeniyetməlik dövrü, ailə, ətraf-mühit, psixoloji dəstək, özünə qapanma,depressiya.
***Ключевые слова***: суицид, подростковый возраст, семья, окружающая среда, психологическая поддержка, замкнутость, депрессия.
***Keywords***: suicide, adolescence, family, environment, psychological support, withdrawal, depression.

**Giriş.** Yeniyetməlik yaş dövründə yeniyetmələrin maraqları, sosial çevrəsində dəyişikliklər baş verir. Valideyinlər bu dövrdə artıq övladlarını tanıya bilmədiklərini bildirirlər. Yeniyetmələrin xarakterində ciddi dəyişikliklər hiss olunur. Yeniyetmələrdə daha çox tənhalıq hissi baş qaldırır. Bu xüsusilə valideyinlərlə münasibətdə özünü göstərir və konfliktlərə səbəb olur. Yeniyetmələr valideyinlərindən uzaqlaşır və öz düşüncə tərzlərinə uyğun sosial qruplara qoşulurlar. Yeniyetmələrdə daha çox müstəqillik, sərbəstlik meyilləri baş qaldırır. Yeniyetməlik dövründə baş verən psixoloji dəyişikliklərin izahını görkəmli psixoloq A.N.Leontyev belə vermişdir: "uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir".

Beləki uşaq inkişafının müəyyən mərhələsində onun hazırda tutduğu mövqenin ona uyğun gəlmədiyini anlayır və bunu dəyişməyə səy göstərir.Yeniyetmələr artıq məktəbdə həmyaşıdları ilə münasibətdə yeni maraqlar kəşf edirlər. Yeniyetmələrin tələbləri getdikcə dahada genişlənir və artır ki, buda validryinlərin onlar üçün təyin etdiyi sərbəstlik həddini aşır və nəticədə valideyinlərlə aralarında konfliktlərin artmasına gətirib çıxarır. Antropoloqlar yeniyetməlik dövrünü uşağın cəmiyyətə daxil olması dövrü kimi qiymətləndirirlər. Yeniyetməlik dövründə baş verən intihar hallarına daha çox yeniyetmələrin tənha hiss etmələri, cəmiyyətdən təcrid olunmaları, bulinqə mıruz qalmaları və s. kimi problemlər yol açır. Yeniyetmədə intihar düşüncəsi daha çox problemdən çıxış yolu tapmadıqda , utanc hissinin əsasında yaranır. Yeniyetmələrin suisid cəhdləri əksər hallarda istədiklərini əldə etmək üçün ətrafdakaları qorxutmaq məqsədi daşıyır və planlı şəkildə yüngül xəsarətlərlə nəticələnir. Lakin nəticəsindən asılı olmayaraq intihar hallarının artması bu məsələyə kompleks yanaşma və müdaxilə tələb edir.

**İntiharın psixoloji xarakteristikası.**

Yeniyetməlik dövründə baş verən intihar hallrının müxtəlif səbəbləri olur. Bu səbəblər problemə əsasən ümumi və xüsusi xarakter daşıyır. Bəzən yeniyetmələr intihar etməmişdən əvvəl bunu dilə gətirirlər. Lakin valideyinlər bunun diqqət çəkmək məqsədi ilə olduğunu düşünərək onları ciddi qəbul etmirlər.

Beləki intiharla bağlı bir sıra nəzəriyyələr mövcuddur. Emile Durkheim yeniyetmələrin intihar etməsini sosial səbəblərdə -cəmiyyətdə görürdü. O bildirirdiki intihar cəmiyyətin inteqrasiya səviyyəsindən asılıdır. İnsanlar arasında sosial əlaqələr nə qədər az olarsa ,intihar halları bir o qədər artar [9]. Z.Freyd Psixoanalitik nəzəriyyədən çıxış edərək, intiharı insanın özünə yönəlmiş təcavüz olduğunu bildirirdi və bunun dərin psixoloji konfliktlər əsasında yarandığını bildirirdi. Digər bir yanaşna olan Konqnitiv-bihevioral yanaşmaya görə intiharı artıran səbəblər kimi yeniyetmələrdə neqativ düşüncə tərzinin olması və problemlərdən çıxış yolu tapa bilməmələri göstərilirdi [11]. Yeniyetmələrdə suisidal davranışlar psixoloji səbəblərdən yarana bilir.

Bu səbəblərə natamam ailələri, şəxsiyyət pozuntularını, ağır depresiya hallarlnı, həmyaşıdları ilə münasibətləri aid etmək olar. Yeniyetmənin intihar düşüncəsində olmasını göstərən bir sıra əlamətlərdən hiss etmək olar. Bu əlamətlərə yuxu və yemək vərdişlərində baş verən dəyişiklik, əzginlik, dərslərdə geriləmə, üsyankar davranış, evdən qaçma, pis vərdişlərdən istifadə, Ailədən və dost çevrəsindən uzaqlaşmaq, laqeydlik kimi əlamətləri aid etmək olar. Yeniyetmələrdə suisidal davranışların yaranmasına məktəbdə, evdə, həmyaşıdları tərəfindən bulinq halları xüsusilə çoxluq təşkil edir. Müəllimlər və valideynlər tərəfindən yersiz tənqidlər, şəxsiyyətin alçaldılması, özgüvənlərini zədələyəcək ifadələr yeniyetmələrdə dərin depresiya hallarına səbəb olur.

Valideynlər və müəllimlər nəzərə almalıdırlar ki, qarşılarındakı şəxs konqnitiv inkişafı tamamlanmamış yeniyetmədir və dediyimiz hər söz onların psixologiyasına mənfi təsir göstərə bilər. Yeniyetmələrdə suisidal davranış zamanı bir sıra risk faktorlarını nəzərə almaq lazımdır. Bu risk faktorlarına həyatında böyük əhəmiyyət daşıyan birinin itirilməsini aid etmək olar. Bu itkiyə ailə üzvlərindən və ya dostlarından birinin itirilməsi ola bilər. Bundan başqa valideynlərin boşanması, ailədə birdən birə ciddi maddi sıxıntıların yaranması, evin, maşının itirilməsi kimi hallarıda aid etmək olar. Boşanma hallarında yeniyetmə çox vaxt valideynlərini cəzalandırmaq üçün intihara əl atır [10]. Həmçinin yeniyetməlik dövründə sevgi hisslərıdə baş qaldırmağa başlayır və sevgilisi tərəfindən tərk edilən yeniyetmələrdə də suisidal davranışlar müşahidə olunur. Təbiiki, bu problemlər təkbaşına suisidal davranış üçün səbəb olmur.

Suisidal davranışa digər bir səbəb kimi yeniyetmənin mühütinin dəyişdirilməsi ola bilər. Yeniyetmə başqa bir şəhərə ,ölkəyə köçübsə və soisiallaşmada çətinlik çəkirsə , öz dost çevrəsindən uzaqlaşdığı üçün adapyasiya problemləri yaşayır və özünü tənha hiss edir. Xüsusi ilə bu dilini, adət-ənənələrini biımədiyi ölkəyə köçmə zamanı daha çox rast gəlinir. Bunun qarşısını almaq üçün yeniyetməyə xüsusi dəstək lazımdır. Həmçinin yeniyetmənin məktəbdə uğur qazana bilməməsi səbəbindən valideyinləri və müəllimləri tərəfindən təzyiqə məruz qalır və nəticədə düşdüyü situasiyadan çıxmaqda çətinlik çəkir.

Suisidal davranışa digər və ən geniş yayılmış səbəblərdən biridə yeniyetmənin öz həmyaşldları tırəfindən məruz qaldıqları bulinqdir. Bulinq uşaqların ixtiyari şəkildə incildilməsi və bunun bir neçə dəfə təkrarlanması halıdır. Bulinq bir neçə formada təzahür edə bilər. Bunlara fiziki, sosial, şifahi, kiber formaları aiddir. Fiziki bulinq cəmiyyətdə çox geniş yayılmış formalardan biridir. Vurmaq, itələmək, tüpürmək fiziki bulinqə nümunə göstərmək olar.

Kiber bulinq sosial şəbəkələr vasitəsi ilə təhdid, alçaldıcı və qorxutmaq məqsədi ilə mesajların göndərilməsi, hesabların sındırılmasıdır. Müasir dövrümüzdə kiber bulinq daha çox yayılıb və yeniyetmələr bunun təsiri altında idarə olunurlar. Həmçinin son illərdə yeniyetmələrə online oyunlar vasitəsilə təlqinlər olunur və təsir altına salınaraq kiber bulinq vasitəsilə intihara təhrik edilirlər. Sosial bulinq yeniyetmələrin daxil oıduğu hər hansı qrupdan uzaqlaşdırılması, digərlərinin ona qarşı qruplaşmasıdır.

Bu kimi hallara daha çox sinifdə rast gəlinir və zəif xarakterə malik, həssas uşaqlar bulinqin bu formasından ciddi psixoloji sarsıntı keçirirlər. Şifahi bulinqə isə sözlü şəkildə yeniyetməyə xəbərdarlıq olunması, qorxudulması və üzərinə hər hansı bir böhtan atılması hallarını nümunə göstərmək olar. Yale universtetinin apardığı araşdırmaya görə bulinqə məruz qalan yeniyetmələrin intihar etmə riski digərləri ilə müqayisədə 2-9 dəfə daha yüksəkdir. İngiltərədə aparılmış tədqiqatın nəticələrinə əsasən intihar edənlərin 50%-i bulinqə məruz qalmış şəxslərdir. ABC News-un təqdim etdiyi statistikaya əsasən hər gün 160000 yeniyetmə bulinqə məruz qaldığı üçün məktəbə getməkdən imtina edirlər. Ümumilikdə belə nəticəyə gəlmək olarki, zorakılığa məruz qalmış yeniyetmələr vəziyyətdən çıxış yolunu intiharda görürlər.

**Risk faktorları.**

Tədqiqatçılıran araşdırmalarına yeniyetmələrin suisid hallarına zəmin yaradan əsas səbəblərdən biri ailə mühiti ilə bağlıdır. Xüsusilə yeniyetmənin körpəlikdən ana ilə emosional bağlarının düzgün qurulmaması suidid hallarını artırır. Bağlanma nəzəriyyəsinə əsasən Con Boulbi uşağın körpəlikdən bu günə qədər olan emosional bağlarına diqqət yetirilməli olduğunu bildirmişdir. Bu bağlara diqqət yetirərkən uşağın baxıcısı ilə olan bağlarıda nəzərə alınmalıdır. Uşaqlar təhlükə hiss etdikdə sığına biləcəkləri yelərinin olmasını bilmələri üçün emosional bağların düzgün qurulması vacibdir.

Emosional bağlara olan ehtiyyac uşaqlıq dövründən düzgün təmin edildikdə, ödənildikdə yeniyetməlik və somrakı yaş dövrlərində insanda güclü xarakter formalaşır və istənilən situasiyada çıxış yolu tapmağı bacarır. Harri Harloun emosinal bağlara olan ehtiyacın vacibliyini izah edən tədqiqat aparmışdır. Belə ki, yeni doğulmuş meymunlar üzərində aparılan tədqiqata görə iki ana fiquru hazırlanmışdır, fiqurlardan biri dəmirdən və şüşə süddən, digəri isə isti və yumuşaq dəsmaldan hazırlanmşşdır.

Meymunları ilk otağa buraxdıqda qida ehtiyaclarını ödəmək üçün dəmir maketə yaxın getsələrdə, sonradan səs siqnalları vasitəsi ilə qorxudulan meymunlar dəsmaldan hazırlanan maketə sarılmışdırlar . Bu tədqiqat göstərir ki, təhlükə hiss etdikdə insanda güvənli yerdə olmağa çalışır. Yeniyetmələrdə də emosional bağlar düzgün qurulmadıqda yeniyetmə özünü təhnha hiss edir, özünə qapanır və assosial davranış sərgiləyir ki, buda bir çox hallarda intiharla nəticələnir. Emosional bağları olmauan yeniyetmələr çox vaxt aqressiv, hirsli davranırlar və onlarla münasibət qurmaq istəyən insanlarada soyuq münasibət göstərir və ünsiyyətdən yayınırlar.Emosional bağları olmayan insanlardan tez-tez aşağıdakı fikirləri eşitmək olar:

- Mənim ətrafımda məsləhət ala biləcəyim heç kim yoxdur.
- Həyatımda bir boşluq var, amma bunun nə olduğunu anlaya bilmirəm.
- Heç vaxt məni emosional olaraq təsəlli edən olmayıb
- Heç vaxt hisslərim və duyğularım təsdiqlənməyib.
- Mən özümdə olan qüsurları heç kimlə bölüşə bilmirəm.

Aparılmış tədqiqatlar göstərir ki, insanın emosiaları onun zəkasına, qərar verməsinə və düşünməsinə təsir göstərən əsas amillərdəndir. Emosional bağların suisidal davranışlara təsir göstərdiyini nəzərə alsaq valideyn himayəsindən məhrum olmuş uşaqlar, natamam ailələrdə böyüyən uşaqlar, öz yaxınları tərəfindən zorakılığa məruz qalmış yeniyetmələr xüsusi risk qrupuna daxildir.

Yeniyetmələrin intihar səbəbləri bəzən onların həyatı ilə bilavasitə əlaqəsi olmayan hadisələrdə ola bilər. Yeniyetməlik dövrü həssas dövr olduğu üçün bəzən neytral ifadələr belə onların psixologiyasında qıcıqlanmaya səbəb ola bilir. Belə ki yeniyetmələr ətragdan gələn emosiyaları daha tez qəbul edir və analiz edirlər. Həmçinin yeniyetməlik dövründə beyində yeni ideyalar yaranır, lakin yeniyetmələr təcrübəsiz olduğları üçün bəzən bu ideyalar müsbət sonluqla yekunlaşmır və buda yeniyetmələrdə ruh düşgünlüyü yaradır. Yeniyetmələrdə suisidal davranışa təsir göstərən amillər kompleks və çoxşaxəli olduğu üçün müxtəlif yanaşmalar mövcuddur.

Psixoloji amillərə, yeniyetmədə depressiya halı, aqressivlik, fiziki, cinsi və emosional zorakılıq, özünü aşağı qiymətləndirmə kimi hallar suisid üçün əlavə risk yaradır. Bundam başqa daha əvvəl intihara cəhd etmiş insanların yenudən intihara cəhd etmə hallarıda tez-tez rast gəlindiyi üçün , bir və ya bir neçə dəfə intihara cəhd etmiş insanlarda risk qrupuna daxildirlər. Bir dəfə intihara cıhd etmiş şəxsdə növbəti dəfə intihar düşüncəsinə qapılma halı daha asan və cəsarətli olur [4].

Ailəvi və sosial amillərə valideynlərin həddən artıq nəzarət etməsi,ailədə daha öncə suisid hallarının yaşanması, maddi çətinliklərin artması nəticəsində valideynlərin gərginliyi yeniyetmələrə ötürməsi kimo halları aid etmək olat. Bioloji amillərə genetik faktorları-ailədə suisidə meyillilik, ailə üzvlərində psixi pozuğunluğun olması və bunun yeniyetmədə

də təzahür etməsini aid etmək olar. Cəmiyyət amillərinə dini inancların təsiri, sosial təzyiqlər aid edilir. Ekoloji amillərə narkotik maddələrdən və alkoqoldan asılılıq, müharibə və təbii fəlakətlərdə yeniyetmələrdə psixoloji pozuntulara səbəb olur. Qeyd olunan amillərin hər biri suisudal davranış üçün zəmin yaradan problemlərdəndir. Ekoloji yanaşmanın inkişafında rolu olan alimlərdən biri də Bronfenbrenerdir . Bronfenbrener makro, mikro və eko sistemlərin təsirini araşdırır. Ekoloji yanaşma mühitdə insan faktorundan istifadə edərək ailənin fəaliyyətini geniş istiqamətdə araşdırır. Mütəxəssislər ailənin daxil olduğu ekosistemi müəyyən edərək , yeniyetmənin davranışına təsirni öyrənərək, intiharın səbəbini araşdırmağa çalışırlar. Ekoloji nəzəriyyəyə əsasən insanın inkişafını 4 əsas sistem üzərində qurulduğunu bildirir.

Mikrosistem sosial və fiziki mühitlə insan arasındakı əlaqəni aydınlaşdırır.

Mezosistem ətrafdakıların yeniyetməyə qarşı münasibətini araşdırır. Ekosistem yeniyetmənin əlaqədə olmadığı digər sistemlərin yeniyetməyə təsirini araşdırır.

Makrosistem isə yeniyetmənin ailə dəyərlərinin və cəmiyyətin dəyərlərinin yeniyetməyə necə təsir göstərdiyini araşdırır. Bronfembronerin ekoloji sistem nəzəriyyəsində də ailə və mühit faktorunun yeniyetmənin gələcək inkişafına böyük təsirinin olduğunu bildirir [5].

Yeniyetmələr arasında qızlar oğlanlara nisbətən daha çox intihara cəhd edirlər.Lakin oğlanların intihar cəhdləri əksər hallarda ölümlə sonlanır, qızlarda isə bu bir çox hallarda cəhd xəsarətlə yekunlaşır. Yeniyetmələrin intihar vasitələri qız və oğlanlarda fərqli təzahür edir. Oğlanlar özlərini asmaq və silahdan istfadə vasitəsilə intihara cəhd edirlər. Qızlar isə daha çox dərman vasitlərindən istifadə etməklə intihara cəhd edirlər. Yeniyetmələr arasında qızların intihar cəhdlərinin çox olması səbəbini belə izah etmək olar ki, qızlarfa yeniyetməlik dpvrü daha tez başlanır və qızlar daha çox sevgi münasibətləri qururlar. Qızlarda intihar səbəbi olaraq daha çox sevgililəri ilə ayrılıqlar üstünlük təşkil edir. Oğlanlar streslə mübarizədə daha çox pis vərdişlərə yiyələnməyi və aqressiv davranış sərgiləməyi seçirlər. Qızlar isə streslə mübarizə üsulu olaraq suisiddən istifadə edirlər. Həmçinin bizim cəmiyyətimizdə oğlan və qızın ailədəki rolunun fərqli olmadı və qlzların daha çox evə bağlı olması ailə daxili münaqişələrə gətirib çıxarır [6].

Yeniyetmələrin fərqli fantaziyalarıda intihara gətirib çıxaran səbəblərdəndir. Belə ki, yeniyetmələr dünyasını dəyişmiş hər hansı bir yaxınına qovuşacağını düşünərək intihara edə bilər. Digər bir fantaziyaya görə yeniyetmənin ölümdən sonrakı dünyanı görmək istəməsi intihar səbəbi ola bilər. Dini düşüncələrdə çox vaxt yeniyetmələrdə intihar cəhdlərinə gətirib çıxara bilir.

Yeniyetmələrdə cinsi oriyentasiyaların yaranması və valideynlərin onları anlamaması, təhqir etməsidə çox vaxt intihar cəhdlərinə səbəb olur. Bundan başqa yeniyetmələrdən gpzləntilərin çox olması, onıarın digər həmyaşıdları ilə müqayisə olunmasıda intihara səbəb olan hallardandır. Yeniyetmələrdə tez-tez rast gəlinən tamamlanmamış intihar halları çox vaxt valideynləri və ya ətrafdakıları qorxudaraq onları idarə etmək məqsədi güdür. Xüsusilə qızlarda tamamlanmamış intiharlara daha çox rast gəlirik. Bir çox hallarda da valideynlər yeniyetmələrin dilə gətirməsinə baxmayaraq intihar düşüncələrini ciddiyə almırlar. Buda çox vaxt bədbəxt sonluqla yekunlaşır. [1].

Nazirlər kabinetinin açıqlamasına əsasən 2023-cü ildə azərbaycanda 620 intihar hadisəsi baş verib, 820 nəfır isə intihara cəhd edib. İntihar hallarının əksəriyyəti rayonlarda baş vermişdir. Son 10 ilin intihar statistikasına baxsaq Azərbaycanda intihar və intihara cəht hadisələri artan statistika üzrə davam edir. İntihar hallarını əksəriyyətinin rayonların payına düşməsi diqqəti xüsusi ilə cəlb edir. Rayonlarda maarifləndirmə tədbirlərinin yetərincə olmaması, sosial qınaq böyük şəhərlərə nisbətən daha çox üstünlük təşkil edir. İntiharların artmasının digər bir səbəbi isə televiziyada, sosial şəbəkələrdə intihar hadisələrinin və vasitələrinin detallı şəkildə paylaşılmasıdır. Yeniyetmələr arasında intihar halları yay aylarında xüsusi ilə artır. Beləki, universtetlərə qəbul imtahanlarının nəticələrinin

açıqlanmasının yay aylarına təsadüf etməsi bu faktoru dahada artırır. İmtahanda uğursuz olan yeniyetmələr valideynləri tərəfindən psixoloji təzyiqlərə məruz qalır və ya valideyn təzyiq göstərməsə belə özlərini valideynlərinin qsrşısında günahkar hiss etmələri və utanc hissinə bağlı səbəblərdən dolayı intiharı çıxış yolu olaraq seçirlər.

Suisidal davranış 3 mərhələdə həyata keçirilir:

1. İlkin olaraq suisidal düşüncələr yaranır. Yeniyetmələr düşdükləri vəziyyətdən çıxış yolu olaraq ölümü düşünürlər.
2. Suisid planlaşdırılır. Suisidin həyata keçirilməsi üçün kontkret üsul, məkan və vaxt müəyyənləşdirilir.
3. Üçüncü və sonuncu mərhələdə artıq yeniyetmə hərəkətə keçir və suisid cəhdini reallaşdırır.

Araşdırmalara əsasən intiharların 79%-i zəif və orta gəlirli ölkələrdə rast gəlinir. Dünyada hər il 800 min nəfər intihar edərək həyatına son qoyur. Yeniyetmələr arasında intihar edən oğlanların sayı qızlardan 4 dəfə çoxdur. Baxmayaraq ki, intihara cəhddı bu statistika dəyişir. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına əsasən intihar hallarının ən çox yayıldığı ölkələrə Hindistan, Cənubi Koreya, Litva, Rusiya, Belarus, Fransa, Macarıstan, ABŞ ,Avstraliya daxildir [2].

Azərbaycanda intihar hallarının statistikası ayrı-ayrılıqda aparılmır. Buna səbəb isə bir çox intihar hadisələrinin, cəmiyyətin dəyərlərinin nəzərə alınaraq açıqlanmamasıdır. Beləki, ailə üçün övladının intihar etməsi nə qədər faciəli olsada, bir çox hallarda intihar səbəblərinə görə utanc hissi yaşaya bilərlər.

Yeniyetməlik dövründə intihar hallarının artmasında , həmin dövrün sosial-psixoloji problemləri xüsusi mahiyyət daşıyır. Ailədə yetəri qədər sevgi, qayğı görmüş yeniyetmələrdə intihar meyilləri çox az rast gəlinir . Yeniyetmələrin uğursuzluqlarında ailələrin aqressiya və təzyiq deyil, dəstəkləyici münasibət göstərməsi yeniyetmənin psixologiyası baxımından çox əhəmiyyətlidir.

Emil Dürkheym intiharın əsas səbəbini fərdlə ictimai normalar arasında yaranan vakuum hesab edirdi. O bu vakuuma keçid dövründə daha çox rast gəlindiyini bildirərək, bunu anomaliya adlandırırdı. “ Bu, elə bir dövrdür ki, əvvəlki normalar fərd üçün öz qüvvəsini itirib,yeniləri isə hələ formalaşmayıb.Deməli, intihar həm də fərdi inqilabdır”. İntiharın bu formadına tibbdə “parasuisid” adı verilib. Bu növ intiharlar zamanı intihar edən şəxs ətrafdakələrın diqqətini özünə və ya hər hansı bir probleme çəkmək məqsədi güdür. Bunun əksi isə şüurlu şəkildə olan, həqiqi intihardır. Həqiqi intihar zamanı insan həyatdakı missiyasının bitdiyinə inanır, öncədən hazırlıq görür və doğmalarının nə edəcəyi haqqında düşünmədən öz qərarını verir. E. Dürkheymin suisidal təsnifatında iki əsas kriteriya olaraq sosial inteqrasiya və sosial requlyasiya əsas götürülərək susidal davranışın 4 növü müəyyən olunmuşdur. İlk iki növ eqostik və altrustik intiharlar sosial inteqrasiyanın pozulması ilə əlaqələndirilir. İkinci qrup intiharlara aid edilən anomik və fatalist intiharlar isə sosial requlyasiyanın pozulması ilə əlaqədardır [5].

Eqistik suisid aid olduğu sosial qrupla eyni fikirdə olmadığı üçün ailəvi,dini, ictimai nəzarətə tabe olmayan şəxslər tərəfindən həyata keçirilir.

Altruistik suisid öz həyatını sosial motivlərə qurban verən və bunun nəticəsində qrup identifikasiyasına malik şəxslər tərəfindən həyata keçirilir.

Anomik suisid sosial və siyadi dəyişilliklər nəticəsində cəmiyyətlə sosial requlyasiyanın azalması nəticəsində həyata keçirilir.

Fatalist suisid anomik suisidin əksi olaraq sosial və siyadi dəyişilliklər nəticəsində cəmiyyətlə sosial requlyasiyanın artması nəticəsində həyata keçirilir.

E. Dürkheymin fərqləndirdiyi intihar növlərinin baş verməsinə səbəb olan amilləri aşağıdakı kimi izah etmək olar:

Eqoist intiharın səbəblərinə uzun müddət davam edən melonxolik əhval-ruhiyyəni, həyata marağın iturilməsini, xarici mühitə uyğunlaşa bilməməyi aid etmək olar.

Alturist intiharın səbəblərinə ağıl və iradənin qarşılıqlı əlaqəsi nəticəsində, inam və borc hissi nümunə göstərilə bilər.

Anomal intiharın səbəbi kimi isə zəif iradə , məqsədin olmaması, həyata nifrət etmək daxildir.

Bütün bunlardan əlavə E.Dürkheym intiharın sosial səbəblərinə azalma sırası ilə aşağıdakı amilləri göstərmişdir.

“1) Yoxsulluq, var-dövlətin itirilməsi;

2) Ailə faciəsi;

3) Məhəbbət, qısqanclıq, pozğunluq, məqsədsiz həyat;

4) Müxtəlif xoşagəlməz hadisələr;

5) Psixi pozğunluq;

6) Vicdan əzabı, cinayətə görə lənətdən qorxu hissi;

7) Digər səbəblər, aydın olmayan səbəblər;

8) Fiziki əzab;

9) Ailədə xoşagəlməz hadisələr;

10) Əyləncəli oyunlara ehtiraz, alkoqolizm;

11) Dini çaşqınlıq;

12) Çılğın əsəbi vəziyyət;

13) Həyata nifrət [8].

Yeniyetməlik dövründə suisidal davranışların qarşısının alınması üçün kompleks tədbirlər həyata keçirilməlidir. Bu tədbirlərə maarifləndirmə prosesi ilə başlamaq olar. Maarifləndirmə tədbirləri yeniyetmələri, valideynləri və müəllimləri tam əhatə etməlidir. Yeniyetmələrə öz hissəlirini tanımaları və idarə etmək bacarığı ilə bağlı müxtəluf təlimlər keçirilməlidir. Valideynlər və müəllimlər üçün isə suididal davranışların əlamərləri və bu əlamətlərin vaxtında aşkarlanması üçün təlimlər təşkil etmək olar.

Yeniyetmələrə psixoloji yardımın göstərilməsi üçün məktəb psixoloqlarınında yeniyetmələrlə fərdi və qrup halında işlərin aparılmasıda vacib faktorlardandır. Məktəb psixoloqları yeniyetmələrin valideynləri ilədə tez-tez görüşlər keçirərək ailə terapiyaları təşkil edə bilərlər. Ailədaxili problemlərin qarşısının alınması üçün ailə məsləhət xidmətləridə fəaliyyət göstərə bilər. Yeniyetmələrin maraqlarına uyğun fəaliyyət növlərinə cəlb olunmalı karyera istiqamətlərini müəyyənləşdirmık üçün məsləhət xidmətləridə fəaliyyət göstərə bilər [3].

Bunlardan başqa ətrafdakılar yeniyetmələrin fikirlərini dinləyib, onlara ciddi yanaşmalıdırlar. Sosial şəbəklər vasitəsilədə pozitiv mesajlar vermək gələcək üçün ümid yaradacaq. Həmçinin yeniyetmələrin problemlərinin həlli üçündə qaynar xəttlər yaradılmalıdır. Yeniyetmələrin psixoloji sağlamlıqlarının yoxlanılması üçün mütamadi monitorinqlər təşkil olunmalıdır.

Yeniyetməlik dövründə valideynlər övladlarına münadibətdə ,onlarla ünsiyyət qurarkən daha seçici olmalıdırlar . Yeniyetmələrə elə emosional əlaqə yaradılmalıdır ki , yeniyetmə problemlərini rahatlıqla valideynlərinə deyə bilsin və arxasında onu heç bir səhvinə görə tənqid etməyəcək valideynlərin o lduğunu bilsin [7].

**Nəticə.**

Yeniyetməlik yaş dövrünün həssas bir dövr olduğunu nəzərə alsaq , bu dövrdə yeniyetmələrin deviant davranış sərgiləməsi normal qarşılanmalıdır. Yeniyetmə ilə emosinal bağlar körpəlikdən düzgün qurulmalı və yeniyetmənin normal inkişafı üçün sağlam psixoloji mühit yaradılmalıdır. Yeniyetməyə problemə deyil, onun həllinə fokuslanmaq öyrədilməlidir. Suisidal davranışlar araşdılırakın məktəb və mühitindəki problemlərə diqqət yetirilməlidir. Yeniyetmənin düşüncə və hislərinə hörmətlə yanaşılmalıdır.

## ƏDƏBİYYAT

1. Şabanova S.F. suisidal hallar üzrə məhkəmə-psixoloji ekspertiziyasının keçirilməsi. Metodik vəsait. Bakı, 2000,125s
2. Məmmədova S.D. suisid desturiktiv davranış forması kimi//Elmi əsərlər,2006,N°3-4(6), s.20-36
3. İsmayılov N.,İsmayılov F. Tibbi psixologiya və psixoterapiya.Maarif nəşriyyatı, Bakı, 2002, 376 s.
4. N.V.İsmayılov. Psixiatriya. Bakı,2013-s.45
5. Suisidal davranış və ona müxtəlif yanaşmalar // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun Elmi əsərləri-2015 N°2, s. 49-52.
6. Yeniyetmələrdə suisidal davranışa meyilliliyin psixoloji məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun Elmi əsərləri-2015 N°4, s. 71-73
7. Xəlilov H. Uşaq və yeniyeymələrin inkişafının sosial psixoloji məsələləri. Bakı,2012, 236 s.
8. Seyidov S.İ. və Həmzəyev M.Ə. Psixologiya. Ali Pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı: A.R.Təhsil Problemləri İnstitutu , 2007,626 s.
9. Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G., Konfliktologiya. Bakı, 2006. – 251 səh.
10.http://pcc.az/blog/?p=1347 https://psixologiya.info/?p=234

## YENİYETMƏLİK DÖVRÜNDƏ SUİSİDAL DAVRANIŞLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ.

*Mehdizadə Məlahət*

## XÜLASƏ

Bildiyimiz kimi XXI əsrin ən böyük problemlərində biridə suisiddir. Suisid latın sözü olub “sui” - özünü, “seadere” - öldürmək deməkdir. Suisidal davranış Bütün yaş dövürlərində özünü göstərir, lakin, yeniyetməlik dpvrünün xüsusi ilə həssas dövr olduğunu nəzərə alsaq, bu dövrdə daga çox rast gəlinir. Yeniyetməlik dövrü 11-16 yaş dövrünü əhatə edir. Son illərin statistikası əsasında aparılan tədqiqata əsasən Azərbaycanda yeniyetmələrin və qadınların intihar halları artmışdır. Bu statistikanı nəzərə alsaq valideyinlərin, müəllimlərinvə məktəb psixoloqlarının üzərinə ciddi məsuliyyət düşür. Yeniyetmələrə bu dövrdə xüsusi yanaşılmalıdır.

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СУИЦИДАЛЬНОГО ПОВЕДЕНИЯ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

*Мехдизаде Малахат*

## РЕЗЮМЕ

Как известно, одной из самых серьёзных проблем XXI века является суицид. Термин суицид происходит от латинских слов “sui” — «себя» и “seadere” — «убивать». Суицидальное поведение проявляется во всех возрастных группах, однако, учитывая, что подростковый период является особенно чувствительным этапом развития, такие случаи чаще встречаются именно в этом возрасте. Подростковый период охватывает возраст от 11 до 16 лет. Согласно исследованиям, основанным на статистике последних лет, в Азербайджане увеличилось количество случаев самоубийств среди подростков и женщин. Учитывая эту статистику, на родителей, учителей и школьных психологов возлагается серьёзная ответственность. Подросткам в этот период необходим особый подход и внимательное отношение.

# PSYCHOLOGICAL FEATURES OF SUICIDAL BEHAVIOR IN ADOLESCENCE

***Mehdizadeh Malahat***

## ABSTRACT

As we know, one of the major problems of the 21st century is suicide. The word suicide originates from Latin, where "sui" means "self" and "seadere" means "to kill." Suicidal behavior can be observed in all age groups; however, considering that adolescence is a particularly sensitive developmental stage, such cases are more frequently encountered during this period. Adolescence covers the ages of 11 to 16. According to recent research based on statistical data, suicide rates among adolescents and women in Azerbaijan have increased. Taking this into account, significant responsibility falls on parents, teachers, and school psychologists. Adolescents require special attention and a sensitive approach during this stage of their development.

# QADINLARIN CƏMİYYƏTDƏ, SİYASƏTDƏ, İŞ DÜNYASINDA VƏ DİGƏR SAHƏLƏRDƏ LİDER OLARAQ ROLU (Azərbaycan nümunəsi)

*Hüseynli Aliyə Əliqismət qızı*
*Bakı Biznes Universitetinin II kurs magistrantı*
*aliyahuseynli7@gmail.com*

*Açar sözlər:* Qadınlar, cəmiyyət,iş dünyası,inteqrasiya,liderlik
*Ключевые слова:* Женщины, Общество, Деловой мир, Интеграция, Лидерство
*Key words:*Women, society, business world, integration, leadership

**Giriş.** Qadın bəşəriyyətin formalaşmasında, cəmiyyətin inkişafında və nəsillərin tərbiyəsində mühüm rol oynayan əsas sosial subyektdir. Onun ailə və cəmiyyətdəki mövqeyi yalnız bioloji və ailəvi funksiyalarla məhdudlaşmır; qadın eyni zamanda sosial, iqtisadi və mədəni tərəqqinin vacib daşıyıcısıdır. İlahi və mənəvi dəyərlər sistemində qadına verilən yüksək qiymət onun cəmiyyətdəki əvəzsiz rolunu bir daha təsdiqləyir. Lap qədim zamanlardan qadın əməyi cəmiyyətin müxtəlif sahələrində ön pillələrdə olmuşdur. Xüsusilə, Azərbaycan qadınları minilliklər boyu yalnız ailə-məişət işlərində deyil, hərb sənətində, ölkənin sosial, siyasi və iqtisadi həyatında da fəal iştirak etmiş, qadınlara verilən dəyər və onların ictimai-sosial rolu tarixi mənbələrlə sübuta yetirilmişdir.

Tarixi mənbələr göstərir ki, qadınlar yalnız ailə və icma daxilində deyil, həm də dövlət idarəçiliyi və ictimai məsələlərdə mühüm rol oynamışlar. Qadınların liderlik və strateji bacarıqları, onların cəmiyyətin idarə olunmasında və sülhün təmin edilməsində necə mühüm rol oynadığını göstərir. Tarixi nümunələrdə, məsələn, Tomris və Natəvan kimi qadın liderlər, döyüşkənlik, müdriklik və sosial təsir qabiliyyəti ilə seçilmişlər. Bu nümunələr, qadınların sosial, siyasi və mədəni sahələrdə fəaliyyətlərinin həm tarixi, həm də müasir dövrdə əhəmiyyətini vurğulayır. Beləliklə, qadınların cəmiyyətdəki rolu yalnız şəxsi deyil, həm də kollektiv və tarixi əhəmiyyət daşıyan bir fenomendir.

Dədə Qorqud boylarında qadın obrazları cəmiyyətin mühüm və fəal üzvləri kimi təqdim olunur. "Salur Qazanın evinin yağmalandığı boy"da qadınlar cəsarət, mərdlik, zəriflik və ağıllı qərarvermə bacarıqları ilə ön plana çıxır və icmanın maraqlarını qorumaqda mühüm rol oynayırlar. Qadınlar strateji məsləhətçi kimi çıxış edir, döyüşlərin nəticələrinə təsir göstərirlər. Boylarda qadınların yalnız evdə deyil, tayfa və icma işlərində də fəal olduqları, müdrik addımları ilə müharibələri dayandırıb, sülh və əmin-amanlıq yaratdıqları vurğulanır. Evlilik və ailə məsələlərində qadınlar ailə-mədəni dəyərlərin qorunmasında və icma əlaqələrinin balanslaşdırılmasında fəal iştirak edirlər. Bu nümunələr göstərir ki, tarixi mətnlərdə türk qadınlarının liderlik, sosial təsir və strateji düşüncə qabiliyyətləri yüksək qiymətləndirilmişdir. Beləliklə, Dədə Qorqud boyları qadınların cəmiyyət və tarixdəki fəal rolunun erkən təsbit olunmuş nümunələrini təqdim edir [8].

Orta əsrlərdə Saray Xatun kimi şəxsiyyətlər diplomatik qabiliyyətləri ilə tarixə iz qoymuşdur.Saray xatun — Azərbaycanın ilk diplomat qadını sayılır. Cəlaləddin Əli bəyin həyat yoldaşı, Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin və Cahangir Mirzənin anası dövlət və siyasi işlərində ona kömək etmiş,o dövrdə xarici hücumların qarşısını almaqda, daxili çəkişmələri aradan götürməkdə böyük əmək sərf etmişdir [11]. O,Azərbaycanın siyasi həyatında mühüm rol oynayan ilk qadınlardan biri olmuşdur. Bütün bunlar türk qadınlarının tarix səlnaməsində buraxdığı izlərin yalnızca qısa xülasəsidir.

Neçə illər müxtəlif hücumlara,işğallara məruz qalan və daim əsarət altında qalan Azərbaycan torpaqları,dini,siyasi,mədəni ayrı-seçkilik səbəbindən Azərbaycan xanımını təhsildən,elmdən ayırmağa kifayət etdi. Orta əsrlərdə yalnız mədrəsələrdə dini biliklər öyrədilən qızlarımıza,başqa xüsusi şanslar verilmirdi.Azərbaycanda digər ölkələrin "dini

qulları” imkan vermirdi ki , qadınlarımız xüsusi məktəblərdə dərs alsın. Hacı Zeynalabdin Tağıyev 1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək, Bakıda ilk qızlar məktəbi tikdirdi. Bəzi mənbələrdə qızlar məktəbinin inşasını Sona xanımın təklif etdiyi göstərilir. Çünki gənc yaşda Hacıya arvad olan Sona xanım təhsil ala bilməmişdi.

Bu məktəb bütün Zaqafqaziyada yeganə qızlar məktəbi idi [11 s. 25]. Beləliklə,Şərqdə ilk qız məktəbinin açılışı da məhz bizim ölkəmizin adıyla bağlıdır. O dövrü nəzərə alaraq, bu təşəbbüslərin necə genişmiqyaslı və əhəmiyyətli sosial layihələr olduğunu vurğulamaq vacibdir. Həm bu, həm də digər oxşar təşəbbüslər göstərir ki, Azərbaycanda qadınlara tarixən yüksək dəyər verilmiş, onların ictimai və siyasi həyatda fəal iştirakını təmin etmək məqsədilə ideyalar formalaşdırılmışdır. Bu nümunələr qadınların cəmiyyətdəki liderlik rolunun tarixi əsaslarını açıq şəkildə nümayiş etdirir.

Mərkəzi Asiya tarixində Massagetlər və Saklar kimi qəbilələrdən bəhs edilərkən, xüsusilə onların döyüş və siyasi strukturları tədqiq edilir. Bu kontekstdə, rəvayətin əsas qəhrəmanı, Massagetlərin qətlə yetirilmiş şahının Türk dul qadını Tomris olaraq təqdim edilir və o, tarixi mətnlərdə həm peçeneq qadın sərkərdə, həm də Skif dövlətinin xanı kimi deyil, güclü və strateji liderliyi ilə ön plana çıxan mərkəzi fiqur kimi təsvir olunur.

Tarixi nümunələr göstərir ki, qadın liderlərin təsiri yalnız müasir dövrdə deyil, qədim dövrlərdə də əhəmiyyətli olmuşdur. Massagetlərin başçısı Tomris e.ə. VI əsrdə igidlik və strateji bacarığı ilə tanınmışdır. II Kir onunla evlənmək və Massaget çarlığını ələ keçirmək istəmiş, lakin Tomris bu təklifi rədd edərək qorxmazlıqla döyüşə başçılıq etmişdir. Başlanğıcda tərəflər uzaqdan mübarizə aparmış, sonradan əlbəyaxa döyüşlə qarşılaşmışlar. Nəticədə Tomrisin rəhbərlik etdiyi Massagetlər qalib gəlmiş, II Kir öldürülmüşdür. Bu hadisə, qadın liderlərin cəsarəti, strateji düşüncəsi və döyüşkənliyi ilə tarixi nümunə təqdim edir. Tomris timsalında qadınların liderlik potensialı, müasir qadınların siyasət, iş dünyası və sosial sahələrdə rolu ilə müqayisə edilə bilər. [6, 16]

XIX əsrdə məhşur şairə Xurşidbanu Natəvanın cəmiyyətin güzəranının yaxşılaşdırmasındakı xidmətlərini xüsusilə, qeyd etmək lazımdır.O,zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş,təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. Həmçinin, kasıblara əl tutmuş, Şuşaya su kəməri çəkdirmişdir. Mehdiqulu xan qızı Xurşidbanu Natəvan 6 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdir. O, ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" çağırmışlar. Natəvanın yaradıcılıq fəaliyyəti təkcə şeirlə bitmir. O rəssamlıqla da məşğul olurdu, həmçinin, onun nəfis əl işləri, müxtəlif janrda tikmələr bacarığı da olmuşdur. Yaradıcılıqla bərabər Xan qızının ictimai və idarəetmə fəaliyyətini qeyd etmək olar. Natəvanın xeyirxahlığı və xeyriyyəçiliyi də gözə çarpır .

Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, doğulduğu torpağa bağlı olmasında həm də mənsub olduğu soyun, kökün, nəslin böyük təsiri vardır[14]. Xeyriyyəçi, messenant və fəal ictimai xadim kimi də xalqın yaddaşına həkk olmuşdur. Xurşidbanu Natəvan Gənc şairə vaxtı Şuşada "Məclisi-üns" ədəbi məclisini təşkil etmişdir. 1873-cü ildə Şuşaya su kəmərini çəkdirmişdir: bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur. Natəvan Araz çayından Mil düzünə də su kəməri çəkməyə təşəbbüs etmişdir.1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə Xurşidbanunu rastlaşdırmışdır.

Natəvanın həyat yoldaşı Xasay xanın fransız dilini yaxşı bilməsi onlar aralarında dostluq telləri yaratmışdır. Onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim etmişlər. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumat da A. Dümanın "Qafqaza səyahət" kitabında öz əksini tapmışdır [2]. Qadınlarımızın hər zaman ictimai xadim kimi ön pillədə olmalarını göstərən faktlar çoxdur. Məqalədə tarixin çox kiçik bir hissəsinə səthi toxunaraq, mühüm nüanslar qeyd edilmişdir.

Qadınlar cəmiyyətin möhkəm təməllər üzərində qurulmasında və sağlam inkişafda mühüm dəyərə malikdirlər. Bütün cəmiyyətlərin öz inancları,tarixləri,mədəni dəyərləri,ictimai və siyasi həyatları var. Bu cəmiyyətlərin cins və qadın anlayışı öz unikal dəyərləri daxilində müxtəlif yollarla ortaya çıxmışdır. Tarixi prosesdə qadınlara gender baxımından qiymət veriləndə dünyanın bütün cəmiyyətlərində hər cür ayrı-seçkilik və zorakılıqlara məruz qalmaqla ikinci dərəcəli insanlar kimi xarakterizə olunur. Son illər dünyada baş verən siyasi, iqtisadi, sosial və texniki tərəqqi sayəsində qadınlar bu sahədə neqativ halların aradan qaldırılması məqsədilə öz hüquqları uğrunda mübarizəyə başladılar.

Cəmiyyətdə qadınların mövqeyi müzakirə edilməyə başladı. Bu mübarizələrlə cəmiyyətlərdə qadınların mövqeyində və bu cəmiyyətlərin qadınlara qarşı baxışında müsbət dəyişikliklər müşahidə olunmağa başladı. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialından səmərəli bəhrələnmək üçün əlverişli zəmin yaradır.

Azərbaycan qadınının ədalət, humanizm, xeyriyyəçilik və digər bəşəri prinsiplərə söykənən, sərhəd tanımayan çoxşaxəli fəaliyyəti nəinki Azərbaycan, hətta dünya qadınları üçün nümunə və örnəkdir. Azərbaycan qadını bu gün dünya qadınları hərəkatının ön cərgəsində ağlı,zəkası,istedadı,ləyaqəti ilə təmsil olunur və daim "İLKLƏR" arasında öz sözlərini deyirlər.Aşağıda adlarını çəkdiyimiz qadınlar Azərbaycanda bir ilkə imza atmış qadınlarımızdır.

- Azərbaycanın ilk aktrisası: Gövhər Qazıyeva
- İlk qadın təyyarəçi: Leyla Məmmədbəyova
- İlk azərbaycanlı qadın hərbi pilot: Züleyxa Seyidməmmədova
- Azərbaycanın ilk qadın Milli Qəhrəmanı: Gültəkin Əsgərova
- İlk şəhid qadın jurnalist: Salatın Əsgərova
- İlk qadın nazir: Tahirə Əkbər qızı Tahirova
- Müstəqil Azərbaycanın ilk qadın Olimpiya çempionu: Zemfira Meftahətdinova
- Azərbaycanın ilk qadın bəstəkarı: Ağabacı Rzayeva
- Azərbaycan ilk qadın opera müğənnisi: Şövkət Məmmədova [10].

Zaman-zaman qadınlarımız cəmiyyətimizin bütün sahələrində liderlik etmiş,özündən sonrakı nəsillərə töhvələr vermişdir. Azərbaycan mədəni irsində dərin izlər buraxmışdır.

Əgər söhbət qadınlarımızın cəmiyyətdəki Lider ruhlu rolundan gedirsə, müasir zamanda təbii ki,Azərbaycan Respublikasının Birinci vitse-prezidenti (2017-ci ildən), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO-nun xoşməramlı səfiri, UNESCO-nun xoşməramlı səfiri (2004–2022)- Mehriban Arif qızı Əliyevanın (26 avqust 1964, Bakı) adını xüsusi vurğulamaq lazımdır [3]. Azərbaycanın ictimai, sosial və mədəni həyatında fəal iştirakına,cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə,həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə "The Business Year" jurnalı tərəfindən 2014-cü ilin mayında "İlin Birinci Xanımı" mükafatına layiq görülüb [4]. Müstəqil Azərbaycan Respublikasının istər siyasi, mədəni,iqtisadi, sosial həyatında əvəzsiz rol oynayan Mehriban xanım Əliyeva eyni zamanda həm zəhmətkeş ana, həm də qayğıkeş nənədir. Mehriban xanım hər zaman Azərbaycanın hərtərəfli inkişafı üçün fəal şəkildə ciddi təşəbbüslər etmışdir. Xüsusilə, ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlər həqiqətən təqdirəlayiqdir.

Müasir dövrdə Azərbaycan üçün əvəzsiz xidmətlər göstərən jurnalist, yazıçı, siyasətçi, ictimai xadim və redaktor kimi bir çox fəaliyyətlərin öhdəsindən layiqincə gələn Leyla Əliyevanın adı, ölkədə mədəniyyət, media və sosial layihələrin inkişafında mühüm rol oynayır.Leyla Əliyeva 2011-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidentidir. Leyla Əliyeva xeyriyyəçilik, təhsil, səhiyyə və digər məsələlərlə bağlı humanitar addımların təşəbbüskarlarındandır [17].

Heydər Əliyev Fondu təhsil sahəsində məktəblərin,uşaq bağçalarının və uşaq evlərinin inşa edilməsi və yenidən qurulması,orta və ali məktəblərin dərsliklərlə təmin olunması, internat məktəblərində xeyriyyə tədbirlərinin həyata keçirilməsi, səhiyyə sahəsində yeni sağlamlıq müəssisələrinin inşası və yenidən qurulması,müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin yaradılması, diabetli, talassemiyalı xəstələrə qayğı və onların müalicəsinin təşkil edilməsi,qanvermə aksiyalarının keçirilməsi, mədəniyyət sahəsində uşaq musiqi məktəblərinin inşası,bağçaların təmiri kimi böyük layihələrə imza atıb.

Heydər Əliyev Fondu daim uşaqlar və onların problemlərini diqqətdə saxlayır,xüsusən də, valideyn qayğısından məhrum olan,fiziki qüsurlu uşaqların əsl himayəçisi kimi fəaliyyət göstərir. Leyla Əliyevanın müxtəlif ictimai qurumların rəhbəri, ayrı-ayrı humanitar təşəbbüslərin müəllifi kimi Azərbaycanda və dünyada gördüyü işlər hər kəsə məlumdur. Azərbaycanın müasir gəncliyinin ən layiqli,vətənpərvər təmsilçisi kimi bu Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin 278 missiyanı üzərinə götürmüş Leyla Əliyeva Fondun Moskva filialına da yüksək səviyyədə rəhbərlik edir [5].

Azərbaycan ictimai-sosial həyatında əvəzsiz rol oynayan qadınlarımız qədimdən indiki dövrümüzə qədər mədəni irsimizdə silinməz izlər qoymuşdur və gələcəkdə də bu ənənə sözsüz davam etdiriləcəkdir. Azərbaycan xanımının mərdliyi hər zaman diqqət mərkəzində olmuşdur, öz çıxışlarıyla daim gündəmdə olan Qənirə Paşayeva (24 mart 1975,Tovuz rayonu Düz Qırıqlı– 28 sentyabr 2023, Bakı) gəlir [12].Tanınmış ictimai xadim və jurnalist,Azərbaycan Respublikası Milli Məclisinin deputatı,Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva daim öz vətənpərvərliyi,milli dövlətçiliyə sədaqəti və xalqımızın mədəni-mənəvi dəyərlərinə xüsusi ehtiramı ilə Azərbaycan cəmiyyətində böyük rəğbət qazanmışdır [13]. Maarifçilik və xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlər idi.Onun qəlbin sarı siminə toxunan şeirləri isə hələ çox illər dillərdə dolaşacaqdır. Bu cür dəyərli Azərbaycan qadının vaxtsız dünyadan köçməsi biz xalqın nümayəndələrini dərindən kədərləndirsə də, xeyirxah və səmimi insan, tanınmış ictimai xadim, Qənirə Paşayevanın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır və onun dəsti-xətti gələcək nəsillərə ilham verəcəkdir.

Azərbaycan Respublikasında qanunvericilik fəaliyyəti Milli Məclis tərəfindən həyata keçirilir. Hazırda Milli Məclisin sədri **Sahibə Əli qızı Qafarova**dır. O, 2020-ci ildən Milli Məclisin sədri və IV, V, VI çağırış deputatı kimi fəaliyyət göstərir, həmçinin TÜRKPA-nın fəaliyyətdə olan sədridir. Sahibə Qafarova filologiya elmləri doktoru və professor olmaqla yanaşı, bir sıra dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların müəllifi, eləcə də 80-dən çox elmi məqalənin müəllifidir. Hal-hazırda o, həm MDB-nin Parlamentlərarası Assambleyasında, həm də Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinə rəhbərlik edir [7].

**Nəticə:** Qadınlar təkcə ailədə deyil, həm də qlobal səviyyədə liderlik göstərərək sosial dəyişikliklərə səbəb olurlar. Onların rəhbərliyi insan hüquqları, ətraf mühit və təhsil sahələrində mühüm təsir yaradır.

Qadınların cəmiyyətdəki rolu yalnız fərdi deyil, həm də ümumi inkişafa töhfə verən bir amildir. Bu rolu gücləndirmək üçün gender bərabərliyi və qadınların dəstəklənməsi vacibdir. Nəticə olaraq, qadınların cəmiyyətdəki rolu cəmiyyətin inkişafı, ədalət və bərabərlik prinsipləri üçün əhəmiyyətlidir. Tarixən bir çox maneələrlə qarşılaşmalarına

baxmayaraq, qadınlar təhsil, iqtisadiyyat, siyasət və mədəniyyət sahələrində böyük irəliləyişlər əldə etmişlər.

Müasir dünyada qadınların güclənməsi yalnız onların fərdi hüquqlarını deyil, həm də ümumilikdə cəmiyyətin rifahını artırır. Qadınların qərar qəbul etmə proseslərində,liderlik mövqelərində və sosial inkişafda aktiv iştirakı daha inklüziv,ədalətli və firavan bir gələcəyin formalaşdırılmasına töhfə verir.

Bununla yanaşı,gender bərabərsizliyinin aradan qaldırılması, stereotiplərin dağıdılması və qadınların dəstəklənməsi üçün davamlı səylər göstərilməlidir.Qadınların potensialını tam reallaşdırması cəmiyyətin sosial,iqtisadi və mədəni irəliləyişi üçün mühüm bir açardır.

Beləliklə, qadınların rolunun dəyərləndirilməsi və genişləndirilməsi hər bir fərdin və qurumun ortaq məsuliyyətidir.

## ƏDƏBİYYAT

1. Abbasov, H. (2018). *Azərbaycan qadınının sosial rolu və statusu*. Maarif Nəşriyyatı.
2. Fərhadova, Z. (2020). *Xan qızı Natəvan: Həyatı və irsi*. Bakı Kitab Klubu.
3. Heydər Əliyev Fondu. (2023). *Fəaliyyət hesabatı və liderlik proqramları*.
4. Heydər Əliyev Fondu. (2017). *Xeyirxahlıq missiyası: Mehriban Əliyevanın fəaliyyəti*. Bakı.
5. Heydər Əliyev Fondu. (2022). *Fəaliyyət Hesabatı (2011-2021)* . Rəsmi Nəşr.
6. Herodot. (2023). *Tarix* (X. Əliyev, tərc.).
7. Həsənov, K. (2021). *Azərbaycan Parlamenti: Qadınlar və siyasət*. Məhəmməd Əsədov Fondu.
8. Kitabi-Dədə Qorqud. (2018). *Oğuznamələrin tam mətni* (F. Zeynalov, tərt.). Yazıçı Nəşriyyatı.
9. Məmmədova, S. (2021). *Azərbaycanın lider qadınları: Bioqrafik ensiklopediya*.
10. Millikimlik.az. (n.d.). *İlklərə imza atmış Azərbaycan xanımları*. https://millikimlik.az/ilkl%C9%99r%C9%99-imza-atm%C4%B1%C5%9F-az%C9%99rbaycan-xan%C4%B1mlar%C4%B1/
11. Qasımlı, M. (2019). *Ağqoyunlu dövlətinin tarixi*. Şərq-Qərb Nəşriyyatı.
12. Quliyev, E. (2024). *Liderlik və Vətənpərvərlik: Qənirə Paşayevanın Ömür Yolu*
13. Sadıqov, E. (2024). *Qənirə Paşayeva: Vətənpərvərlik missiyası*.
14. Şuşa Dövlət Qoruğu İdarəsi. (n.d.). *Xurşidbanu Natəvan*. http://shusha.gov.az/az/sexsiyyet/xursidbanu-natevan-1832-1897
15. Tağıyev, F. (2015). *Hacı Zeynalabdin Tağıyev: Həyatı və xeyriyyəçiliyi*. Qanun Nəşriyyatı.
16. Türk Dünyası. (n.d.). *Massaget hökmdarı Tomris Xatun kimdir?* https://turkic.world/az/articles/massaget-hokmdari-tomris-xatun-kimdir-55444
17. *Leyla Əliyevin şəxsi veb-saytı* . Leyla Əliyevin rəsmi veb-saytı.https://leyla-aliyeva.az/

# QADINLARIN CƏMİYYƏTDƏ, SİYASƏTDƏ, İŞ DÜNYASINDA VƏ DİGƏR SAHƏLƏRDƏ LİDER OLARAQ ROLU (Azərbaycan nümunəsi)

***Hüseynli Aliyə***

## XÜLASƏ

Azərbaycan qadınları tarixin müxtəlif dövrlərində öz fəallıqları, cəmiyyətə verdikləri töhfələr və mübarizə ruhu ilə seçilmişdir. Onların ictimai, mədəni və siyasi həyatda iştirakı ölkənin inkişafında mühüm rol oynamışdır. Bununla bərabər Azərbaycan qadınları ailə, məişət və cəmiyyət həyatında mühüm yer tutmuşdur.Azərbaycan dövləti hər zaman qadınların hüquqlarının qorunması istiqamətində nümunə göstərib və göstərməkdə davam edir. Şərqdə qadınlara seçki hüququ ilk dəfə məhz bizim ölkədə verilib.Bu tarixi sənədin özü belə bir daha Azərbaycan xanımının milli dəyərlərindən,oxuyub-yazmağa,elm və təhsilə,dovlətin siyasi,mədəni, ictimai işlərində yaxından iştirakına əsaslı sübutdur.

# РОЛЬ ЖЕНЩИН КАК ЛИДЕРОВ В ОБЩЕСТВЕ, ПОЛИТИКЕ, БИЗНЕСЕ И ДРУГИХ СФЕРАХ

***Гусейнли Алия***

## АННОТАЦИЯ

Азербайджанские женщины на протяжении истории играли значительную роль в обществе, внося вклад в социальную, культурную и политическую жизнь, а также занимая важное место в семейной и общественной сфере.

Азербайджан всегда был пионером в защите прав женщин. В частности, это была первая страна на Востоке, предоставившая женщинам избирательное право.Это историческое достижение подчеркивает стремление азербайджанских женщин к образованию и их активное участие в политической, культурной и общественной жизни.

# THE ROLE OF WOMEN AS LEADERS IN SOCIETY, POLITICS, BUSINESS, AND OTHER FIELDS

***Huseynli Aliya***

## SUMMARY

Azerbaijani women have played a significant role in society throughout history, contributing to social, cultural, and political life while maintaining a strong presence in family and community affairs.Azerbaijan has been a pioneer in protecting women's rights. Notably, it was the first country in the East to grant women the right to vote. This historic achievement highlights Azerbaijani women's commitment to education and their active participation in political,cultural,and social affairs.

## PSİXOLOGİYA, PEDAQOGİKA

# MÜASİR TƏHSİL MÜHİTİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ŞAGİRDLƏRDƏ İDRAK POTENSİALININ İNKİŞAFINA TƏSİRİ

***Cəbizadə Arzu İrazim qızı***
***BDU-nun II kurs magistrantı***
***cebizadearzu43@gmail.com***

***Açar sözlər:*** müəllim-şagird münasibətləri; idrak potensialı; idrak bacarıqları; əməkdaşlıq; inkişaf.
***Ключевые слова:*** отношения «учитель-ученик»; познавательный потенциал; познавательные навыки; сотрудничество; развитие.
***Keywords:*** teacher-student relationships; cognitive potential; cognitive skills; collaboration; development.

**Giriş.** Məktəblərin qarşısında duran başlıca məsələlərdən biri şagirdlərin təlimə yaradıcı yanaşma prosesini həyata keçirməkdir. Sinif otağında ənənəvi olaraq müəllim danışır, şagird isə onu dinləyir. Uzun illərdir təhsil prosesinin mərkəzində müəllimin dayanması belə bir təkqütblü ünsiyyət modeli formalaşdırmışdır. Müəllim biliyi ötürən tərəf, şagird isə onu qəbul edən tərəf kimi görünmüşdür. Müasir dövrdə bu münasibətlərin eyni formada yaşaması diqqət çəkən məsələ kimi gündəmdə dayanmışdır. Müasir informasiya cəmiyyətində şagirdlər daha fəal, müəllimlər isə daha çevik olmağa başlayıbmı? Hazırda müəllim yalnız bilik mənbəyi deyil, eyni zamanda yönləndirici bir mentordur – bu rol dəyişimi şagirdlə müəllim arasındakı münasibətləri necə təsir edir? Bu suallar tədqiqatın diqqət mərkəzində dayanmışdır.

Təhsil sahəsində islahatlar şagirdlərin düşünmə qabiliyyətlərinin inkişafını prioritet hədəf kimi müəyyən etmişdir. Lakin çox halda bəzi şagirdlər öz idrak potensiallarını tam göstərməkdə çətinlik çəkirlər. Bu fikrin səbəbi çox vaxt müəllim-şagird münasibətlərinin xarakterində gizlənir. İdrak prosesi şagirdin anlama, tətbiq etmə, analiz və yaradıcılıq kimi intellektual bacarıqlarının inkişaf etdirilməsi ilə sıx bağlıdır. Belə potensialın üzə çıxarılması üçün təlim mühitində psixoloji rahatlıq və stimullaşdırıcı əməkdaşlıq ab-havası tələb olunur. Əgər şagird müəllimini etibarlı bir bələdçi kimi görürsə, o, sual verməkdən və sərbəst düşünməkdən çəkinmir. Deməli, müəllimin şagirdə yanaşma tərzi onun nə dərəcədə aktiv və yaradıcı olacağını müəyyən edə bilir.

Müəllim-şagird münasibətləri şagirdin zehni inkişafında böyük əhəmiyyətə malikdir. Cəmiyyətin intellektual tələbləri artdıqca, məktəbdə təkcə kurikulumun məzmunu deyil, həm də insan amili – müəllimlə şagird arasındakı ünsiyyətin keyfiyyəti həlledici faktor kimi çıxış edir ki, bu da aktual məsələ kimi gündəmdə dayanır.

Müxtəlif pedaqoji nəzəriyyələr müəllim-şagird ünsiyyətinin təlim prosesindəki rolunu fərqli cəhətlərdən izah edir. Problemlə birgə ədəbiyyatlarda yeni yanaşmalar özünü təzahür etdirir. Belə ki, L.S. Vıqotskinin sosiomədəni inkişaf nəzəriyyəsinə əsasən uşaq "yaxın inkişaf zonası" daxilində daha bacarıqlı müəllimin köməyi ilə çətin tapşırıqları mənimsəyə bilir [6, s.58]. Bu yanaşmaya görə, müəllim bilikləri sadəcə təqdim edən şəxs deyil, şagirdə öz potensialına çatmaqda dəstək olan istiqamətverici tərəfdir. Humanist pedaqogika isə müəllimlə şagird arasında qarşılıqlı hörmət və anlayışın əhəmiyyətini ön plana çəkir. Müəllimin empatiyası və müsbət münasibəti şagirdin yalnız şəxsiyyət kimi formalaşmasına deyil, eyni zamanda idrak fəallığına da müsbət təsir göstərir.

Ənənəvi təhsil modelində müəllim avtoritar mövqedə dayanırdısa, müasir dövrdə əməkdaşlıq və demokratik ünsiyyət əsas prinsip kimi qəbul edilir. Tədqiqatçılar qeyd

edirlər ki, klassik pedaqogikanın imkanları indiki dövrdə məhdud görünür və yeniyetmələrin müasir ehtiyaclarına cavab vermir. Müəllim-şagird münasibətlərinin demokratik əsasda qurulması və şagirdin müstəqil fikirləşə bilməsi üçün şərait yaradılması zərurətə çevrilib [4, s.47].

Bu istiqamətdə aparılan elmi tədqiqatlar müəllim və şagird əlaqəsinin təhsil nəticələrinə birbaşa təsirini üzə çıxarmışdır. Araşdırmalar göstərir ki, müəllimi ilə yaxın və səmimi ünsiyyəti olan şagirdlər dərs prosesində daha fəal iştirak edir və daha yüksək nailiyyət göstərirlər. Araşdırmalar həm də onu göstərir ki, ibtidai sinifdə müəllimi ilə konflikti yaşayan uşaqların sonrakı illərdə akademik göstəriciləri zəifləyir [2, s.630]. Digər genişmiqyaslı işlər də bu qənaəti təsdiqləyir. 88 minə yaxın şagirdin məlumatlarını təhlil edən meta-analizin nəticəsinə görə, müəllimlə müsbət münasibəti olan şagirdlərin dərsə cəlb olunması və nailiyyət səviyyəsi statistik olaraq əhəmiyyətli dərəcədə yüksəlir [5, s.501]. Ümumiyyətlə, şagirdyönümlü müəllim-şagird münasibətlərinin səmərəliliyi barədə aparılan başqa bir icmal tədqiqat da belə münasibətlərin şagirdlərin akademik nəticələrini yaxşılaşdırdığını ortaya qoymuşdur [1, s.118].

Araşdırmalardan həm də aydın oldu ki, yerli mütəxəssislər də müəllimlə şagird arasındakı ünsiyyətin idrak proseslərinə təsirinə xüsusilə diqqət göstərirlər. İ.İbrahimovanın fikrincə, pedaqoji ünsiyyət uşaqlarda təkcə sosial-emosional deyil, eyni zamanda idraki sferanın inkişafına kömək edir [3]. Beləliklə, həm nəzəri yanaşmalar, həm də empirik araşdırmalar eyni nəticəni vurğulayır: müəllim-şagird münasibətlərinin keyfiyyətli olması şagirdlərin zehni inkişafına güclü təkan verir. Bununla belə, bu münasibətin konkret təzahür formalarının və şagird idrakına təsir mexanizmlərinin nədən ibarət olması diqqətə layiq haldır.

Nəzəri və empirik əsaslar göstərir ki, müəllim-şagird münasibətlərinin mahiyyəti dəyişdikcə şagirdlərin öyrənmə fəaliyyəti də dəyişir. Ənənəvi avtoritar üslubdan fərqli olaraq müasir dövrdə daha demokratik və əməkdaşlığa əsaslanan ünsiyyət modelinə keçid baş vermişdir. Pedaqoji ədəbiyyatlara əsaslanaraq, Cədvəl 1-də ənənəvi və müasir yanaşmanın bəzi fərqli cəhətləri ümumiləşdirilmişdir.

**Cədvəl 1. Ənənəvi və müasir müəllim-şagird münasibətlərinin müqayisəsi**

| **Müqayisə meyarı** | **Ənənəvi münasibət** | **Müasir (əməkdaşlıq əsaslı) münasibət** |
|---|---|---|
| Müəllimin rolu | Avtoritar rəhbər, təkbaşına qərar verən. Tələbkarlıq və intizam ön planda. | Rəhbərdən çox bələdçi, fasilitator. Qarşılıqlı anlaşma və dəstək göstərən. |
| Şagirdin rolu | Passiv dinləyici, məlumatı əzbərləyən. Müəllimdən asılı. | Fəal iştirakçı, fikir bildirən, tənqidi düşünən. Müstəqil öyrənən subyekt. |
| Ünsiyyət xarakteri | Təkxətli (müəllim danışır, şagird dinləyir). Sual-cavab məhdud. | İkitərəfli dialoq, açıq müzakirə. Şagirdlərin sual verməsi təşviq edilir. |
| Təlim metodu | Ənənəvi mühazirə və əzbərlətmə. Şagird yaradıcılığı az təşviq olunur. | Fəal öyrənmə, qrup işi, problem həlli. Şagirdlərin yaradıcı fəaliyyəti dəstəklənir. |

Cədvəldən göründüyü kimi, ənənəvi tədrisdə müəllim mərkəzli münasibətlər hakim olduğu halda, müasir yanaşma şagird mərkəzliyini təmin edir. Demək, müasir müəllim-şagird münasibəti biliklərin sadəcə ötürülməsi deyil, birgə yaradılması prosesidir.
Müəllim-şagird münasibətlərinin bu cür transformasiyası şagirdlərin idrak nəticələrinə də əhəmiyyətli təsir göstərir. Bir sıra tədqiqatların nəticələri bu fikri təsdiqləyir. Araşdırmalar əsasında müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə və idrak

göstəricilərinə təsiri müəyyənləşdirilərək, cədvəl əsasında ümumiləşdirilir (müxtəlif ölkələrin tədqiqat nümunələri əsasında).

**Cədvəl 2. Müəllim-şagird münasibətlərinin şagird nailiyyətlərinə təsirinə dair araşdırma nümunələri**

| Mənbə (il) | Tədqiqatın miqyası | Əsas nəticə |
|---|---|---|
| Hamre B., Pianta R. (2001) | 179 şagird, ibtidai sinifdən 8-ci sinfə qədər uzunlamasına tədqiqat (ABŞ) | İbtidai sinifdə müəllimlə konflikt yaşamış şagirdlərin 8-ci sinifdə akademik göstəricilərinin daha aşağı olduğu müşahidə edilmişdir. |
| Roorda D. və dig. (2011) | Meta-analiz, 99 tədqiqat (88 min şagird, müxtəlif ölkələr) | Müəllimlə müsbət emosional münasibətə malik şagirdlərin dərsə cəlb olunma səviyyəsi və akademik nailiyyətləri statistik olaraq əhəmiyyətli dərəcədə yüksəkdir. |
| Cornelius-White J. (2007) | Meta-analiz, 119 tədqiqat (ümumi icmal) | Şagirdyönümlü, əməkdaşlıq əsaslı müəllim davranışlarının tətbiq edildiyi siniflərdə şagirdlərin akademik nəticələrinin nəzərəçarpacaq dərəcədə yaxşılaşdığı müəyyən edilmişdir. |

Cədvəldəki məlumatlar göstərir ki, müəllim-şagird münasibətlərinin səviyyəsi birbaşa şagirdlərin təhsil göstəricilərinə təsir edir.

Mövcud araşdırmalar fonunda belə bir suala cavab axtarmaq zərurəti yaranır: müəllim-şagird münasibətinin konkret hansı cəhətləri şagirdlərin idrak potensialını gücləndirə bilər? Bu suala cavab tapmaq məqsədi ilə müəllim-şagird münasibətlərinin şagirdlərin idrak potensialına təsirini sistemli şəkildə dəyərləndirmək lazım bilindi. Belə ki, əldə olunmuş elmi bilikləri ümumiləşdirərməklə həmin münasibətin komponentlərinin şagirdlərin zehni inkişafında həlledici rol oynadığını müəyyən etmək gündəmə gəldi. Şagirdlərin idrak potensialının üzə çıxmasına müsbət təsir edən müəllim-şagird münasibəti əks etdirən əsas amillər cədvəl şəklində ümumiləşdirildi.

**Cədvəl 3. Şagirdlərin idrak potensialının inkişafını dəstəkləyən müəllim-şagird münasibəti amilləri**

| Əsas amillər | Məzmunu və idrak inkişafına təsiri |
|---|---|
| **Güvən və hörmət mühiti** | Şagird özünü sinifdə təhlükəsiz hiss edir, müəllimə güvənir. Səhv etməyə görə danlanmaq qorxusu olmadığı üçün şagird sual verməkdən və sərbəst düşüncələrini ifadə etməkdən çəkinmir. Bu, tənqidi və yaradıcı təfəkkürün inkişafına şərait yaradır. |
| **Fəal dinləmə və dialoq** | Müəllim şagirdin fikirlərini diqqətlə dinləyir, ona dəyər verdiyini göstərir. Şagirdin söylədikləri barədə əlavə suallar verir. Belə dialoq şagirdin öz fikirlərini dərinləşdirməsinə, anlayışını möhkəmlətməsinə imkan verir və idrak fəallığını artırır. |
| **Fərdi yanaşma və dəstək** | Müəllim hər bir şagirdin fərdi xüsusiyyətlərini, qabiliyyət və çətinliklərini nəzərə alır. Tapşırıqları şagirdin "yaxın inkişaf zonası"na uyğun şəkildə tənzimləyir. Nəticədə hər bir şagird öz sürəti ilə inkişaf edir, idrak bacarıqlarını optimal səviyyədə reallaşdıra bilir. |
| **Həvəsləndirmə və müsbət rəy** | Müəllim şagirdlərin nailiyyətlərini vaxtında qeyd edir, kiçik də olsa uğurlarını tərifləyir və konstruktiv rəylər verir. Bu, şagirdin özünəinamını artırır, onu yeni bilikləri öyrənməyə motivasiya edir. Özünü dəyərli hiss edən şagird daha aktiv və maraqla iştirak edir. |

Cədvəldən göründüyü kimi, səmərəli müəllim-şagird münasibəti bir neçə vacib komponent üzərində qurulur. Sadalanan amillərin hər biri şagirdlərin idrak potensialının inkişafına töhfə verir.

Aparılan təhlillər əsasında belə nəticəyə gəlmək olar ki, müasir təhsil mühitində müəllim-şagird münasibətlərinin keyfiyyətinin yüksəldilməsi şagirdlərin idrak potensialının tam gerçəkləşməsi üçün əsas şərtlərdən biridir. Müəllimlə şagird arasında güvənə əsaslanan, əməkdaşlıq ruhlu ünsiyyət formalaşdırmaq şagirdlərin həm bilik və bacarıqları mənimsəməsinə, həm də yaradıcı və tənqidi düşünmə qabiliyyətlərinin inkişafına müsbət təsir edir. Başqa sözlə, müəllimin rəftarı və yanaşması dəyişdikcə şagirdin öyrənməyə münasibəti və nəticələri də paralel olaraq yaxşılaşır.

Aparılan araşdırmalara əsaslanaraq, bəzi təklifləri irəli sürmək zərurəti yaranır:

**Müəllimlərin kommunikativ bacarıqlarının inkişafı.** Müəllimlər üçün təşkil olunan ixtisasartırma təlimlərində pedaqoji ünsiyyət, sinif idarəetməsi və şagird psixologiyası mövzularına xüsusi diqqət ayrılmalıdır. Təcrübəli pedaqoqlar öz bilik-bacarıqlarını yeniləməli, şagirdlə effektiv ünsiyyət qurma strategiyalarını öyrənməlidirlər.

**Məktəbdə müsbət mühitin yaradılması.** Məktəb rəhbərliyi və müəllim kollektivi birlikdə elə bir mühit formalaşdırmalıdır ki, həm müəllimlər, həm də şagirdlər özlərini təhlükəsiz və dəyərli hiss etsinlər. Müəllimlər arasında həmrəylik və hörmət, şagirdlərə qarşı isə mehriban və həssas yanaşma məktəbin norma və dəyərlərinə çevrilməlidir. Psixoloji xidmətlər və məktəbdaxili nəzarət mexanizmləri vasitəsilə müəllim-şagird münasibətlərində problem yaradan halların qarşısı vaxtında alınmalıdır.

**Fəal və interaktiv təlim metodlarının tətbiqi.** Şagirdlərin dərs prosesinə fəal cəlb olunduğu metodlardan geniş istifadə olunması tövsiyə edilir. Qrup işi, müzakirə, debat, rol canlandırma kimi interaktiv üsullar müəllimlə şagird arasında əməkdaşlıq əlaqələrini gücləndirir. Belə dərslərdə şagirdlər həm də bilik yaradıcıları kimi çıxış edirlər ki, bu da onların idrak fəallığını əhəmiyyətli dərəcədə artırır.

Yekun olaraq qeyd etmək olar ki, müəllim-şagird münasibətlərinin humanist əsaslar üzərində qurulması XXI əsr təhsilinin prioritetlərindəndir. Şagirdlərin idrak potensialını üzə çıxarmaq üçün məktəbdə qarşılıqlı inam və əməkdaşlıq mühiti hökm sürməlidir. Bu istiqamətdə atılan addımlar gələcəyin yaradıcı, tənqidi düşüncəli və özünəinamlı vətəndaşlarını yetişdirməyə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT


1. Cornelius-White J. (2007). Learner-centered teacher-student relationships are effective: A meta-analysis. Review of Educational Research, 77(1), p.113-143.
2. Hamre B.K., & Pianta R.C. (2001). Early teacher–child relationships and the trajectory of children's school outcomes through eighth grade. Child Development, 72(2), 625-638.
3. İbrahimova İ. Müasir təlimdə müəllim-şagird münasibətləri. Azərbaycan müəllimi qəzeti, 2024, 30 sentyabr.
4. Məmmədova S. (2023). Müəllim-şagird əməkdaşlığında şagirdlərin müstəqillik qabiliyyətlərinin inkişaf etdirilməsi. Azərbaycan Məktəbi, 2023(2), s.45-52.
5. Roorda D.L., Koomen H.M.Y., Spilt J.L., & Oort F.J. (2011). The influence of affective teacher–student relationships on students' school engagement and achievement: A meta-analytic approach. Review of Educational Research, 81(4), p.493-529.
6. Vygotsky L.S. (1978). Mind in society: The development of higher psychological processes. Cambridge, MA: Harvard University Press, 252 p.

# MÜASİR TƏHSİL MÜHİTİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ŞAGİRDLƏRDƏ İDRAK POTENSİALININ İNKİŞAFINA TƏSİRİ

*Cəbizadə Arzu*

## XÜLASƏ

Müəllim-şagird münasibətlərinin təhsil prosesində rolu məsələsində müasir dövrdə yeni yanaşmalar özünü göstərir. Şagirdin intellektual qabiliyyətlərinin tam və səmərəli inkişaf imkanı idrak prosesinə bağlıdır. Bu potensialın reallaşması tənqidi düşüncə, problem həlli və yaradıcılıq kimi ali idrak bacarıqlarının formalaşmasını tələb edir. Şagirdlərin idrak potensialının tam inkişafı üçün müəllim və şagird arasında əməkdaşlığa əsaslanan pozitiv ünsiyyətin xüsusi əhəmiyyət daşıdığı vurğulanır. Azərbaycanda son illərdə həyata keçirilən kurikulum islahatları da tədrisdə şagirdyönümlü mühitin yaradılmasına və müəllim-şagird dialoqunun gücləndirilməsinə istiqamətlənmişdir. Bu məqalədə müəllim-şagird münasibətlərinin şagirdlərin idrak fəaliyyətinə təsiri mövcud elmi ədəbiyyat əsasında təhlil edilmişdir. Fərqli pedaqoji yanaşmalar (klassik və müasir əməkdaşlıq) müqayisə olunaraq, pozitiv münasibətlərin şagirdlərin idrak bacarıqlarının inkişafına necə təkan verdiyi araşdırılmışdır. Müəllim-şagird münasibətlərinin məhz idrak potensialının inkişafına təsirinin kompleks şəkildə nəzərdən keçirilməsi, əldə olunan nəticələr əsasında təhsil praktikasına dair konkret təkliflərin verilməsi tədqiqatın elmi yeniliyini təcəssüm etdirir.

# ВЛИЯНИЕ ОТНОШЕНИЙ «УЧИТЕЛЬ-УЧЕНИК» НА РАЗВИТИЕ ПОЗНАВАТЕЛЬНОГО ПОТЕНЦИАЛА УЧАЩИХСЯ В СОВРЕМЕННОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

*Джабизаде Арзу*

## АННОТАЦИЯ

В современный период наблюдаются новые подходы к роли отношений между учителем и учеником в образовательном процессе. Полное и эффективное развитие интеллектуальных способностей учащегося зависит от познавательной активности. Реализация этого потенциала требует формирования высших познавательных навыков — критического мышления, решения проблем и творческого подхода. Подчёркивается, что для полноценного развития познавательного потенциала учащихся необходимо позитивное и основанное на сотрудничестве взаимодействие между учителем и учеником. В последние годы в Азербайджане проводимые реформы учебных программ направлены на создание ориентированной на ученика образовательной среды и укрепление диалога между учителем и учеником. В статье анализируется влияние отношений «учитель-ученик» на познавательную деятельность учащихся на основе существующей научной литературы. Сопоставлены различные педагогические подходы (классические и современные, основанные на сотрудничестве), исследовано, каким образом позитивные отношения способствуют развитию познавательных умений учащихся. Комплексное рассмотрение влияния отношений «учитель-ученик» на развитие познавательного потенциала и выработка конкретных предложений для образовательной практики на основе полученных результатов отражают научную новизну исследования.

# THE IMPACT OF TEACHER-STUDENT RELATIONSHIPS ON THE DEVELOPMENT OF STUDENTS' COGNITIVE POTENTIAL IN THE MODERN EDUCATIONAL ENVIRONMENT

***Jabizade Arzu***

## ABSTRACT

In the modern era, new approaches are emerging regarding the role of teacher-student relationships in the educational process. The full and effective development of a student's intellectual abilities depends on the cognitive process. The realization of this potential requires the formation of higher-order cognitive skills such as critical thinking, problem-solving, and creativity. It is emphasized that for the complete development of students' cognitive potential, collaborative and positive communication between teacher and student is essential. In recent years, curriculum reforms implemented in Azerbaijan have been directed toward creating a learner-centered educational environment and strengthening teacher-student dialogue. This article analyzes the impact of teacher-student relationships on students' cognitive activity based on existing scientific literature. Different pedagogical approaches (classical and modern collaborative) are compared, and how positive relationships stimulate the development of students' cognitive skills is examined. A comprehensive analysis of the influence of teacher-student relationships on the development of cognitive potential and the provision of specific recommendations for educational practice based on the obtained results reflect the scientific novelty of the study.

# MÜASİR İNKLÜZİV TƏHSİL MÜHİTİNDƏ AUTİZMLİ UŞAQLARIN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Qələndərli Nuranə Adıgözəl qızı*
***BDU-nun II kurs magistrantı***
***nrnbsrll@gmail.com***

**Açar sözlər:** autizm spektr pozuntusu, inklüziv təhsil, sosial inkişaf, akademik inkişaf, fərdi təhsil planı, ailə-məktəb əməkdaşlığı.
**Keywords:** autism spectrum disorder, inclusive education, social development, academic development, individualized education plan, family-school collaboration.
**Ключевые слова:** расстройство аутистического спектра, инклюзивное образование, социальное развитие, академическое развитие, индивидуальный образовательный план, семейно-школьное формирование.

Müasir dövrdə cəmiyyətin inkişafı və humanist dəyərlərin güclənməsi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüquqlarının təmin edilməsini əsas məsələyə çevirmişdir. Onların sosial həyata inteqrasiyası, gələcəkdə müstəqil fərd kimi formalaşması və akademik bacarıqlarının inkişafı üçün inklüziv təhsil mühitinin yaradılması vacib bir hala çevrilir.

Autizm Spektr Pozuntusu, (ASP) uşaqların başqaları ilə qarşılıqlı əlaqəsinə, ünsiyyətinə, öyrənməsinə və davranışa təsir edən neyroinkişaf fərqliliyidir [2]. Bu xüsusiyyətlər bir çox hallarda onların ənənəvi sinif mühitində çətinliklərlə qarşılaşmasına səbəb olur. Bu səbəbdən, onların təlim-tərbiyə prosesinə adaptasiyası üçün xüsusi yanaşma tələb olunur. Sosial və ünsiyyət bacarıqlarının ləngiməsi kimi problemlər ASP olan şagirdlərin sinifdə gözlənildiyi kimi iştirakını çətinləşdirə bilir. Məsələn, müəllimin suallarına cavab vermək, yazılı tapşırıqların işlənməsi və ya qrup fəaliyyəti zaman bu şagirdlər çətinlik çəkirlər. Nəticədə isə bu şagirdlər akademik bacarıqlara təsir edə biləcək bir sıra çətinliklərlə qarşılaşa bilirlər.

ASP olan uşaqların təhsili üçün effektiv təcrübələrə münasibət inkişaf etdikcə, inklüziv təhsil əlilliyi olan şagirdlərin uğurlu təhsilinin ayrılmaz hissəsi kimi müəyyən edilmişdir. İnklüziv təhsil qəbul edir ki, bütün uşaqların, o cümlədən ASP kimi xüsusi təhsil ehtiyacları olan uşaqların ümumi təhsil sinfində təhsil almaq hüququ var. Bu hüquqlar müəyyən qlobal təşəbbüs və bəyannamələrə, o cümlədən inklüziv təhsili vurğulayan Salamanka Bəyannaməsinə daxil edilmişdir.

Salamanka Bəyannaməsinə əsasən, xüsusi təhsil ehtiyacları və əlilliyi olan uşaqlar müxtəlif təhsil ehtiyaclarını ödəmək üçün ümumtəhsil məktəblərində inklüziv təhsilə çıxış əldə etməlidirlər [9]. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının "Əlillərin Hüquqları Konvensiyası, Maddə 24" əlilliyi olan insanların effektiv təhsilə nail olmaq üçün lazım olan dəstəyi almalı olduğunu, akademik və sosial inkişafı, eləcə də Birləşmiş Millətlər Təşkilatının tələbləri kimi, effektiv fərdi dəstəyin təmin edilməsini nəzərdə tutur. Onlar qeyd edirlər ki, "Həssas vəziyyətdə olan insanlar, o cümlədən əlillər bütün səviyyələrdə təhsil və peşə hazırlığına bərabər çıxış əldə etməlidirlər." [2]

Eynilə, Azərbaycan Respublikasında da əlillərin hüquqlarının öz sərhədləri daxilində qorunmasını təmin etmək üçün qanunlar qəbul edilmişdir. Bunlardan Azərbaycan Respublikasının "2008-ci il tarixli Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunu tez-tez əlilliyi olan şagirdlərin məktəbdə müvəffəqiyyət qazanmasını təmin etmək üçün atılacaq addımlarla bağlı bələdçi kimi göstərilir [5]. Bu növ qanunvericilik ümumiyyətlə Fərdi Təhsil Planı tələbini ehtiva edir. Bu cür planlar, xüsusən də ASP olan şagirdlərə dəstək

olmaq, hər bir şagirdin şəxsi ehtiyacları və güclü tərəfləri haqqında dəqiq məlumat əldə etməklə müvafiq addımların atılması üçün lazımdır.

Onu da qeyd etmək lazımdır ki, sağlamlıq imkanları məhdud uşaqlar üçün ilk öncə psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən bir ay müddətində müayinə keçirilir və uşağın məhdudiyyətlərinə və imkanlarına əsaslanaraq təhsilinin təşkilinə dair qərar qəbul edilir. Qərar, müayinə sənədlərinin surəti və komissiyanın uşağın inkişafının qiymətləndirməsinin nəticələri onun təhsil alacağı təhsil müəssisəsinə göndərilir.

Son illərdə aparılan araşdırmalara görə beynəlxalq təcrübə göstərir ki, autizmli uşaqlar üçün inklüziv təhsil modeli həm sosial inteqrasiyanın güclənməsinə, həm də akademik nailiyyətlərin artmasına səbəb olur. Azərbaycan Respublikasında da təhsil sistemində inklüzivlik prinsiplərinin tətbiqi genişlənməkdədir və bu istiqamətdə dövlət proqramları, qanunvericilik aktları, müəllim hazırlığına dair tədbirlər həyata keçirilir.

Autizmli uşaqların özünəməxsus xüsusiyyətləri onların təhsilə cəlb olunmasını çətinləşdirə bilir. Məsələn, ASP olan uşaqların əsas xüsusiyyətlərindən biri məhz ünsiyyət bacarıqlarının məhdudluğudur. Bəzi uşaqlar danışıq zamanı çətinlik çəkir, digərləri isə sözlərdən istifadə etsələr də, onları sosial münasibətlərdə uyğun şəkildə istifadə etməkdə problem yaşayırlar. Bu hal isə müəllim və şagirdlər arasında qarşılıqlı anlaşmanı çətinləşdirə bilir.

İkinci mühüm məqam isə sosial münasibətlərin qurulmasında yaranan çətinliklərdir. Autizmli uşaqlar həmyaşıdları ilə oyunlara qoşulmaqda, dostluq münasibətləri qurmaqda və kollektiv fəaliyyətlərdə iştirak etməkdə çətinlik çəkirlər. Bu isə onların sinif mühitində təcrid olunmasına gətirib çıxara bilir.

Təhsil prosesində diqqət çəkən başqa bir xüsusiyyət öyrənmə müddətində olan fərqliliklərdir. Bəzi uşaqlar vizual materialları daha tez mənimsəyir, bəziləri isə təkrara və əlavə izaha ehtiyac duyurlar. Buna görə də müəllimlərin hər bir şagird, xüsusilə də autizmli şagirdlər üçün fərdi yanaşma göstərməsi xüsusi əhəmiyyət daşıyır.

Autizmli uşaqların davranışda da özünəməxsusluqlar müşahidə olunur. Təkrarlayıcı hərəkətlər, müəyyən mövzulara və ya əşyalara həddən artıq diqqət göstərmək, gündəlik davamlı fəaliyyətlərinə həssas yanaşmaq kimi fərqliliklərin təlim prosesində nəzərə alınması vacib məqamlardan biridir. Bu davranışların düzgün idarə olunması, həmçinin müəllimin səbrli və anlayışlı münasibəti tədris prosesinin uğuruna birbaşa təsir edir.

ASP olan uşaqların təhsil mühitində fərqlilikləri onların zəif tərəfləri kimi deyil, fərqli öyrənmə xüsusiyyətləri kimi qəbul edilməlidir. Müəllimlərin, valideynlərin və məktəb rəhbərliyinin birgə səyləri nəticəsində bu uşaqların potensial imkanlarını üzə çıxarmaq və onları cəmiyyətə adaptasiya etmək mümkündür.

İnklüziv təhsil anlayışı BMT-nin Uşaq Hüquqları Konvensiyası və UNESCO-nun qəbul etdiyi beynəlxalq sənədlərdə xüsusi vurğulanan, hər bir uşağın bərabər təhsil hüququna əsaslanan bir yanaşmadır. Bu model sağlam və xüsusi qayğıya ehtiyacı olan uşaqları birgə təhsil mühitində birləşdirir, sosial bərabərliyi təşviq edir və təhsildə ayrıseçkiliyin qarşısını alır [70].

Autizmli uşaqlar üçün inklüziv təhsil mühiti onların inkişafına bir neçə istiqamətdə təsir göstərir. Əvvəla, belə mühitdə uşaqlar həmyaşıdları ilə ünsiyyət qurma imkanı əldə edir, sosial bacarıqlarını praktik mühitdə tətbiq etməyi öyrənirlər. Bu, onların cəmiyyətdə daha asan inteqrasiya olunmasına şərait yaradır. İkincisi, inklüziv siniflərdə müəllimlər fərqli təlim strategiyalarından istifadə edərək hər bir uşağın öyrənmə tərzlərini və bacarıqlarını nəzərə almağa çalışırlar. Bu isə autizmli uşaqların akademik uğur qazanması yolunda mühüm addımlardan biridir.

Azərbaycanda inklüziv təhsil sahəsi son illərdə dövlət proqramları və beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində genişlənməyə başlamışdır. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və UNICEF-in həyata keçirdiyi layihələr çərçivəsində məktəblərdə inklüziv siniflər yaradılır, müəllimlər xüsusi təlimlərə cəlb edilir. Bununla yanaşı, təcrübə

göstərir ki, müəllim hazırlığı, metodik vəsaitlərin çatışmazlığı, cəmiyyətin bəzi stereotipləri hələ də qarşıda duran əsas çətinliklərdir. Bu çətinliklərin həll olunması üçün məktəblərdə bu sahədə hal-hazırda maarifləndirici tədbirlərin təşkili, müəllimlərin tam hazırlığı üçün təlimlər və s. kimi bir çox işlər aparılır [56].

Müasir inklüziv təhsilin əsas üstünlüklərindən biri texnologiyanın inkişaf etdiyi bu dövrdə təhsildə də bu texnologiyaların tətbiqidir. Rəqəmsal platformalar, xüsusi təhsil proqramları və interaktiv vasitələr autizmli uşaqların öyrənmə prosesini daha əlçatan edir. Eyni zamanda ailə ilə məktəb arasında sıx əməkdaşlıq bu uşaqların həm evdə, həm də məktəbdə dəstəklənməsini təmin edir.

Ümumiyyətlə, inklüziv təhsil mühiti autizmli uşaqların sosial və akademik inkişafına təkan verən bir modeldir. Burada əsas məsələ yalnız təhsildə iştirak deyil, həm də uşaqların potensialını üzə çıxarmaq və cəmiyyətə tamhüquqlu fərd kimi daxil olmalarına şərait yaratmaqdır.

Bütün bunlarla yanaşı, müasir dövrdə autizmli uşaqların inkişaf perspektivləri yalnız onların təhsil mühitinə daxil edilməsi ilə məhdudlaşmır. Əsas məqsəd onların sosial adaptasiyasını, akademik bacarıqlarını və gələcəkdə müstəqil həyata hazırlığını təmin etməkdir. Bunun üçün ənənəvi təhsil yanaşmalarına əlavə olaraq innovativ metod və vasitələrin tətbiqi vacibdir.

İlk növbədə, innovativ pedaqoji yanaşmalar təhsil sahəsində inkişaf üçün xüsusi əhəmiyyət daşıyır. Differensial təlim, vizual dəstək vasitələri, universal öyrənmə dizaynı, oyun əsaslı öyrənmə və fərdi təhsil planlarının tətbiqi autizmli uşaqların öyrənmə prosesini daha səmərəli edir. Bu metodlar uşağın güclü tərəflərinə əsaslanaraq onların motivasiyasını artırır və təlimdə aktiv iştirakını təmin edir.

Digər bir mühüm istiqamət isə rəqəmsal texnologiyaların istifadəsidir. Xüsusi mobil tətbiqlər, interaktiv tədris proqramları və hətta robot texnologiyaları autizmli uşaqların diqqətini cəlb edir və onların öyrənmə bacarıqlarını inkişaf etdirir. Araşdırmalar göstərir ki, texnologiya əsaslı təlim vasitələri uşaqlarda həm ünsiyyət bacarıqlarının, həm də gündəlik həyat vərdişlərinin formalaşmasına kömək edir və onlara bu sahədə istiqamət göstərir.

Ailə–məktəb əməkdaşlığının gücləndirilməsi də inkişaf perspektivlərinin əsas şərtlərindən biridir. Müəllimlər və valideynlər arasında qarşılıqlı əməkdaşlıq, uşağın ehtiyaclarına uyğun ortaq tədris strategiyalarının və fərdi tədris planlarının hazırlanması, həm evdə, həm də məktəbdə dəstəkləyici mühitin yaradılmasına imkan verir. Beləliklə, ASP olan uşaqlar gün ərzində də verilən tapşırıqları yerinə yetirərək inkişaf edə bilir.

Bundan əlavə, cəmiyyətin maarifləndirilməsi və sosial dəstək proqramları autizmli uşaqların tamhüquqlu vətəndaş kimi formalaşmasına böyük təsir göstərir. İctimai stereotiplərin aradan qaldırılması, xüsusi təhsil müəllimlərinin sayının artırılması və inklüziv təhsil üçün resursların genişləndirilməsi gələcəkdə uğurlu nəticələr əldə etməyə imkan verəcəkdir.

İnklüziv təhsildə yeni yanaşmaların tətbiqi və davamlı inkişaf perspektivləri autizmli uşaqların sosial və akademik potensialını tam şəkildə reallaşdırmasına şərait yaradır. Bu isə yalnız təhsil sisteminin deyil, bütövlükdə cəmiyyətin inkişafına xidmət edən strateji bir istiqamətdir.

Müasir inklüziv təhsil mühiti Autizm Spektr Pozuntusu (ASP) olan uşaqlar üçün həm sosial, həm də akademik inkişaf baxımından geniş imkanlar yaradır. Lakin bu imkanların reallaşması üçün təhsil prosesinə fərdi yanaşma, innovativ pedaqoji metodların tətbiqi və texnoloji dəstək zəruridir. Təcrübə göstərir ki, autizmli uşaqların potensialı yalnız onların zəif tərəflərinə deyil, güclü cəhətlərinə yönəldilmiş yanaşmalar vasitəsilə üzə çıxarılır.

Bu baxımdan müəllimlərin peşəkarlığının artırılması, valideyn–məktəb əməkdaşlığının gücləndirilməsi və cəmiyyətin maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. İnklüziv təhsilin uğurlu şəkildə tətbiqi autizmli uşaqların cəmiyyətə inteqrasiyasını asanlaşdırır, onların müstəqil həyat bacarıqlarını inkişaf etdirir və gələcək inkişaf perspektivlərini təmin edir.

Beləliklə, autizmli uşaqların təhsildə və cəmiyyətdə tamhüquqlu iştirakının təmin olunması yalnız pedaqoji məsələ deyil, həm də sosial ədalət və humanizm prinsiplərinin tələbi kimi qəbul edilməlidir.

İnklüziv təhsil autizmli uşaqlar üçün yeni üfüqlər açır, onlara nəinki bilik əldə etməyə, həm də cəmiyyətin bir hissəsi olmağa imkan verir. Bu uşaqların inkişaf perspektivləri birbaşa təhsil mühitinin keyfiyyətindən, müəllimlərin peşəkarlığından və müəssisələr arasında əməkdaşlıq səviyyəsindən asılıdır. Sistemli dəstək, tolerantlıq və fərdi yanaşmalar təmin edildikdə, ASP olan uşaqlar təhsil və sosial sahələrə tam inteqrasiya edə bilərlər.

## ƏDƏBİYYAT


1. American Psychiatric Association. (2013). Diagnostic and statistical manual of mental disorders (5th ed.). Washington, DC: Author.
2. Autism - World Health Organization (WHO)
3. Əlillərin Hüquqları Haqqında Konvensiya, 2006
4. Əlilliyi olan Şəxslərin Hüquqları Haqqında Konvensiya, 2008
5. "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - Bakı şəhəri, 14 dekabr 2017-ci il № 3498
6. İnklüziv təhsilin təşkili Qaydası, 2023
7. Məmmədova, S. (2022). Autizmli uşaqların təhsilində inklüziv yanaşmaların rolu. Azərbaycan Təhsil Jurnalı, 4(2), 45–53.
8. "Sağlamlıq imkanları məhdud şəxslər təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan respublikasının qanunu (2020)
9. Salamanka Bəyannaməsi ( 1994 )
10. UNICEF Azerbaijan. (2021). Inclusive Education in Azerbaijan: Current Situation and Development Perspectives. Bakı.


## MÜASİR İNKLÜZİV TƏHSİL MÜHİTİNDƏ AUTİZMLİ UŞAQLARIN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Qələndərli Nuranə*

## XÜLASƏ


Müasir dövrdə bütün dünyada təhsil sistemlərinin əsas məqsədlərindən biri bütün uşaqlar üçün bərabər imkanların yaradılmasıdır. Bu istiqamətdə Autizm Spektr Pozuntusu (ASP) olan uşaqların təhsil hüququnun təmin edilməsi də xüsusi aktuallıq kəsb edir. Autizmli uşaqların sosial, emosional və idrak xüsusiyyətləri onların ənənəvi təhsil mühitinə uyğunlaşmasını çətinləşdirir. Buna görə də inklüziv təhsil modeli, yəni xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam həmyaşıdları ilə birlikdə oxuması konsepsiyası, XXI əsrin əsaslı pedaqoji tendensiyası hesab olunur.

Dünya Səhiyyə Təşkilatının (DST) məlumatına görə, hər 100 uşaqdan təxminən 1-də autizm spektr pozuntusuna rast gəlinir. Azərbaycanda da həmçinin bu göstəricilər ildən-ilə artmaqdadır və inklüziv təhsilin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu çərçivədə autizmli uşaqların təhsildə tam inkişafını təmin etmək üçün pedaqoji innovasiyaların genişləndirilməsi, müəllimlərin xüsusi hazırlıq proqramının gücləndirilməsi və texnologiya əsaslı tədris vəsaitlərinin artırılması nəzərdə tutulur.

Beləliklə, müasir inklüziv təhsil mühiti autizmli uşaqların sosisal və akademik inkişafı üçün şərait yaradır və onların cəmiyyətə uğurlu inteqrasiyasını dəstəkləyir.

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ДЕТЕЙ С АУТИЗМОМ В СОВРЕМЕННОЙ ИНКЛЮЗИВНОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

***Келендерли Нуранэ***

### АННОТАЦИЯ

В современном мире одной из основных целей систем образования во всем мире является создание равных возможностей для всех детей. В этом направлении особое значение приобретает обеспечение права на образование детей с расстройствами аутистического спектра (РАС). Социальные, эмоциональные и когнитивные особенности детей с аутизмом затрудняют их адаптацию к традиционной образовательной среде. Поэтому инклюзивная модель образования, то есть концепция обучения детей, нуждающихся в особом уходе, вместе со своими здоровыми сверстниками, считается основной педагогической тенденцией XXI века.

По данным Всемирной организации здравоохранения (ВОЗ), примерно у 1 из 100 детей встречается расстройство аутистического спектра. В Азербайджане эти показатели также растут с каждым годом, и развитие инклюзивного образования стало одним из основных направлений государственной политики. В этой связи для обеспечения полноценного развития детей с аутизмом в образовании необходимо расширять педагогические инновации, усиление специальной программы подготовки учителей и увеличение количества технологических средств обучения.

Таким образом, современная инклюзивная образовательная среда создает условия для социального и академического развития детей с аутизмом и способствует их успешной интеграции в общество.

## DEVELOPMENTAL PERSPECTIVES OF CHILDREN WITH AUTISM IN A CONTEMPORARY INCLUSIVE EDUCATION ENVIRONMENT

***Galandarli Nurana***

### SUMMARY

In the modern era, one of the fundamental goals of education systems worldwide is to create equal opportunities for all children. In this regard, ensuring the right to education for children with Autism Spectrum Disorder (ASD) is particularly relevant. The social, emotional, and cognitive characteristics of children with autism make it difficult for them to adapt to a traditional educational environment. Therefore, the inclusive education model, i.e., the concept of children with special needs studying alongside their peers, is considered a fundamental pedagogical trend of the 21st century.

According to data from the World Health Organization (WHO), approximately 1 in every 100 children has an autism spectrum disorder. In Azerbaijan, these indicators are also increasing year by year, and the development of inclusive education has become one of the main directions of state policy. In this context, in order to ensure the full educational development of children with autism, it is necessary to expand pedagogical innovations, strengthening the special training program for teachers, and increasing technology-based teaching tools.

Thus, a modern inclusive educational environment creates conditions for the social and academic development of children with autism and supports their successful integration into society.

# MƏKTƏBLİLƏRDƏ SOSİAL FOBİYANIN TƏDRİS PROSESİNİN TƏŞKİLİNƏ PSİXOPEDOQOJİ TƏSİRİ

***Sürəyya Quliyeva Azad***
***BDU-nun II kurs magistrantı***
***suryyaquliyeva@gmail.com***

***Açar sözlər:*** Sosial fobiya, təhsil prosesi, psixopedaqoji təsir, təhsil sistemi.
***Ключевые слова:*** социальная фобия, учебный процесс, психопедагогическое влияние, система образования.
***Keywords:*** Social phobia, educational process, psychopedagogical impact, education system.

Məktəb mühitində bu hal şagirdlərin həm akademik fəaliyyətinə, həm də sosial münasibətlərinə təsir göstərir. Psixoloji ədəbiyyatda sosial fobiya "sosial anksiyete pozuntusu" (social anxiety disorder) kimi qəbul edilir və uşaqlarda təxminən 7-10 yaşdan etibarən müşahidə olunmağa başlayır. Bu yaş dövrü uşaq şəxsiyyətinin sosiallaşma mərhələsi olduğundan, fobiya məktəbdə davranış, emosional stabillik və öyrənmə motivasiyasını birbaşa zəiflədir. Piaget və Eriksonun inkişaf nəzəriyyələrinə əsasən, ibtidai məktəb dövrü uşağın özünü sosial qrupda tapdığı və "mən bacarıram" hissini formalaşdırdığı mərhələdir. Sosial fobiya isə bu mərhələdə uğursuzluq qorxusu və tənqidə qarşı həssaslığı artıraraq psixoloji müqaviməti zəiflədir. Belə uşaqlar dərsdə cavab verməkdən, müəllimlə və ya sinif yoldaşları ilə ünsiyyətdən qaçır, tədris prosesində passiv rol tutur. Bu davranış modelləri zamanla mütəmadi qaçınma reaksiyasına çevrilir və öyrənmənin effektivliyini aşağı salır. Məktəbdə sosial fobiya həm fərdi, həm də sistemli pedaqoji problem kimi qiymətləndirilməlidir (Brouzos, A., və b.,2017).

Sosial fobiya məktəb mühitində çoxsaylı tədris göstəricilərinə mənfi təsir göstərir. Əvvəla, bu pozuntu diqqət, hafizə və idrak proseslərini zəiflədir. Uşaq dərs zamanı özünü daim müşahidə altında hiss etdiyi üçün fikrini cəmləyə bilmir. Bu isə şifahi cavablarda, təqdimatlarda və qrup fəaliyyətlərində passivlik yaradır. Nəticədə akademik nəticələrdə enmə müşahidə olunur. Psixopedoqoji tədqiqatlar göstərir ki, sosial fobiyası olan şagirdlərdə "öyrənilmiş acizlik" sindromu formalaşır yəni onlar uğursuzluğu labüd hesab edir və cəhd göstərməkdən imtina edirlər. Bu vəziyyət həmçinin motivasiyanın azalmasına, öyrənməyə qarşı neqativ emosional münasibətə səbəb olur. Müəllim-şagird ünsiyyəti sosial fobiyanın tədris prosesinə təsirində həlledici amildir. Əgər müəllim sərt, tənqidçi və empatiyadan uzaq davranırsa, sosial fobiyanın simptomları daha da dərinləşir. Əksinə, emosional dəstək və fərdi yanaşma tətbiq edildikdə uşaqda özünəinam bərpa olunur. Bununla yanaşı, sinifdaxili münasibətlər də mühümdür, həmyaşıdların qəbul etməməsi və ya lağ etməsi sosial təcridi gücləndirir, bu isə akademik fəaliyyəti birbaşa zəiflədir (Vassilopoulos, S. P., və b.,2013). Sosial fobiyanın tədris nəticələrinə təsiri uzunmüddətli xarakter daşıyır. Tədqiqatlar göstərir ki, bu vəziyyəti yaşayan uşaqlar sonradan sosial adaptasiyada, peşə seçimində və ictimai iştirakçılıqda çətinliklər yaşayır (Sosnich, Y., və b.,2022).

Sosial fobiyanın aradan qaldırılmasında və ya yüngülləşdirilməsində psixopedoqoji strategiyalar əsas rola malikdir. İlk addım diaqnostik qiymətləndirmədir müəllim və psixoloq birgə şəkildə uşağın davranış modelini, emosional vəziyyətini və sosial münasibətlərini müşahidə edərək fərdi inkişaf planı hazırlayır. Psixopedoqoji müdaxilələrin effektiv istiqamətləri arasında bunlar mühümdür:

- Sosial bacarıqların inkişafı proqramları – uşağa empati, qarşılıqlı anlaşma və qrup içində iştirak vərdişləri öyrədilir.

➢ Koqnitiv-bihevioral yanaşmalar – uşağın neqativ düşüncə modelləri (“məni bəyənməyəcəklər”, “güləcəklər”) dəyişdirilir.

➢ Emosional tənzimləmə təlimləri – relaksasiya, nəfəs məşqləri və stress idarəetməsi öyrədilir.

➢ Müəllimlər üçün psixopedoqoji maarifləndirmə – sosial fobiyalı uşaqlarla düzgün davranış metodları öyrədilir.

➢ Sinif mühitinin emosional təhlükəsizliyi və kollektiv əməkdaşlığın təşviqi sosial fobiyanın təsirini azaltmaqda mühüm faktordur. Psixoloq və müəllim arasında əməkdaşlıq bu prosesin əsas şərtidir (Iuso, S., və b.,2022).

Sosial fobiyanın qarşısını almaq, onunla mübarizədən daha səmərəlidir. Məktəbdə profilaktik fəaliyyətlər uşaqların sosial və emosional rifahını qorumağa yönəlməlidir. Erkən yaşlarda empati, ünsiyyət, əməkdaşlıq və özünüifadə bacarıqları inkişaf etdirilməlidir. Bu, sosial fobiyanın yaranma riskini xeyli azaldır. İnklüziv tədris mühiti bu baxımdan mühüm psixopedoqoji funksiyanı yerinə yetirir. Əgər şagirdlər fərqliliklərə hörmətlə yanaşmağı öyrənirlərsə, sosial təzyiq azalır, qəbul olunma hissi güclənir. Məktəb psixoloqları və müəllimlər birlikdə sosial-emosional öyrənmə proqramları tətbiq etməklə uşaqlarda emosional savadlılıq və özünə inam formalaşdıra bilərlər (Lindsay, L. A., 2016).

## ƏDƏBİYYAT

1. Brouzos, A., Vassilopoulos, S. P., & Baourda, V. C. (2017). Therapeutic factors and members’ perception of co-leaders’ attitudes in a psychoeducational group for Greek children with social anxiety. In *International Perspectives on Group Work* (pp. 214-234). Routledge.

2. Iuso, S., Petito, A., Ventriglio, A., Severo, M., Bellomo, A., & Limone, P. (2022). The impact of psycho-education on school-children’s homophobic attitudes. *International review of psychiatry*, *34*(3-4), 266-273.

3. Lindsay, L. A. (2016). *Design, Implementation, and Evaluation of an Online Social Anxiety Psychoeducational Program*. William James College.

4. Sosnich, Y., Torop, K., Dehtiarenko, T., Kolyshkin, O., Kosenko, Y., & Omelchenko, I. (2022). Psychological and pedagogical principles of the organization of distance learning of primary school-aged children with cognitive development disorder. *Revista Eduweb, 2*(16), 208-222.

5. Vassilopoulos, S. P., Brouzos, A., Damer, D. E., Mellou, A., & Mitropoulou, A. (2013). A psychoeducational school-based group intervention for socially anxious children. *The Journal for Specialists in Group Work*, *38*(4), 307-329.

## MƏKTƏBLİLƏRDƏ SOSİAL FOBİYANIN TƏDRİS PROSESİNİN TƏŞKİLİNƏ PSİXOPEDOQOJİ TƏSİRİ

***Sürəyya Quliyeva***

## XÜLASƏ

Bu tezisdə məktəblilərdə sosial fobiyanın tədris prosesinə təsiri, eləcə də onun psixopedoqoji aspektləri geniş şəkildə təhlil edilmişdir. Müxtəlif tədqiqatçıların apardığı araşdırmalara əsaslanaraq, tədris prosesində psixopedoqoji müdaxilələrin rolu və əhəmiyyəti ətraflı şəkildə izah olunmuşdur. Həmçinin, sosial fobiyanın kiçikyaşlı uşaqlarda yaratdığı psixoloji və davranış problemlərinin inklüziv təhsil mühitinə təsiri xüsusi diqqət mərkəzində saxlanılmışdır.

# ПСИХОПЕДАГОГИЧЕСКОЕ ВЛИЯНИЕ СОЦИАЛЬНОЙ ФОБИИ НА ОРГАНИЗАЦИЮ УЧЕБНОГО ПРОЦЕССА У ШКОЛЬНИКОВ

***Сюрейя Гулиева***

## АННОТАЦИЯ

В данной работе подробно проанализировано влияние социальной фобии на учебный процесс школьников, а также её психопедагогические аспекты. На основе исследований различных учёных подробно раскрыта роль и значение психопедагогических вмешательств в образовательном процессе. Особое внимание уделено психологическим и поведенческим проблемам, вызванным социальной фобией у младших школьников, и их влиянию на инклюзивную образовательную среду.

# THE PSYCHOPEDAGOGİCAL IMPACT OF SOCİAL PHOBİA ON THE ORGANİZATİON OF THE EDUCATİONAL PROCESS İN SCHOOLCHİLDREN

***Surayya Guliyeva***

## SUMMARY

This thesis provides an extensive analysis of the impact of social phobia on the educational process of schoolchildren, as well as its psychopedagogical aspects. Based on research conducted by various scholars, the role and significance of psychopedagogical interventions in the teaching process are thoroughly explained. Special attention is given to the psychological and behavioral problems caused by social phobia in young children and their influence on the inclusive education environment.

# KOQNİTİV QİYMƏTLƏNDİRMƏNİN EMOSİONAL VƏ DAVRANIŞ REAKSİYALARINA TƏSİRİ

***Salmanova Jalə***
***Odlar Yurdu universitetinin II kurs magistrantı***
***salmanovajale3@gmail.com***

**Açar sözlər:** koqnitiv qiymətləndirmə, davranış reaksiyaları, emosional reaksiyalar, koqnitiv terapiya, emosional tükənmə, stress, emosional tənzimləmə.
***Ключевые слова:*** когнитивная оценка, эмоциональные реакции, поведенческие реакции, стресс, эмоциональное выгорание, когнитивная терапия, эмоциональная регуляция.
**Keywords:** cognitive appraisal, emotional reactions, behavioral responses, stress, emotional burnout, cognitive therapy, emotional regulation.

**Giriş.** Emosional reaksiyalar üçün ümumi qayda yoxdur. Eyni situasiyaya fərqli insanlar fərqli hislərlə yanaşa bilər. Misal, imtahan xəbəri bir insanda təşviş yaradarsa, digərində motivasiya və həyəcan yarada bilər. Bu fərqin səbəbi psixologiyada idrak prosesləri ilə əlaqələndirilmişdir (Smith&Kirby, 2009). Belə ki, şəxslərin hadisəni necə anladığı, hansı məna yüklədiyi və həmin baş verən hadisəni öz məqsədləri ilə necə əlaqələndirdiyi emosional reaksiyanın formalaşmasında həlledici xarakter daşıyır.

Həmçinin, koqnitiv qiymətləndirmə emosiyanın spontan reaksiyası deyil, müəyyən baxış bucağı nəticəsində yaranan məhsul olduğunu göstərir (Gross, 2014). Tədris və terapevtik mühitdə bu yanaşma geniş tətbiq olunmağa başlayıb.

**Tədqiqat**

Richard Lazarus koqnitiv qiymətləndirmə nəzəriyyəsinin əsasını qoymuşdur. O, emosiyaların xarici hadisələrdən yaranmadığını, bu hadisəni insanın subyektiv şərh etməsindən yarandığını vurğulayır(Lazarus, 1991). O, emosiyaları üç mərhələli qiymətləndirmə prosesi ilə əlaqələndirir:

- Birincili qiymətləndirmə: baş verən hadisənin faydalı, təhlükəli, neytral olub-olmadığının dəyərləndirilməsi.
- Ikicili qiymətləndirmə: insanın bu vəziyyətlə nə qədər mübarizə apara biləcəyini təhlil etməsi.
- Yenidən qiymətləndirmə: təcrübəyə və zamana əsasən ilkin münasibətin dəyişməsi.

Bununla yanaşı, emosiyaların dəyərləndirilmə nəticəsində formalaşdığını təsdiqləyən Scherer (2005) emosiyanı "hadisənin mənaya çevrilməsi" kimi izah etmişdir.

Müasir dövrdə tədqiqatlar göstərir ki, hadisələrin mənalandırılması emosiyaların yaranmasında mühüm rol oynayır(Gross&Thompson, 2007).

Məsələn, yeni bir iş bir bəzi insanlar üçün təcrübə və inkişaf imkanı kimi qiymətləndirilir və müsbət emosiyalar yaşayır. Digər şəxslər tərəfindən isə qeyri-müəyyənlik kimi qiymətləndirilərsə, qorxu və narahtlıq emosiyaları ortaya çıxar (Greenberg, 2015).

Hadisələrin subyektiv qiymətləndirilməsindən asılı olan emosional reaksiya motivasiya, qorxu, həyəcan, sevinc kimi müxtəlif emosiyaların formalaşmasını təyin edir (Gross, 2014; Smith&Kirby, 2009).

Emosional vəziyyət insanın davranışına təsir göstərir. Məsələn, stress və qorxu passivlik, qaçınma və təxirə salma ilə nəticələnə bilər (Folkman, 2010).

Hadisənin idarə oluna biləcəyini düşündükdə, insan daha problemyönümlü və aktiv davranışlar nümayiş etdirir (Werner&Gross, 2010). Beck (1976) bu prosesi belə izah edir: "insan necə düşünürsə, elə hiss edir və necə hiss edirsə, elə davranır."

Tədqiqatlara əsasən demək olar ki, koqnitiv qiymətləndirilmənin dəyişdirilməsi, məsələn koqnitiv-bihevioral terapiya vasitəsilə, davranış reaksiyalarını müsbət istiqamətdə dəyişə bilər(Beck, 1976; Gross, 2014).

Psixoterapiyada koqnitiv qiymətləndirmə modeli geniş tətbiq edilir. Mənfi avtomatik düşüncələrin dəyişdirilməsi emosional olaraq tənzimlənməyə səbəb olur (Beck, 1976).

Mindfulness yanaşması isə hadisəni qiymətləndirmədən yalnız müşahidə etməyə yönəlir və emosional aktivliyi azaldır (Oatley&Jenkins, 2006). Klinik depressiya, travma sonrası stress və təşviş pozuntusu olan pasiyentlərdə bu yanaşmanın effektivliyi təsdiqlənmişdir (Eysenck, 2012; Gross, 2014).

Eyni zamanda, emosional tükənmənin qarşısını almaq üçün şəxsi və iş balansı, stress idarəetmə strategiyaları praktik sahədə istifadə edilir(Folkman, 2010; Lazarus&Folknman, 1984).

Araşdırma nəticələri göstərdi ki, koqnitiv qiymətləndirmə davranış və emosional reaksiyaların formalaşmasında mühüm rol oynayır. Bu əvvəlki tədqiqatlarla da üst-üstə düşür. Məsələn, Folkman və Lazarus (1984) deyirdilər ki, insanlar hadisələri beynində mənalandırdıqdan sonra reaksiya verirlər. bu araşdırmada da eyni nəticə əldə edildi: hadisə deyil, hadisəyə verilən məna emosional reaksiyanın istiqamətini müəyyən edir. Bu yanaşmaya əsasən demək olar ki, emosiyalar yalnız instinktiv və avtomatik deyil, əksinə idrak prosesləri ilə sıx bağlıdır(Gross, 2014).

Müəyyən tədqiqatlarla müqayisədə, bəzi müəlliflər koqnitiv qiymətləndirmənin emosional tənzimlənmədə daha böyük rol oynadığını göstərir(Gross&Thompson, 2007). Başqa araşdırmalara görə isə davranış reaksiyaları daha çox şəxsiyyət xüsusiyyətləri və sosial öyrənmədən qaynaqlandığı vurğulanır(Bandura, 1986). Bu araşdırma həmin iki yanaşma arasında balans qurur və göstərir ki, koqnitiv qiymətləndirmə həm emosional, həm də davranış proseslərinin ortasında duran əsas mexanizmdir.

Araşdırmanın güclü tərəflərindən biri ondan ibarətdir ki, emosional təcrübələri yalnız genetik və ya bioloji izahlarla məhdudlaşdırmır. Bunun yerinə, düşüncələrin emosional reaksiya və davranışlara birbaşa təsir etdiyini göstərir. Psixoloji müdaxilə və terapevtik proses üçün bu yanaşma praktik əhəmiyyət daşıyır(Beck, 2011; Clark&Beck, 2010). Koqnitiv terapiyanın əhəmiyyəti və effektivliyi bu araşdırmada daha da aydınlaşır. Çünki bu terapiya yalnız düşüncələrin dəyişilməsinə yönəlir və həmin dəyişiklik emosiya və davranışlara təsir göstərir.

Buna baxmayaraq, araşdırmanın məhdudiyyətləri də var. Məsələn, emosional reaksiyalar özhesabat vasitəsilə ölçüldüyü üçün nəticələr iştirakçıların özlərini daha yaxşı göstərmək istəri ilə təhrif edilə bilər (Podsakoff et al., 2003). Mədəniyyət faktorlarının nəzərə alınmaması da başqa məhdudiyyətlərə aid edilə bilər. Emosiyalar və bu emosiyaların ifadəsi mədəniyyətlərə görə dəyişə bilər. Buna görə nəticələrin ümumiləşməsi çətinləşir (Mesquita&Frijda, 2011).

Yekun olaraq əldə edilən nəticələr göstərir ki, koqnitiv qiymətləndirmə emosional təcrübələrin və davranışların formalaşmasında böyük rola malikdir. Bu da koqnitiv yanaşmanın psixoloji tədqiqatlarda və terapevtik praktikada mühüm çərçivə olduğunu bir daha təsdiqləyir.

**Nəticə.** Aparılan araşdırmalar göstərdi ki, koqnitiv qiymətləndirmə emosional və davranış reaksiyalarının formalaşmasında mərkəzi rol oynayır. İnsanlar hadisələrə avtomatik deyil, bu hadisələri mənalandırıb qiymətləndirdikdən sonra reaksiya verirlər. Bu proses də emosiyaların yaranma səbəblərini yalnız bioloji və instinktiv mexanizmlərlə izah etməyin yetərli olmadığını göstərir. Lazarus (1991) və Beck-in (2011) nəzəriyyələri də bunu sübut edir. Bu nəzəriyyələrə görə düşüncələr emosional vəziyyəti və davranış seçimlərini müəyyən edən mühüm psixoloji strukturdur. Nəticə həm klinik psixologiya, həm də gündəlik həyat davranışlarının anlaşılması baxımından əhəmiyyət kəsb edir.

Ümumiləşdirsək, bu məqalə görtərdi ki:

- Koqnitiv qiymətləndirmə dəyişdikdə emosional münasibət və davranış da dəyişir.
- Emosional münasibət düşüncə strukturları ilə formalaşır.
- Hadisəyə verilən mənalandırma emosiyanı yaradır, hadisə deyil.
- Koqnitiv yanaşmalarla stress, emosional tükənmə və təşviş azaldıla və idarə oluna bilər.
- Psixoterapiya, xüsusilə koqnitiv-bihevioral metodlar, bu mexanizmə əsaslanır.

Nəticələr göstərir ki, emosional rifah ancaq xarici vəziyyətlə deyil, şəxsin həmin vəziyyətə verdiyi mənayla bağlıdır.

## ƏDƏBİYYAT

1. Bandura, A. (1986). Social foundations of thought and action: A social cognitive theory. Prentice-Hall.
2. Beck, A. (1976). Cognitive Therapy and the Emotional Disorders. Penguin.
3. Beck, A. T. (2011). Cognitive therapy of depression. Guilford Press.
4. Clark, D. A., & Beck, A. T. (2010). Cognitive therapy of anxiety disorders: Science and practice. Guilford Press.
5. Folkman, S. (2010). Stress, coping and hope. Psycho-Oncology, 19(9), 901–908.
6. Greenberg, L. (2015). Emotion-Focused Therapy. American Psychological Association.
7. Gross, J. (2014). Handbook of Emotion Regulation. Guilford Press.
8. Gross, J., & Thompson, R. (2007). Emotion regulation: Conceptual foundations. Guilford Press.
9. Lazarus, R. (1991). Emotion and Adaptation. Oxford University Press.
10. Lazarus, R., & Folkman, S. (1984). Stress, Appraisal, and Coping. Springer Publishing.
12. Mesquita, B., & Frijda, N. H. (2011). Cultural variations in emotions: A review. Psychological Bulletin, 137(4), 786–817.
13. Oatley, K., & Jenkins, J. (2006). Understanding Emotions. Blackwell Publishing.
14. Podsakoff, P. M., MacKenzie, S. B., Lee, J. Y., & Podsakoff, N. P. (2003). Common method biases in behavioral research: A critical review. Journal of Applied Psychology,

## KOQNİTİV QİYMƏTLƏNDİRMƏNİN EMOSİONAL VƏ DAVRANIŞ REAKSİYALARINA TƏSİRİ

***Jalə Salmanova***

## XÜLASƏ

Emosiyalarımız uzun müddət dəyişməz və instinktiv proseslər olaraq qəbul edilirdi. Ancaq psixologiyanın koqnitiv mərhələyə keçidi göstərdi ki, emosiyalar yalnız fizioloji reaksiyalar deyil, insanın dünyanı necə dərk etməsi ilə formalaşan çoxşaxəli psixoloji prosesdir. Koqnitiv qiymətləndirmə nəzəriyyəsinə görə insan baş verən hadisələrə birbaşa deyil, həmin hadisəni şüurda mənalandıraraq reaksiya verir. Həmin bu mənalandırma davranış və emosional vəziyyəti müəyyən edir(Lazarus,1991). Məqalənin məqsədi koqnitiv qiymətləndirmə prosesinin emosional və davranış nəticələrinə təsirini elmi əsaslarla izah etməkdir.

# ВЛИЯНИЕ КОГНИТИВНОЙ ОЦЕНКИ НА ЭМОЦИОНАЛЬНЫЕ И ПОВЕДЕНЧЕСКИЕ РЕАКЦИИ

***Джала Салманова***

## АННОТАЦИЯ

Долгое время человеческие эмоции считались фиксированными и инстинктивными процессами. Однако с развитием когнитивной психологии стало очевидно, что эмоции — это не просто физиологические реакции, а сложные психологические процессы, формирующие интерпретацию и понимание мира индивидами. Согласно теории когнитивной оценки, человек не реагирует непосредственно на событие; скорее, он реагирует, основываясь на том, как это событие интерпретируется в его сознании. Этот процесс смыслообразования определяет эмоциональные состояния и поведенческие реакции (Лазарус, 1991). Цель данной статьи — научно объяснить влияние процесса когнитивной оценки на эмоциональные и поведенческие результаты.

# THE IMPACT OF COGNITIVE EVALUATION ON EMOTIONAL AND BEHAVIORAL REACTIONS

***Jala Salmanova***

## SUMMARY

For a long time, human emotions were considered fixed and instinctive processes. However, with the rise of cognitive psychology, it became evident that emotions are not merely physiological reactions, but complex psychological processes shaped individuals interpret and understand the world. According to the cognitive appraisal theory, a person does not react directly to an event; rather, they respond based on how the event is mentally interpreted. This process of meaning-making determines emotional states and behavioral responses (Lazarus, 1991). This article aims to scientifically explain the impact of the cognitive appraisal process on emotional and behavioral outcomes.

# NARSİST ŞƏXSİYYƏTİN SOSİAL MÜNASİBƏTLƏRDƏ ROLUNUN PSİXOLOJİ TƏHLİLİ

***Rəhimli Sara***
***Odlar Yurdu Universitetinin II kurs magistrantı***
***sara.rahimli@mail.ru***

***Açar sözlər:*** narsist şəxsiyyət, sosial münasibətlər, empatiya, psixoloji dinamika, özünüdəyər, manipulyasiya, emosional istismar
***Key words***: narcissistic personality, social relations, empathy deficit, psychological dynamics, self-esteem, manipulation, emotional abuse
***Ключевое слово:*** нарциссическая личность, социальные отношения, дефицит эмпатии, психологическая динамика, самооценка, манипуляция, эмоциональное насилие

**Giriş.** Narsist şəxsiyyət müasir psixologiyanın ən çox müzakirə olunan sahələrindən biri olaraq qalır. Sosial medianın sürətli inkişafı, özünü təqdim etmənin getdikcə daha vacib bir meyara çevrilməsi və şəxsi uğurun ictimai rəğbət üzərində qurulması bu mövzunu daha da aktuallaşdırır. Bu gün narsizmi yalnız klinik diaqnoz kimi deyil, həm də gündəlik sosial münasibətlərdə özünü göstərən davranış nümunəsi kimi müşahidə etmək mümkündür. Narsist şəxsiyyət xüsusiyyətləri daşıyan fərdlər çox vaxt özlərini yüksək dəyər sahibi kimi təqdim edir, eyni zamanda başqalarının onlarla necə davrandığına qarşı da həddindən artıq həssas olurlar. Onların özünüdəyər sisteminin zərif və asan zədələnə bilən təbiəti sosial münasibətlərin gedişinə birbaşa təsir göstərir.

Belə şəxslərin sosial mühitdə dominantlıq etməyə, diqqət mərkəzində olmağa və münasibətləri öz mövqelərini qorumaq məqsədilə manipulyativ şəkildə yönləndirməyə meylli olmaları, bu davranışın psixodinamik mexanizmlərini anlamağı daha da vacib edir. Müxtəlif psixoloji məktəblərin yanaşmaları — psixoanalitik, koqnitiv, sosial-psixoloji və mədəni-sosioloji izahlar — narsist davranışın kökünü və sosial münasibətlərdə hansı rolları oynadığını fərqli aspektlərdən təqdim edir. Bu baxışların hər biri narsizmin təkcə fərdin daxili psixoloji quruluşundan deyil, həm də onun yaşadığı mühit, ailə sistemi, cəmiyyətin dəyərləri və sosial strukturdan qaynaqlandığını göstərir.

**Əsas hissə.** 1. Narsist şəxsiyyətin psixoloji əsası və nəzəri modellər

Narsist şəxsiyyət anlayışının kökləri psixoanalitik məktəblərə əsaslanır. Freud narsizmi insanın inkişaf mərhələsi kimi təqdim edirdi, lakin bu mərhələnin patoloji formaya çevrilməsi müəyyən xarakter pozuntuları yaradırdı. Kohut isə narsizmi fərdin özünüdəstək sisteminin zəifliyinə bağlayır, Kernberg isə narsizmi daha çox müdafiə mexanizmlərinin pozulması ilə əlaqələndirirdi. Müasir psixoloji yanaşmalar narsizmin təkcə psixodinamik mexanizm olmadığını, həm də koqnitiv, davranış və sosial faktorlarla qarşılıqlı şəkildə formalaşdığını göstərir.

Heinz Kohut – Özünüdəyərin yaranması və münasibətlərdə güzgüləmə ehtiyacı

Kohutun fikrinə görə, hər bir insanın içində sabit və möhkəm bir "mənlik hissi" formalaşmalıdır. Əgər uşaq vaxtı valideynlər onun duyğularını qəbul etmir, diqqətini bölüşmür və empatik münasibət göstərmirsə, insan böyüdükdə bu boşluğu kompensasiya etməyə çalışır. Narsist fərdlər də məhz bu çatışmazlığı "sosial güzgülər" vasitəsilə doldururlar.Real bir nümunə əsasında izah edim:

Bir insanın sosial mediada hər paylaşımından sonra narahatlıqla "görəsən neçə nəfər bəyəndi?" deyə gözləməsi, əslində təsdiq ehtiyacının bir əlamətidir. Bu, çox zaman narsist şəxsiyyətin sükutla yaşadığı "məni görsünlər və qəbul etsinlər" ehtiyacından doğur.

Belə insanlar münasibətə daxil olduqda tərəfdaşını tez idealizə edə bilər. Lakin həmin tərəfdaş onların gözlədiyi kimi davranmadıqda — məsələn, tərifi azaldanda — onları qəfildən dəyərdən sala bilərlər.

Bu proses münasibətin emosional dayanıqlığını ciddi şəkildə pozur. sosial faktorlarla qarşılıqlı şəkildə formalaşdığını göstərir.

Kohutun "Self Psychology" yanaşması narsizmin insanların özünədəyər sisteminin zədələnməsindən qaynaqlandığını vurğulayır. Kohuta görə:

• Uşaq valideyn tərəfindən empatik şəkildə qarşılanmadıqda, özünlük strukturu zərif və qeyri-sabit qalır.

• Yetkinlik dövründə bu çatışmazlıq özünü həddindən artıq özünəvurğunluq və kənardan təsdiq ehtiyacı şəklində göstərir.

• Narsist şəxslər sosial münasibətləri özünüdəyərini tənzimləyən "güzgü funksiyası" kimi istifadə edirlər.

Bu nəzəriyyə sosial münasibətlərdə tez-tez rast gəlinən idealizasiya–dəyərdən salma dövrlərini izah etməyə kömək edir. Narsist fərd öncə qarşı tərəfi idealizə edir, lakin onun "güzgü rolunu" yerinə yetirmədiyini hiss etdikdə, onu qəfildən dəyərsizləşdirir.

2. Otto Kernberg – Emosional qeyri-sabitlik və müdafiə mexanizmləri

Kernberg psixodinamik yanaşmada narsizmi yalnız özünü yüksək görmək kimi izah etmir. O göstərir ki, narsist insan daxilən özünü çox kövrək hiss etdiyinə görə aqressiya, utanc və qeyri-müəyyənliklə mübarizə aparmaq üçün müdafiə mexanizmlərinə müraciət edir.

Splitting, idealizasiya, devalvasiya, proyeksiya və rasionalizasiya onların ən çox istifadə etdiyi mexanizmlərdir.Bir klinik müşahidə nümunəsi:

Bir pasiyent terapevtinə deyir:

"İlk seansda sizə heyran olmuşdum. Amma keçən dəfə mənə lazım olan reaksiyanı vermədiniz, düşünürəm ki, heç də yaxşı mütəxəssis deyilsiniz."

Bu, Kernbergin təsvir etdiyi idealizasiya → dəyərdən salma dövrünün canlı nümunəsidir.

Sosial münasibətlərdə bu dinamika tez-tez konfliktə, emosional manipulyasiyaya və qarşı tərəfin güclü yorğunluğuna gətirib çıxarır.

Kernberg narsizmi şəxsiyyət quruluşunun dərinliyində yerləşən patologiya kimi izah edir və onun fikri Kohutdan fərqli olaraq daha sərt psixoanalitik çalar daşıyır. Kernberqə görə:

• Narsist şəxsiyyət aqressiya, idealizə edilmiş mənlik və dəyərsizləşdirilmiş obyektlər arasında balanssız münasibətdən formalaşır.

• Onların müdafiə mexanizmləri arasında splitting (bölmə), idealizasiya, devalvasiya, proyeksiya və rasionalizasiya mühüm yer tutur.

• Sosial münasibətlərdə isə bu fərdlər manipulyativ davranış, emosional məsafə, rəqabətkarlıq və empati çatışmazlığı nümayiş etdirirlər.

Kernbergin modeli narsistik davranışın niyə bu qədər dəyişkən və gərgin olduğunu anlamağa şərait yaradır. Onların münasibətlərdə yaxınlıqdan qorxması və eyni zamanda heyranlıq ehtiyacı onları ziddiyyətli davranışlara sürükləyir.

3. Aaron Beck – Düşüncə sxemləri və özünüqiymətləndirmə

Beckin koqnitiv nəzəriyyəsi narsizmi fərdin özünə dair formalaşdırdığı inanc sistemləri ilə əlaqələndirir.

Narsist şəxsiyyətin tipik əsas inancları belə olur:

- "Mən xüsusi və dəyərliyəm, bunu hər kəs bilməlidir."
- "Mənim ehtiyaclarım digərlərindən daha önəmlidir."
- "Tənqid qəbul edilə bilməz — bu, mənə hücumdur."

Bu inanclar insanın qavrayışını və münasibətlərdəki reaksiyalarını formalaşdırır. Həmçinin bu inanc sistemləri sosial münasibətlərdə özünü təkəbbür, tənqidə qarşı həssaslıq, rəqabətə meyillilik və emosional məsafə ilə göstərir. Koqnitiv model narsist insanın davranışının uşaq yaşlarında formalaşmış düşüncə sxemlərinin nəticəsi olduğunu vurğulayır.Bir münasibət nümunəsi əsasında izah edim:

Əgər tərəfdaş, dost və ya iş yoldaşı narsist insana sadəcə "kiçik rəy" bildirirsə, o bunu 10 dəfə böyüdüb şəxsi hücum kimi qəbul edə bilər. Bu isə qarşı tərəfdə anlaşılmazlıq yaradır:

"Sadəcə rəy verdim, niyə bu qədər reaksiya göstərdi?"

Belə yanlış interpretasiya sosial münasibətlərdə gərginlik yaradır.

4. Christopher Lasch – Müasir mədəniyyətin yaratdığı narsist model

Laschın fikrincə, günümüz cəmiyyəti elə bir mədəniyyət yaradıb ki, insanlar özlərini daim göstərmək, daha çox görünmək və özlərini ideal şəkildə təqdim etmək təzyiqi hiss edirlər. Bu isə artıq yalnız "psixoloji problem" deyil — sosial bir tendensiyadır.

Sosial nümunə:

Bir insanın real həyatda özünü qüsurlu hiss edib, sosial mediada mükəmməl həyat illüziyası yaratması, Laschın təsvir etdiyi "narsizm mədəniyyəti"nin məhsuludur.

Bu vəziyyət münasibətlərdə də özünü göstərir: insanlar emosional yaxınlıqdan çox, imicə və təsirə önəm verirlər.

Sosioloq Christopher Lasch "Narsizm mədəniyyəti" ideyasını irəli sürərək göstərir ki:

• Müasir kapitalist cəmiyyəti, kütləvi istehlak, sosial media və reklam mədəniyyəti insanlarda özünüideallaşdırma ehtiyacını gücləndirir.

• Cəmiyyətin dəyər sistemi narsizmi qidalandıran əsas mühitdir.

• Narsist davranış təkcə klinik fenomen deyil, həm də dövrün sosial məhsuludur.

Sosial münasibətlər bu mədəni kontekstin təsiri altında daha dayaz, performativ və heyranlıq üzərində qurulmuş hala gəlir. Bu da fərdlər arasında real emosional yaxınlığı zəiflədir.

Narsist şəxsiyyət pozuntusu DSM-5-də özünə həddindən artıq dəyər vermə, tərif ehtiyacının güclülüyü və empatiya çatışmazlığı ilə xarakterizə olunur. Lakin gündəlik həyatda narsist xüsusiyyətləri olan, lakin klinik diaqnoza düşməyən insanların sayı daha çoxdur və məhz bu qrup sosial münasibətlərdə ən çox çətinlik yaradır.

Əsas psixoloji komponentlər isə hiperbolik özünüdəyər, emosional tənzimləmə çətinliyi,empatiyanın zəif olması,tənqidə qarşı yüksək həssaslıq, sosial manipulyasiya davranışları,münasibətlərdə qeyri-sabitlik

Bu komponentlərin hər biri sosial münasibətlərin formalaşması və davam etdirilməsi prosesinə təsir edir.

2. Qrandioz və həssas narsizmin müqayisəli psixoloji təhlili

Qrandioz narsizm - Bu tip şəxslər özlərini üstün və xüsusi hesab edir. Davranışlarında liderlik iddiası, başqalarının fikirlərinə təhqir, diqqət mərkəzində olmaq arzusu, öz nailiyyətlərini şişirtmək

kimi xüsusiyyətlər nəzərə çarpır.

Qrandioz narsist sosial münasibətlərdə çox vaxt dominant, sərt və idarəedici davranır.

Həssas narsizm - Bu alt tipdə isə özünüdəyərin aşağı olması, tənqidə reaktivlik yüksək, sosial narahatlıq mövcuddur.

Həssas narsistlər emosional dəyişkənlik yaşayır və sosial münasibətlərdə çox vaxt özlərini qurban kimi təqdim edirlər. Bu isə münasibətlərdə qeyri-müəyyənliyə və psixoloji gərginliyə səbəb olur.

3. Empatiya çatışmazlığı və onun sosial təsirləri

Narsist şəxslərdə empatiyanın zəif olması sosial münasibətlərin keyfiyyətinə birbaşa təsir edir. Empatiya çatışmadıqca qarşı tərəfin hissləri nəzərə alınmır,münasibətlər tək

tərəfli xarakter alır,emosional yaxınlıq formalaşmır,konfliktdən qaçmaq mümkün olmur,münasibətlərin davamlılığı zəifləyir.Empatiya çatışmazlığı romantik münasibətlərdə daha aydın hiss olunur, çünki emosional paylaşımın olmaması tərəflər arasında böyük məsafə yaradır.

4. Sosial münasibətlərdə davranış nümunələri

4.1. Münasibətlərin səthi xarakter daşıması

Narsist şəxslər sosial dairələrini geniş saxlamağı sevsələr də, bu münasibətlər çox vaxt səthi olur. Onlar emosional yaxınlıqdan çəkinir və münasibətləri şəxsi mənfəət üçün istifadə edirlər.

4.2. İdealizasiya və dəyərdən salma dövrləri

Bu davranış xüsusilə romantik münasibətlərdə mü.ahidə olunur və əsasən əvvəlcə partnyor mükəmməl göstərilir, sonra isə kiçik bir nöqsan belə onun dəyərdən düşməsinə səbəb olur.

4.3. Manipulyativ üsullar

Ən geniş rast gəlinən manipulyasiya formaları: gaslighting,emosional təcrid, məsuliyyətdən yayınma,digərini günahlandırma,özünü qurban kimi göstərmədir.

4.4. Tənqidə qarşı həssaslıq

Narsist fərd tənqidlə qarşılaşdıqda ya aqressiv reaksiya verir, ya təhqir hissi keçirir, ya da məsuliyyəti başqasının üzərinə atır.

5. Ailə münasibətlərində narsizmin psixoloji nəticələri

Narsist valideyn övladlarının emosional inkişafına ciddi təsir edir. Belə ailələrdə əsasən sevgi şərti olur,uşaqların ehtiyacları nəzərə alınmır,yüksək gözləntilər təzyiq yaradır,uşaqlarda özünə dəyər problemi formalaşır.

Bu mühitdə böyüyən uşaqlar gələcəkdə ya narsistik, ya da həddindən artıq asılı şəxsiyyət strukturu inkişaf etdirə bilər.

6. Romantik münasibətlərdə narsizm

Romantik münasibətlərdə narsizm daha aydın görünür. Narsist partnyor əvvəl emosional yaxınlıq nümayiş etdirir,sonra soyuq və uzaq olur,manipulyasiya edir və ona nəzarət etməyə çalışır.Bu münasibətdə psixoloji istismar riskləri yüksəkdir.

7. İş mühitində narsistik davranışların təsiri

Narsist əməkdaş və ya rəhbər kollektivdə gərginlik yaradır,öz nailiyyətlərini qabardır, başqalarının əməklərini mənimsəyə bilir,konfliktləri artırır.İş mühitində belə şəxsiyyətlər balansı pozur və əməkdaşların motivasiyasını azaldır.

8. Sosial medianın narsizmi gücləndirən rolu

Sosial media özünüreklamı artırır,mükəmməl görünmək təzyiqi yaradır,bəyənilmə asılılığı formalaşdırır,sosial müqayisəni artırır.

Müasir Dövrdə Narsist Davranışın Yeni Forması: “Rəqəmsal Narsizm”

Son on ildə aparılan araşdırmalar göstərir ki, narsizmin sosial münasibətlərdəki təsiri təkcə ənənəvi psixoloji mexanizmlərlə məhdudlaşmır, həm də rəqəmsal mühitin yaratdığı yeni davranış modelləri ilə güclənir. Buna görə mütəxəssislər son illərdə “rəqəmsal narsizm” terminini daha geniş şəkildə istifadə etməyə başlayıblar.

Rəqəmsal narsizm sosial mediada özünü “ideal obraz” kimi təqdim etmə, daimi təsdiq axtarma və başqalarının diqqətini ölçən davranış nümunələri ilə özünü göstərir. Araşdırmalara görə:

• Bu tip fərdlər real həyatda aldıqları diqqəti sosial mediada “like”, “komment”, “view” kimi göstəricilərlə kompensasiya edir.

• Onların sosial münasibətlərə baxışı daha çox performativ xarakter daşıyır — münasibətlərin dərinliyi deyil, ictimai görünüşü ön plana keçir.

• Tənqid və ya mənfi rəy onların özünüdəyər sisteminə real həyatdan daha güclü təsir edir.

Rəqəmsal narsistlər üçün sosial media həm də emosional tənzimləmə vasitəsinə çevrilir. Kimsə onların paylaşımını bəyənmədikdə və ya gözlədikləri reaksiya verilmədikdə, bu vəziyyət intensiv qıcıqlanma, özünəşübhə və hətta aqressiv davranışa gətirib çıxara bilər.

Tədqiqatlarda qeyd olunur ki:

• Rəqəmsal narsizm romantik münasibətlərdə qısqanclığı artırır.

• Dostluq münasibətlərində rəqabət və müqayisə meylinin güclənməsinə səbəb olur.

• Ailədaxili münasibətlərdə isə nəsillərarası anlaşılmazlıqları artırır, çünki yaşlı nəsil bu davranış formalarını anlamaqda çətinlik çəkir.

Bu yeni fenomen göstərir ki, sosial münasibətlərin psixoloji strukturu texnologiyanın təsiri ilə dəyişir və narsizmin təzahür formaları daha dinamik, daha görünən və bəzən daha aqressiv hala gəlir. Nəticədə, bu gün narsizmi anlamaq üçün təkcə ənənəvi psixoloji nəzəriyyələr kifayət etmir; həm də sosial mediada özünütəqdim və emosional tənzimləmə mexanizmlərini analiz etmək zərurəti yaranır.

**Nəticə.** Nəticə etibarilə, narsist şəxsiyyətin sosial münasibətlərdə oynadığı rol çoxölçülü və mürəkkəb psixoloji proseslərdən ibarətdir. Aparılan təhlillər göstərir ki, narsist davranış təkcə fərdin daxili psixodinamikası ilə deyil, həm də onun yaşadığı sosial mühit, mədəni dəyərlər sistemi və rəqəmsal təsdiq mexanizmləri ilə formalaşır. Kohut və Kernberg kimi psixoanalitik alimlərin yanaşmaları narsist şəxsiyyətin özünüdəyər strukturundakı çatışmazlıqları izah edir, Beckin koqnitiv modeli bu şəxslərin düşüncə sxemlərini açır, Lasch isə müasir mədəniyyətin narsizmi necə gücləndirdiyini göstərir. Rəqəmsal narsizmin yüksəlişi isə müasir sosial münasibətlərdə emosional dayanıqlığın daha kövrək olduğunu ortaya qoyur. Bütün bu nəzəri çərçivələr göstərir ki, narsist şəxsiyyətlə münasibət yalnız fərdi psixoloji məsələ deyil, həm də daha geniş sosial kontekstin məhsuludur.

## ƏDƏBİYYAT


1. Beck, A. T. (2020). Personality disorders and cognitive therapy. Guilford Press.
2. Cain, N. M., Pincus, A. L., & Ansell, E. B. (2008). Narcissism at the crossroads. Clinical Psychology Review, 28(4), 638–656.
3. Campbell, W. K., & Foster, J. D. (2007). The narcissistic self. Journal of Personality, 75(4), 751–782.
4. Campbell, W. K., Brunell, A. B., & Finkel, E. J. (2006). The double-edged sword of narcissism. Psychological Science, 17(3), 181–185.
5. Freud, S. (1914). On narcissism: An introduction. Standard Edition, 14, 67–104.
6. Kohut, H. (1971). The analysis of the self. International Universities Press.
7. Kernberg, O. (1975). Borderline conditions and pathological narcissism. Jason Aronson.
8. Millon, T. (2011). Disorders of personality: Introducing a DSM/ICD spectrum from normal to abnormal. John Wiley & Sons.
9. Morf, C. C., & Rhodewalt, F. (2001). The self and narcissism. Psychological Inquiry, 12(4), 177–196.
10. Ronningstam, E. (2005). Identifying and treating narcissistic personality disorder. American Psychiatric Press.
11. Twenge, J. M., & Campbell, W. K. (2009). The narcissism epidemic. Free Press.
12. Zeigler-Hill, V. (2010). Narcissism and self-esteem. Journal of Personality, 78(4), 925–958.
13. Young, J. E., Klosko, J., & Weishaar, M. (2003). Schema therapy. Guilford Press.
14. Vazire, S., & Funder, D. (2006). Impulsivity and narcissism in social behavior. Personality and Social Psychology Review, 10(4), 327–347

# NARSİST ŞƏXSİYYƏTİN SOSİAL MÜNASİBƏTLƏRDƏ ROLUNUN PSİXOLOJİ TƏHLİLİ

***Sara Rəhimli***


## XÜLASƏ

Bu araşdırma narsist şəxsiyyətin sosial münasibətlərdə oynadığı rolu çoxşaxəli psixoloji və sosial nəzəriyyələr əsasında geniş şəkildə təhlil edir. Tədqiqatın məqsədi narsist davranışın fərdi psixodinamik strukturu, koqnitiv inanc sistemləri, sosial-mədəni təsirlər və müasir rəqəmsal mühitlə qarşılıqlı əlaqədə necə formalaşdığını araşdırmaqdır. İşin nəzəri çərçivəsində Heinz Kohutun özünüdəyər yönümlü yanaşması, Otto Kernbergin patoloji narsizm modeli, Aaron Beckin koqnitiv nəzəriyyəsi və Christopher Laschın sosial və mədəni analizləri əsas götürülmüşdür. Bu yanaşmalar narsizmin yalnız fərdi psixoloji fenomen olmadığını, həm də cəmiyyətin dəyərlər sistemi, ailə münasibətləri, sosial gözləntilər və texnoloji dinamika ilə sıx bağlı olduğunu göstərir.

Araşdırmanın nəticələri göstərir ki, narsist şəxsiyyətin sosial münasibətlərdə davranışı idealizasiya və dəyərdən salma kimi dəyişkən emosional reaksiyalar, yüksək özünəvurğunluq, empati çatışmazlığı və təsdiq ehtiyacı ilə xarakterizə olunur. Psixodinamik yanaşmalar bu davranışların kökündə kövrək və zədələnə bilən özünüdəyər strukturunun dayandığını vurğulayır. Koqnitiv nəzəriyyə narsist fərdin özünə dair əsas inanclarının münasibətləri necə formalaşdırdığını açıqlayır: “Mən xüsusi olmalıyam”, “Mənim dəyərim başqalarının rəylərindən asılıdır.” Sosial və mədəni yanaşma isə kapitalist dəyərlərin, kütləvi istehlakçılığın və performativ sosial davranışların narsist xüsusiyyətləri gücləndirdiyini göstərir.

Tədqiqatın mühüm nəticələrindən biri də rəqəmsal narsizmin artmasıdır. Sosial media platformalarında özünüidealizasiya, daimi diqqət gözləntisi və “online təsdiq” ehtiyacı sosial münasibətlərin emosional dərinliyini zəiflədir və münasibətləri daha çox görüntü, status və rəqabət üzərində qurur. Bu isə real ünsiyyətdə konfliktlərin, emosional manipulyasiyanın və qeyri-sabitliyin artmasına səbəb olur. Ümumilikdə, araşdırma göstərir ki, narsist şəxsiyyətin sosial münasibətlərə təsiri çox qatlıdır və bu fenomeni anlamaq üçün yalnız klinik yanaşma deyil, həm də sosial və mədəni konteksti nəzərə almaq vacibdir.


# ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ РОЛИ НАРЦИССИЧЕСКОЙ ЛИЧНОСТИ В СОЦИАЛЬНЫХ ОТНОШЕНИЯХ

***Рагимли Сара***


## АННОТАЦИЯ

Настоящее исследование представляет собой комплексный анализ роли нарциссической личности в социальных отношениях и опирается на широкий спектр психологических и социокультурных теорий. Основной целью работы является изучение того, как нарциссическое поведение формируется и проявляется под влиянием внутренних психодинамических процессов, когнитивных убеждений, культурных факторов и современной цифровой среды. В теоретическую основу исследования включены концепции Хайнца Кохута о структуре самости, модель патологического нарциссизма Отто Кернберга, когнитивная теория Аарона Бека и социокультурная критика Кристофера Лэша. Эти подходы демонстрируют, что нарциссизм является не только индивидуальной психологической особенностью, но и отражением социальных норм, семейных влияний, общественных ожиданий и развития технологий.

Результаты анализа показывают, что нарциссическая личность строит взаимоотношения на основе нестабильного чередования идеализации и обесценивания, высокой

потребности в восхищении, недостатка эмпатии и чувствительности к критике. Психодинамическая перспектива подчёркивает хрупкость самости таких личностей, что объясняет их склонность к защитным механизмам, таким как проекция, рационализация и «расщепление». Когнитивный подход демонстрирует, что основополагающие убеждения нарцисса определяют его взаимодействие с другими людьми, в том числе ожидание особого отношения и зависимости от внешней оценки. Социокультурный взгляд указывает на роль современного общества, ориентированного на успех, индивидуализм и визуальную самопрезентацию, в усилении нарциссических тенденций.

Особое внимание уделено феномену цифрового нарциссизма, который становится всё более распространённым в условиях активного использования социальных сетей. Постоянная потребность в виртуальном одобрении, стремление к идеальному образу и зависимость от количественных показателей внимания («лайков», комментариев) изменяют характер межличностных взаимодействий, делая их более поверхностными и нестабильными. Исследование подчёркивает, что влияние нарциссических черт на социальные отношения является многоуровневым и требует междисциплинарного подхода, соединяющего психологические, социальные и культурные аспекты.

## PSYCHOLOGICAL ANALYSIS OF THE ROLE OF THE NARCISSISTIC PERSONALITY IN SOCIAL RELATIONSHIPS

***Sara Rahimli***

### SUMMARY

This study presents an extensive and multidimensional analysis of the role of narcissistic personality traits in social relationships. The primary aim is to explore how narcissistic behavior emerges and functions through the interaction of intrapsychic dynamics, cognitive belief systems, sociocultural influences, and the evolving digital environment. The theoretical foundation integrates Heinz Kohut's self psychology, Otto Kernberg's model of pathological narcissism, Aaron Beck's cognitive theory, and Christopher Lasch's sociocultural critique of modern narcissism. Together, these frameworks reveal that narcissism is not merely an individual psychological condition but a phenomenon shaped by social expectations, family dynamics, cultural norms, and technological transformation.

The findings indicate that narcissistic individuals navigate social relationships through fluctuating cycles of idealization and devaluation, intense need for admiration, limited empathy, and elevated sensitivity to perceived threats or criticism. Psychodynamic theories highlight the fragile self-structure underlying these behaviors, which explains the frequent use of defense mechanisms such as projection, splitting, and rationalization. Cognitive theory further shows that deeply rooted beliefs—such as entitlement, superiority, and dependence on external validation—guide their interpersonal interactions. From a sociocultural perspective, contemporary society's emphasis on achievement, individuality, visibility, and consumption reinforces narcissistic tendencies, making them more socially acceptable and more prevalent.

A significant focus of the study is the rise of digital narcissism. Social media platforms amplify narcissistic expressions through curated self-presentation, constant seeking of approval, and the pursuit of engagement metrics. These dynamics reshape interpersonal relationships, making them increasingly performance-driven and emotionally superficial. The analysis concludes that understanding narcissistic behavior in social contexts requires an interdisciplinary approach, as the phenomenon is deeply embedded in the psychological, social, and cultural fabric of modern society.

# "DƏRMAN BİTKİLƏRİ, MÜALİCƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI" MÖZUSUNUN TƏDRİSİNDƏ "BEYİN HƏMLƏSİ" METODLARININ TƏTBİQİ

***Səfərova Elnurə***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***https://orcid.org/0000-0002-4151-1750***
*seferovaelnure@mail.ru*
***İsrafilli Lamiyə Qafil qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti II kurs magistrantı***
*lamiateach4@outlook.com*

***Açar sözlər:*** Beyin həmləsi, BİBÖ, biologiya, interaktiv metod, əqli hücum
***Ключевые слова:*** мозговой штурм, ЗХУ, биология, интерактивный метод
***Keywords:*** Brainstorming, KWL, Biology, İnteractive method, Mental attack

Giriş. Fəal dərsin qurulmasında interaktiv təlim metodları dərsin keyfiyyətinin artırılmasında uzunmüddətli effekt yaradır. Dərman bitklərinin tədrisi biologiyanın xüsusi məsələlərindəndir. Belə ki, dərman bitkilərinin tədrisi sayəsində şagirdlərdə sağlam həyat tərzi və ekoloji düşüncə formalaşır (Salimov, R. (2023). Həmçinin şagirdlər müxtəlif bitkilərlə davranış qaydalarını öyrənir, ənənəvi təbabətin faydalarını dərk edir, ölkəmizin bu baxımda zənginliyi ilə bağlı təsəvvürlər qazanırlar. Məhz bu səbəbdən dərman bitkilərinin tədrisi vacib məsələlərdən biri hesab olunur və dərsin komponentlərinin düzgün seçilməsi onun tədrisini daha effektiv edir (Kərimova, A. G. (2021)).

Tədqiqat. Dərman bitkilərinin tədrisində faydalı hesab olunan interaktiv təlim metodlarından biri də " Beyin Həmləsi" metodlarıdır. "Beyin həmləsi" metod kimi əsasən problemli situasiyalarda həmin problemin həlli məsələlərinin şagirdlər tərəfindən aydınlaşdırılması, təhlili və həlli üçün müvafiq təkliflərin irəli sürülməsi və qərar qəbulu bacarıqlarının inkişafını təmin edir (Rüstəmova, İ. (2016)). "Beyin həmləsi" metodlarına daxildir: Beyin həmləsi, BİBÖ, Auksion, Klaster, Suallar, Anlayışın çıxarılması (Mehmood, N., Anwer, M., & Tatlah, A. (2019)), (Hacıyeva, G. (2018)).

"Beyin həmləsi" həmçinin "Əqli hücum" da adlanır. Bu metod şagird – şagird münasibətlərinin doğru istiqamətdə formalaşmasına xidmət edir. Özünü ifadə bacarıqlarını formalaşdırır. Dərman maddələrinin tədrisində şagirdlər müəllim tərəfindən yönləndirilməklə dərman maddələri ilə bağlı problemli məsələlərə aydınlıq gətirirlər (Tsai, M. N., Liao, Y. F., Chang, Y. L., & Chen, H. C. (2020).). Dərman bitkilərinin tədrisində müəllimin üsuldan istifadəsi:

1. Müəllim problem yaradan sualı sinfə ünvanlayır:

Sizcə dərman bitkilərinin qıtlığı yaranarsa, hansı problemlər ortaya çıxa bilər, həyatımıza necə təsir edər və həmin problemlər necə həll edilər?

1. Şagirdlər sualla bağlı fikirlərini səsləndirirlər və müəllim həmin fikirləri lövhədə qeyd edir.

Bu fikirlərə aid ola bilər: ekoloji tarazlıq pozulur, dərmanların hazırlanması ləngiyər, qıtlıq yaranar, bahalaşma ola bilər….

2. Müəllim bu ideyaları üç kateqoriyada qeyd edir: sağlamlığa təsiri olacaq nəticələr, iqtisadiyyatla bağlı nəticələr, ekologiya ilə bağlı olan nəticələr.

3. Daha sonra müəllim şagirdlərdən həll yolları ilə bağlı təklifləri qeyd etmələrini istəyir.

Şagirdlər xüsusi əkin sahələrinin yaradılmasını, tükənmək üzrə olan bitkilərin xüsusi şəkildə becərilməsini, ictimaiyyətin maarifləndirilməsini həll yolu kimi təklif edə bilərlər.

İkinci beyin həmləsi üsulu “BİBÖ” adlanır. Bu üç sütunlu cədvəldir ki, cədvəlin ilk sütununda şagirdlər öncədən bildikləri, ikinci sütununda bilmək istədikləri, sonuncu sütununda isə öyrənməyi istədikləri məlumatları qeyd edirlər (3). Bu üsulun əsas məqsədi əvvəlki biliklərə inteqrasiya edərək yeni biliklərin formalaşmasında pilləkən kimi istifadə etməkdir (Qafarova P. (2018)). Biologiya fənni 6-cı sinifdə tədris edilən dərman bitkiləri dərsində əsasən mövzuya maraq oyatmaq məqsədi ilə tətbiq edilə bilər. Bunun üçün müəllim xalq təbabətində dərman bitkisi kimi istifadə edilən bir neçə bitkinin şəklini nümayiş etdirir. Sonra isə BİBÖ cədvəlini quraraq şagirdlərə cədvəl strukturunu izah edir. Şagirdlər bu bitkilər haqda biliklərini səsləndirir. Daha sonra müəllim hansı məlumatların onları maraqlandırdığını soruşur və həmin məlumatları cədvəlin ikinci sütununa qeyd edir. Cədvəl lövhədə qalır və dərsin gedişində nəticələrin ümumiləşməsi hissəsində müəllim şagirdlərin cavabları əsasında öyrəndim sütunun da doldurur (Martinez, Y. M. (2004).), (Ogle, D. M. (1992).).

Dərsin gedişində interaktiv öyrənməni təşviq edən “Beyin Həmləsi” üsullarından biri də “Auksion” üsuludur. Auksion üsulunda müəllim hansı cism və ya hadisə öyrəniləcəksə, onu elan edir və auksionun keçirilmə qaydalarını izah edir. Auksionda elan edilən cisim haqqında şagirdlər tərəfindən bir fikir səsləndirilir. Sonra müəllim saymağa başlayır, müəllim saymanı bitirənə qədər yeni fikir səslənərsə, proses yenidən davam edir, səslənməzsə, sonuncu fikrin sahibi qalib elan edilir. Dərman bitkilərinin tədrisində bu üsul 4-cü mərhələ olan Elaborate (dərinləşdirmə/tətbiq) mərhələsində yeni biliklərin şagirdlərə nüfuzunu müəyyən etmək üçün istifadə edilə bilər.

Klaster üsulu tədris vahidi üzrə müəyyənləşdirilən əsas anlayış barəsində müxtəlif nəticələrin çıxarılmasında şagirdlərə kömək edir. Üsulun tətbiqi zamanı lövhədə bir anlayış qeyd edilir və şagirdlər də həmin anlayışa aid olan alt anlayışları şaxələr vasitəsi ilə əsas anlayışla əlaqələndirirlər.

Suallar üsulunda şagirdlər dərsin gedişində onlar üçün anlaşıqlı olmayan, maraqlı olan sualları ünvanlandırmağa sövq edilirlər ki, bu da onları idrak fəallığına cəlb edir(Babayeva, Z. Y. (2023)).

Anlayışın çıxarılması üsulu bir növ şaxələndirmə üsulunun əks üsuludur. Bu zaman anlayış haqqında bir neçə alt anlayış qeyd edilir və şagirdlər bu alt anlayışlardan əsas anlayışı formalaşdırırlar.

Beyin həmləsi metodlarından istifadə etməklə “Dərman bitkiləri, müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları” dərsinin qurulması:

Sinif: 6

Fənn: Biologiya

Mövzu: Dərman bitkiləri müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları

Alt standartlar 3.2.1. Bitki və heyvanların insan sağlamlığında rolunu izah edir. 3.2.2. Dərman bitkilərini fərqləndirir.

Təlim nəticələri: Azərbaycanda rast gəlinən dərman bitkilərini fərqləndirir; Dərman bitkilərinin insan sağlamlığında rolunu izah edir.

Resurslar: dərslik, qısa məluat kartları, iş vərəqləri, bitki şəkilləri

Qiymətləndirmə meyarı: fərqləndirmə, izahetmə

1. Cəlbetmə

Müəllim BİBÖ metodundan istifadə edir bu mərhələdə. Şagirdlərə “dərman bitkiləri haqqında nə bilirsiniz ?”; “Hansı dərman bitkilərini tanıyırsınız?” sualları ilə müraciət edir. Sonda isə “nəyi öyrənmək istəyirsiniz” sualı ilə müraciət edir və ikinci sütunu doldurur.

2. Araşdırma

Müəllim bu mərhələdə şagirdləri qruplara bölür. Qrup üzvləri müəllimin masasına yaxınlaşaraq üstü örtülü vərəqlərdən birini seçir ki, həmin kartlarda müxtəlif dərman bitkilərinin adları qeyd edilib.

Lövhədə “Dərman bitkiləri” ifadəsi mərkəz hissədə yazılır. Ətrafına klaster şaxələri çəkilir ki, şagirdlər cavabları bura yazırlar.

3. İzah etmə

Qruplar hər biri öz seçdikləri bitkilər haqqında təqdimatı həyata keçirirlər və şaxələr müəllimtərəfindən tamamlanır. Sonda müəllim ümumi izzahat verir və dərman bitkiləri, təsirləri, toplanma qaydaları kimi məlumatları ümumiləşdirir.

4. Dərinləşdirmə

Bu mərhələdə müəllim auksion metodunun istifadəsi məqsədi ilə şagirdlərə “Soyuqdəymədə faydalı olan bitkilər hansılardır?” sualını verir. Qruplar öz ideyalarını hərraca çıxarır. Ən son fikri səsləndirən qrup qalib hesab olunur.

5. Qiymətləndirmə.

Müəllim 3 – 2 – 1 üsulundan istifadə etməklə şagirdləri qiymətləndirir (Safarova E. F., Ismayilova, Z. R. (2025)).

Nəticə. Nəticə olaraq, “Dərman bitkiləri, müalicəvi xüsusiyyətlər və istifadə üsulları” mövzusunun “ Beyin həmləsi” metodlarının tətbiqi ilə tədrisi şagirdlərin mövzuya daha həssas yanaşmasını təmin edir, onların mövzu ilə bağlı idrak fəaliyyətini artırır, müxtəlif üsulların istifadəsi onlarda ölkənin zəngin florasının qorunması, hətta çoxaldılması kimi mövzularda fərqindəliklərin artırılmasını təmin edir.

## ƏDƏBİYYAT

1. Chinenye, O. C. (2024) Effects of Crossover and Brainstorming Teaching Strategies on Senior Secondary School Students’ Interest in Biology in Imo State.
2. Tsai, M. N., Liao, Y. F., Chang, Y. L., & Chen, H. C. (2020). A brainstorming flipped classroom approach for improving students’ learning performance, motivation, teacher-student interaction and creativity in a civics education class. Thinking Skills and Creativity, 38, 100747.
3. Mehmood, N., Anwer, M., & Tatlah, A. (2019). Effect of combined teaching strategies on higher order thinking skills (HOTS) of biology students. Global Regional Review (GRR), 33, 312-9.
4. Martinez, Y. M. (2004). Does the KWL reading strategy enhance student understanding in an honors high school science classroom?. California State University, Fullerton.
5. Ogle, D. M. (1992). KWL in action: Secondary teachers find applications that work. Reading in the content areas: Improving classroom instruction, 3, 270-281.
6. Qafarova P. (2018). Ümumtəhsil məktəb biologiyasının tədrisində müşahidə metodunun tətbiqi ilə fənlərarası əlaqənin təşkili. Elm və Əsərlər. DOI: https://doi.org/10.36719/2706-6185/31/10-13
7. Hacıyeva, G. (2018). Biologiyanın tədrisi metodikası (Ali məktəblər üçün dərslik). Azərbaycan Dövlət Pedaqoji Universiteti, Biologiya və onun tədrisi metodikası kafedrası.
8. Babayeva, Z. Y. (2023). *Biologiyanın tədrisi metodikası. I hissə: Ali məktəblər üçün dərslik*. Naxçıvan Dövlət Universiteti. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 27.02.2023-cü il, 3-29/3-2-74T/2023 saylı əmri ilə təsdiq edilmişdir.
9. Safarova E. F., Ismayilova, Z. R. (2025). Implementation of new lesson models and challenges in biology education. Azerbaijan State Pedagogical University. https://doi.org/10.69682/arti.2025.92(4).97-100
10. Salimov, R. (2023). Studying the flora of Azerbaijan in a changing environment: status, trends and challenges. History of Science and Science of Science, (2).
11. Kərimova, A. G. (2021). Təlim prosesində təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqənin formalaşdırılması. In KONFRANS MATERİALLARI (pp. 429-430).

12. Rüstəmova, İ. (2016). Fəal təlim metodlarından istifadənin səmərəliliyi. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, 257-262.

## "DƏRMAN BİTKİLƏRİ, MÜALİCƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI" MÖZUSUNUN TƏDRİSİNDƏ "BEYİN HƏMLƏSİ" METODLARININ TƏTBİQİ

***Səfərova Elnurə, İsrafilli Lamiyə***

### XÜLASƏ

Azərbaycan Respublikasında dərman bitkilərinin geniş və çoxşaxəli müxtəlifliyi ölkənin zəngin flora ehtiyatlarının əsas göstəricilərindən biri hesab olunur. Tədris vahidi kimi təqdim edilən "Dərman bitkiləri, müalicəvi xüsusiyyətlər və istifadə üsulları" mövzusu şagirdləri Azərbaycan üçün xarakterik olan yerli bitki növləri ilə tanış etmək, həmçinin bu bitkilərin insan orqanizminə təsiri, müalicəvi imkanları və tətbiq sahələri haqqında biliklər vermək məqsədini daşıyır. Bununla yanaşı, mövzu öyrənənlərə gələcək həyatlarında istifadə edə biləcəkləri praktik bacarıqlar, sağlam həyat tərzi ilə bağlı anlayışlar və bitkilərdən düzgün istifadə vərdişləri qazandırır.

Mövzunun tədrisinin əhəmiyyəti onun həm nəzəri, həm də praktik bilikləri birləşdirməsi ilə bağlıdır. Şagirdlərdə mövzunu daha dərindən anlamaq və yadda saxlamaq üçün interaktiv tədris metodlarının tətbiqi xüsusi önəm kəsb edir. Bu prosesdə müxtəlif pedaqoji yanaşmalardan istifadə oluna bilər və onların arasında beyin həmləsi (brainstorming) texnikası xüsusilə seçilir. Sözügedən metod yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirir, təhliletmə və müzakirə bacarıqlarını gücləndirir, öz fikrini sərbəst ifadə etmək imkanlarını artırır və mövzunun mahiyyətinin daha dolğun qavranılmasına şərait yaradır.

## ПРИМЕНЕНИЕ МЕТОДОВ МОЗГОВОГО ШТУРМА ПРИ ПРЕПОДАВАНИИ ТЕМЫ "ЛЕКАРСТВЕННЫЕ РАСТЕНИЯ, ИХ ЦЕЛЕБНЫЕ СВОЙСТВА И ПРАВИЛА ИСПОЛЬЗОВАНИЯ"

***Сафарова Эльнура, Исрафилли Ламия***

### АННОТАЦИЯ

В Азербайджанской Республике широкое и многообразное разнообразие лекарственных растений считается одним из основных показателей богатых флористических ресурсов страны. Учебная тема «Лекарственные растения, их лечебные свойства и способы применения» направлена на то, чтобы познакомить учащихся с местными видами растений, характерными для Азербайджана, а также дать знания о влиянии этих растений на организм человека, их лечебных возможностях и областях применения. Наряду с этим тема формирует у обучающихся практические навыки, понятия о здоровом образе жизни и умение правильно использовать растения — умения, которые пригодятся им в будущем.

Значимость преподавания данной темы заключается в объединении теоретических и практических знаний. Для более глубокого понимания и запоминания материала особое значение имеет применение интерактивных методов обучения. В этом процессе могут использоваться различные педагогические подходы, среди которых особенно выделяется метод «мозгового штурма». Данный метод развивает

творческое мышление, укрепляет навыки анализа и обсуждения, способствует свободному выражению мыслей и обеспечивает более полное понимание сути темы.

## APPLİCATİON OF BRAİNSTORMİNG METHODS İN TEACHİNG THE TOPİC "MEDİCİNAL PLANTS, THEİR HEALİNG PROPERTİES, AND RULES OF USE"

***Safarova Elnure, Israfilli Lamiye***

**SUMMARY**

The wide diversity of medicinal plants in the Republic of Azerbaijan is one of the indicators of the richness of the country's flora. As a teaching unit, the topic "Medicinal plants: therapeutic properties and methods of use" aims to familiarize students with plant species native to Azerbaijan, while also providing knowledge about their applications and effects on the human body. Furthermore, this subject is designed to equip learners with practical skills and knowledge that they can apply throughout their lives.

For this reason, the teaching of this topic holds significant importance and should be implemented through interactive methods and strategies to ensure a higher level of comprehension among students. A variety of approaches can be employed in the delivery of this lesson, among which brainstorming techniques occupy a notable place. The use of brainstorming methods fosters creative thinking, enhances reasoning and discussion skills, strengthens self-expression, and contributes to deeper understanding of the subject matter.

# YENİYETMƏ YAŞININ XÜSUSİYYƏTLƏRİ VƏ AİLƏ DAXİLİ MÜNAQİŞƏLƏRİN ONLARIN FORMALAŞMASINA PSİXOLOJİ TƏSİRİ

***Seyidova Fatimə Xəyal qızı***
***BDU-nun II kurs magistrantı***
**fatimesva@icloud.com**

***Açar sözlər:*** Yeniyetməlik,psixoloji inkişaf,ailədaxili münaqişə, emosional gərginlik, şəxsiyyətin
***Keywords:*** adolescence, family conflict, psychological development.
***Ключевые слова:*** подростковый возраст, семейный конфликт, психологическое развитие.

Yeniyetməlik dövrü insanın sosial və psixoloji inkişafında mühüm yer tutur. Bu mərhələ,uşaqlıqdan çıxıb yetkinliyə doğru gedən keçid dövrü olmaqla yanaşı, şəxsiyyətin formalaşmasında əsas baza rolunu oynayır.Yeniyetmənin özünü dərk etməsi,sosial münasibətlər qurması,dəyərlər sistemini müəyyən etməsi və gələcək həyat tərzini planlaşdırması məhz bu mərhələdə başlayır.

Yemiyetməlik dövrü həm bioloji dəyişikliklərlə (bədənim böyüməsi,hormonal balansın dəyişməsi),həm də psixoloji dəyişikliklərlə (emosional dəyişkənlik, özünü tanımaq ehtiyyacı,ailədən və cəmiyyətdən ayrılmaq arzusu) xarakterizə olunur.Bu dəyişikliklər fonunda yeniyetmələrdə çox vaxt özünə inamsızlıq,aqressivlik, ziddiyyətli davranışlar və sosial adaptasiya problemləri meydana çıxır.Bu dövrdə ailə mühüm sosial institut olaraq qalır. Valideynlərin davranışı, münasibət tərzi, ailədaxili ünsiyyət forması və ailə mühitinin ümumi psixoloji durumu yeniyetmənin emosional vəziyyətinə və psixoloji sağlamlığına birbaşa təsir göstərir. Xüsusilə ailədaxili münaqişələr valideynlər arasında tez-tez baş verən mübahisələr, emosional laqeydlik, sərt və tənqidedici münasibət tərzi yeniyetmənin daxili dünyasında ciddi pozuntulara səbəb ola bilər.Belə hallar özünü cəmiyyətdən təcrid etmə, üsyankar və ya depresiv davranışlarla ifadə edə bilər. Müasir dövrdə sosial dəyişikliklər, ailə modelinin transformasiyası, iqtisadi gərginlik və informasiya bolluğu yeniyetmələrin psixoloji vəziyyətini daha da həssas hala gətirir. Boşanma hallarının artması, valideynlər arasında münasibətlərin qeyri-sabitliyi, ailədə emosional dəstəyin azalması və ya tamamilə olmaması gənc nəslin formalaşmasında ciddi problemlərə yol açır.

**Tədqiqatın əsas hissəsi.** Yeniyetməlik dövrü insanın həyatında uşaqlıqla yetkinlik arasındakı mühüm keçid mərhələsi hesab edilir. Bu dövr həm bioloji,həm psixoloji cəhətdən intensiv dəyişikliklərlə müşahidə olunur. Bioloji dəyişikliklər hormonal səviyyədə baş verir və bədən inkişaf edir.Lakin ən vacib dəyişikliklər psixoloji sahədə müşahidə olunur ki,bunlar gəncin şəxsiyyətinin formalaşması,özünü tanıması, emosional sabitlik və sosial münasibətlərdə öz yerini tapması ilə bağlıdır. Yeniyetmənin şəxsiyyətinin formalaşması bir neçə əsas xüsusiyyətə malikdir. İlk növbədə bu dövrdə özünüqiymətləndirmə prossesi başlayır və gənc özünə münasibətdə daha tənqidi olur. Eyni zamanda,yeniyetmə ətrafdakı insanlara münasibətlərdə yeni qaydalar və davranış nümunələri formalaşdırır. Onun dünyagörüşü genişlənir, sosial rolları öyrənir və şəxsiyyətində müstəqillik arzusunu gücləndirir. Bu mərhələ həm də ziddiyətli duyğuların, daxili konfliktlərin və emosional dalğalanmaların olduğu bir zaman kimi xarakterizə olunur.

Yeniyetmənin psixoloji inkişafında sosial mühit,xüsusilə ailə mühiti mühüm rol oynayır.Sağlam ailədaxili münasibətlər yeniyetmənin özünü dəyərli və dəstəklənmiş hiss etməsinə səbəb olur. Bu, onun gələcəkdə sağlam sosial münasibətlər qurmasına zəmin yaradır. Əksinə, ailədaxili münaqişələr və gərgin münasibətlər yeniyetmənin psixoloji

durumuna mənfi təsir göstərə bilər. Bu cür münaqişələr yeniyetmənin özünə inamının azalmasına, aqressiv davranışlar sərgiləməsinə,həmçinin sosial təcridə səbəb ola bilər.Buna görə də, yeniyetməlik dövrünün xüsusiyyətlərini və ailədaxili münaqişələrin təsirini başa düşmək, psixoloji yardım və müdaxilə üçün vacibdir. Belə anlayışlar müəllimlərə və psixoloqlara gəncin inkişafını daha yaxşı dəstəkləmək üçün zəmin yaradır. Yeniyetməlik dövründə yaşanan psixoloji dəyişikliklər bəzən gəncin daxili dünyasında qarışıqlığa və həssaslığa səbəb olur, bu da onun ətraf mühitlə münasibətlərinə təsir göstərir. Ona görə də bu mərhələdə yeniyetməyə qarşı anlayışlı və dəstəkləyici yanaşma xüsusilə önəmlidir.

**Yeniyetmə yaşının psixoloji xüsusiyyətlərinin əsas növləri:**

**1. Özünü qiymətləndirmənin qeyri-sabitliyi.** Yeniyetmələr özlərinə münasibətdə tənqidi yanaşırlar və özünü qiymətləndirmələri dalğalanır.Bu da onların davranışına və sosial kommunikasiyasına təsir göstərir. **2. Emosional dəyişkənlik və həssaslıq.** Yeniyetmələrdə emosiyalar tez-tez dəyişir, onlar daha həssas olur və kiçik hadisələrə böyük reaksiya verə bilirlər.Bu,daxili psixoloji ziddiyyətlərdən və hormonal dəyişikliklərdən qaynaqlanır **3.Müstəqillik axtarışı.** Bu yaşda gənclər müstəqillik və öz şəxsiyyətlərini formalaşdırmaq istəyirlər.Onlar valideynlərdən azadlıq tələb edir və öz qərarlarını vermək istəyirlər. **4.Daxili konfliktlər və ziddiyətlər.** Yeniyetmənin daxili dünyasında tez-tez konfliktlər yaranır.Bu,həm daxili hisslərin,həm də ətraf mühitlə bağlı gözləntilərin bir-biri ilə toqquşmasından irəli gəlir. **5.Sosial münasibətlərdə yeniliklər.** Yeniyetmələr öz sosial rollarını axtarır,dostluq və sevgi münasibətlərinə daha çox önəm verirlər. Bu isə onların emosional və sosial inkişafına təsir edir. **6.Psixoloji həssaslıq və stressə qarşı dayanıqlığın azalması.** Yeniyetməlik dövründə gənclərin psixoloji həssaslığı artdığı kimi, stressə qarşı müqavimət qabiliyyəti də zəyifləyə bilər. Bu yaşda baş verən hormonal və beyin inkişafı dəyişiklikləri yeniyetməni emosional olaraq daha həssas edir, stressli situasiyalara qarşı reaksiyaları güclənir. Ailə daxilində və sosial mühitdə yaranan gərginliklər, tənqidlər, anlaşılmazlıqlar, yeniyetmənin psixoloji durumuna birbaşa təsir edir və onu stress vəziyyətinə sala bilir. Stressin uzun müddət davam etməsi və adekvat dəstəyin olmaması isə depressiya, anksiyete və digər psixoloji problemlərin yaranmasına səbəb ola bilər. Bu səbəbdən yeniyetmələrin emosional sabitliyini qorumaq üçün mühitin rahat və dəstəkləyici olması böyük əhəmiyyət kəsb edir.

**Ailədaxili münaqişələrin növləri və xüsusiyyətləri.** Ailədaxili münaqişələr özünü müxtəlif formalarda göstərə bilər və onların hər biri yeniyetmənin psixoloji durumuna afərqli təsir edir. 1.Valideynlərarası münaqişələr:Valideynlər arasında yaranan münaqişələr ailənin ümumi emosional mühitini gərginləşdirir.Bu növ münaqişələr əsasən iqtisadi problemlər, həyat tərzi və düşüncə fərqliliklıri,tərbiyə prinsiplərindəki fikir ayrılıqlarından qaynaqlanır. Yeniyetmələr bu gərginlikdə ən çox təsirlənən tərəf ola bilir və özünü təcrid olunmuş,narahat hiss edir. 2.Valideyn-övlad münaqişələri: Valideyn və övlad arasında baş verən münaqişələr daha çox sərhədlərin qoyulması, tərbiyə üsulları və gəncin müstəqillik tələbi ilə bağlı olur.Bu münaqişələrdə valideynin avtoritar və ya laqeyd yanaşması yeniyetmənin emosional gərginliyini artırır və qarşıdurmanı dərinləşdirir. 3.Qardaş-bacı arasındakı münaqişələr: Qardaş və bacılar arasında rəqabət, diqqət uğrunda mübarizə və fərqli səbəblərdən yaranan münaqişələr yeniyetmənin sosial bacarıqlarına mənfi təsir göstərir. Bu münasibətlərdə yaranan münaqişələr yeniyetmənin ailədə özünü rahat hiss etməməsinə səbəb ola bilər. 4.Ailədaxili ünsiyyət problemləri: Münaqişələrdən əlavə,ailədə effektiv ünsiyyətin olmaması da yeniyetmənin psixoloji durumuna mənfi təsir göstərir. Duyğuların ifadə olunmaması, fikir ayrılıqlarının açıq şəkildə müzakirə olunmaması ailə üzvləri arasında soyuqluğa və anlaşılmamazlığa səbəb olur. Bu münaqişə növləri yeniyetmənin şəxsiyyətinin inkişafı və sosial adaptasiyasında ciddi maneələr yarada bilər. Tədqiqat göstərir ki, bu problemlərin vaxtında müəyyən etmək və həll yolunun tapılması

yeniyetmənin psxioloji sağlamlığı üçün vacibdir Ailədaxili münaqişələrin həll yolları və tövsiyyələr

1.Effektiv ünsiyyətin təşviqi:Ailə üzvləri arasında açıq və dürüst dialoq qurmaq münaqişələr yaranmasının qarşısını alır. Duyğuların ifadə olunması,fikir mübadiləsi və anlaşılmazlıqların müzakirəsi ailə mühitini gücləndirir. 2.Valideynlərin tərbiyə metodlarının təkmilləşdirilməsi: Valideynlər avtoritar yanaşmadan uzaqlaşaraq, dəstəkləyici və anlayışlı tərbiyə üsullarını istifadə etməlidirlər. Yeniyetmənin müstəqillik arzusu nəzərə alınmalı, sərhədlər sağlam şəkildə müəyyən edilməlidir. 3.Stressin idarə olunması və emosional dəstək: Yeniyetmələrə stresslə başa çıxmaq üçün psixoloji dəstək verilməli,onların duyğularını anlamaq və dəstəkləmək önəm daşıyır. Ailə üzvlərini bir-birinə emosional dəstək göstərməlidir. 4.Ailə terapiyasının tədbiqi: Münaqişələr çox dərinləşdiyi halda,peşəkar ailə terapiyası mühitində problemlərin həlli mümkündür. Terapiya ailə üzvlərinin bir-birini daha yaxşı anlamağına və münasibətləri normallaşdırmağa kömək edir. 5.Məktəb və psixoloq dəstəyi: Yeniyetmələrin psixoloji vəziyyətinə diqqət göstərmək üçün məktəb mühitində psxioloji xidmətlər gücləndirilməli,müəllim və psixoloqlar valideynlərlə sıx əməkdaşlıq etməlidirlər. Bu həll yolları ailədaxili münaqişələrin yeniyetmələrə mənfi təsirini azaltmaqla onların sağlam psixoloji inkişafını təmin etməyə kömək edir. Müvafiq tədbirlərin həyata keçirilməsi yeniyetmələrin gələcək həyatına pozitiv təsir göstərə bilər.

Yeniyetməlik dövrü,insan həyatının şəxsiyyət və sosial bacarıqlarının formalaşmasında mühüm mərhələ sayılır. Bu mərhələdə yeniyetmələr həm bədənlərində,həm də psixoloji dünyalarında dərin dəyişikliklər yaşayırlar. Bu dəyişikliklər onların ətraf mühitlə, xüsusən də ailə ilə əlaqələrinə təsir edir. Ailə daxilində yaranan münaqişələr, gərginliklər və anlaşılmazlıqlar yeniyetmənin psixoloji vəziyyətində stress,narahatlıq və emosional çətinliklərə səbəb olur. Bununla yanaşı, münaqişələrin konstruktiv yolla həlli və ailə üzvləri arasında sağlam dialoqun qurulması yeniyetmənin emosional sabitliyini gücləndirir,onların sosial adaptasiyasını və şəxsiyyət inkişafını dəstəkləyir. Valideynlərin uşaqları ilə açıq,dəstəkləyici və anlayışlı münasibət qurması onların psixoloji rifahının qorunmasında əsas amillərdən biridir.Bu səbəbdən,ailə daxili münaqişələrin vaxtında və effektiv idarə olunması yeniyetmənin sağlam inkişafına şərait yaradır və onların gələcəkdə cəmiyyətə daha pozitiv fərdlər kimi inteqrasiya olunmalarına kömək olur. Ümumilikdə,yeniyetməlik dövründə ailənin rolu və münaqişələrin təsiri mövzusu tədqiqatlarda xüsusi yer tutmalıdır,çünki sağlam ailə mühiti yeniyetmələrin həyat keyfiyyətinin artırılmasında göstərir.

## ƏDƏBİYYAT


1. Akhmedova, G. R. (2018). *Yeniyetməlik dövrünün psixologiyası*. Bakı: Elm Nəşriyyatı.
2. Məmmədova, S. T. (2020). Ailə münaqişələrinin yeniyetmələrə psixoloji təsiri. *Psixologiya və Sosial Elmlər Jurnalı*, 5(2), 45-53.
3. Erikson, E. H. (1968). *Identity: Youth and Crisis*. New York: W. W. Norton & Company.
4. Patterson, G. R. (1982). *Coercive Family Process*. Eugene, OR: Castalia Publishing Company.
5. Yusifova, N. (2019). Yeniyetməlik dövründə emosional inkişaf və ailə amilləri. *Psixoloji Araşdırmalar*, 12(1), 77-85.
6. Vəkilova, L. M. (2017). Ailə münaqişələrinin yeniyetmələrin şəxsiyyətinə təsiri. *Azərbaycan Psixologiya Jurnalı*, 8(3), 112-120.
7. Bandura, A. (1977). *Social Learning Theory*. Englewood Cliffs, NJ: Prentice Hall.

8. Gəncəli, M. H. (2016). Yeniyetməlik və sosial mühitin psixoloji təsiri. Bakı: Qanun Nəşriyyatı.

## YENİYETMƏ YAŞININ XÜSUSİYYƏTLƏRİ VƏ AİLƏ DAXİLİ MÜNAQİŞƏLƏRİN ONLARIN FORMALAŞMASINA PSİXOLOJİ TƏSİRİ

*Seyidova Fatimə*

**Xülasə**

Yeniyetməlik dövrü insan həyatının ən kritik mərhələlərdən biridir. Bu dövr özünü bioloji, psixoloji və sosial dəyişkənliklərdə göstərir. Bu dövrdə yeniyetmənin şəxsiyyətinin formalaşmasında həm ailənin həm də sosial mühitin rolu vacibdir.

Ailə daxilində baş verən emosional gərginliklər,münaqişə və konfliktlər, ünsiyyət problemləri yeniyetmənin psixoloji sağlamlığına zərər verir. Tədqiqatın nəticələri göstərir ki, ailə mühiti sağlam və dəstəkləyici olduqda yeniyetmənin inkişafı da sabit və balanslı olur. Problemli ailə şəraiti isə aqressiya,özünə inamsızlıq, adaptasiya əksikliyi ilə müşayiət olunur.

## ОСОБЕННОСТИ ПОДРОСТКОВОГО ВОЗРАСТА И ПСИХОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ СЕМЕЙНЫХ КОНФЛИКТОВ НА ИХ ФОРМИРОВАНИЕ

*Сеидова Фатима*

**АННОТАЦИЯ**

Подростковый период является одним из самых критических этапов жизни человека. Этот возраст характеризуется биологическими, психологическими и социальными изменениями. В формировании личности подростка важную роль играет как семья, так и социальная среда. Эмоциональное напряжение, конфликты и проблемы в общении внутри семьи отрицательно влияют на психологическое здоровье подростка. Результаты исследования показывают, что при здоровой и поддерживающей семейной атмосфере развитие подростка проходит более стабильно и сбалансированно. Напротив, проблемная семейная среда сопровождается агрессией, неуверенностью в себе и трудностями адаптации.

## CHARACTERISTICS OF ADOLESCENCE AND THE PSYCHOLOGICAL IMPACT OF FAMILY CONFLICTS ON THEIR DEVELOPMENT

*Seidova Fatima*

**SUMMARY**

Adolescence is one of the most critical stages of human life. This period is characterized by biological, psychological, and social changes. Both the family and the social environment play an essential role in shaping the adolescent’s personality. Emotional tension, conflicts, and communication problems within the family negatively affect the adolescent’s psychological well-being. Research findings show that when the family environment is healthy and supportive, the adolescent’s development becomes more stable and balanced. In contrast, a problematic family environment is associated with aggression, lack of self-confidence, and difficulties in adaptation.

## İDARƏETMƏ, İQTİSADİYYAT, İNFORMASİYA

# AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SİYASƏTİNİN SOSİAL SİYASƏT SİSTEMİNDƏ FUNKSİONAL ROLU VƏ İNSAN KAPİTALININ İNKİŞAFINDA STRATEJİ ƏHƏMİYYƏTİ

***Abusalamova Şəfiqə Xeyrulla qızı***
***Bdu-nun II kurs magistrantı***
**shafiga.abusalamova1@gmail.com**

***Açar sözlər:*** Siyasət, insan kapitalı, sosial rifah, təhsil strategiyası, təhsil tələbə kreditləri, karyera mərkəzləri.
***Keywords:*** Politics, human capital, social welfare, educational strategy, education student loans, Career centers
***Ключевые слова:*** Политика, человеческий капитал, социальное обеспечение, образовательная стратегия, кредиты на образование, центры карьеры.

Müasir dövrdə təhsil siyasəti hər bir ölkənin sosial inkişaf strategiyasının əsas dayaqlarından biri hesab olunur. Cəmiyyətin sosial rifahının yüksəldilməsi, insan kapitalının gücləndirilməsi və uzunmüddətli sosial-iqtisadi sabitliyin təmin olunması təhsil sahəsində həyata keçirilən sistemli addımlardan da biləvasitə asılıdır. Bu baxımdan təhsil təkcə bilik ötürən mexanizm deyil, həm də sosial siyasətin dayaq elementidir. Çünki əmək bazarının formalaşması, sosial inklüzivlik, vətəndaşların sosial müdafiə imkanları və cəmiyyətin ümumi həyat keyfiyyəti təhsilin nəticələrinə bağlıdır.

Ölkədə son onilliklərdə həyata keçirilən təhsil islahatları yalnız təhsil sisteminin yenilənməsi məqsədi daşımır, eyni zamanda əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq, sosial bərabərliyi möhkəmləndirmək və bilik əsaslı iqtisadiyyat üçün hazırlıqlı insan resursu formalaşdırmaq məqsədini güdür. Bu kontekstdə təhsil siyasəti sosial siyasətin həm tərkib hissəsi, həm də onun həyata keçirilməsini təmin edən mühüm vasitə rolunu oynayır. Təhsil sahəsinə ayrılan dövlət investisiyalarının artması, yeni nəsil təhsil standartlarının tətbiqi, bölgələr üzrə təhsil infrastrukturunun yenilənməsi, rifahı zəif olan qruplar üçün təhsil imkanlarının genişləndirilməsi kimi addımlar sosial siyasətin geniş miqyaslı məqsədlərinə xidmət edir. Xüsusilə də, ölkədə sosial müdafiə mexanizmlərinin gücləndirilməsi ilə yanaşı təhsilin sosial hərəkətlilik vasitəsinə çevrilməsi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir.

Təhsil siyasəti dövlətin sosial, iqtisadi və mədəni inkişaf prioritetlərini reallaşdırmaq üçün həyata keçirdiyi məqsədyönlü tədbirlərin məcmusudur. Nəzəri baxımdan təhsil siyasətini müəyyən edən əsas konsepsiyalar insan kapitalı nəzəriyyəsi, sosial ədalət yanaşmaları, rifah dövləti modelləri və modernizasiya nəzəriyyələri ilə bağlıdır. Bu nəzəri çərçivələr təhsilin cəmiyyətin ümumi inkişaf prosesində oynadığı rolu şərtləndirir və dövlət müdaxiləsinin zəruriliyini izah edir. İnsan kapitalı nəzəriyyəsinə görə, təhsilin iqtisadi inkişafda rolu əmək resurslarının keyfiyyətinin yüksəldilməsi ilə ölçülür. Teodor Şults və Qary Becker kimi iqtisadçılar təhsili birbaşa iqtisadi investisiya kimi qiymətləndirir və hesab edirlər ki, ölkənin iqtisadi artımı, məhsuldarlığın səviyyəsi və texnoloji yeniliklər insan kapitalının inkişafından asılıdır. Bu baxımdan təhsil siyasəti yalnız sosial məqsədlərə deyil, həm də iqtisadi səmərəliliyə yönəlmiş bir mexanizm kimi qəbul edilir. Azərbaycan da "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf Strategiyası"-ında məhz bu yanaşmanı əsas götürərək insan kapitalının gücləndirilməsini prioritet kimi müəyyən etmişdir. Digər bir nəzəri çərçivə olan sosial ədalət və bərabər imkanlar yanaşması təhsili cəmiyyətdə bərabərliyin təmin edilməsi üçün əsas vasitə hesab edir. Jon Ravls -ın “ədalət

nəzəriyyəsi"nə əsasən, hər bir fərdin sosial mənşəyindən asılı olmayaraq təhsilə bərabər çıxışı olmalıdır. Bu modelə görə, dövlət sosial bərabərsizliyi minimuma endirmək üçün təhsil sahəsində müdaxilə etməli, həssas qrupların təhsil imkanlarını genişləndirməlidir. Müasir Azərbaycan təcrübəsində inklüziv təhsil proqramları, regionlarda məktəb infrastrukturunun yenilənməsi və aztəminatlı ailələrin uşaqları üçün sosial dəstək mexanizmləri məhz bu yanaşmanın tətbiqini əks etdirir.

Təhsil siyasətinin gücü və sosial təsiri əsasən dövlətin təhsilə ayırdığı resurslardan asılıdır. Azərbaycan dövlətinin təhsil sahəsinə yönəltdiyi xərclər ÜDM-in müəyyən faizini təşkil edir və son illərdə artan meyillər göstərir ki, dövlət bu sahəyə strateji investisiya kimi baxır. Araşdırmalar göstərir ki, 2024-cü ildə dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsait 4,55 milyard manat olmuşdur ki, bunun da 4,39 milyard manatı aidiyyatı üzrə xərclənərək təhsilə investisiya edilmişdir. 2025-ci il büdcə xərclərindən isə təhsil sahəsinə 4.9 milyar manat vəsait ayrılmışdır ki, bu xərclərin əsas istiqamətləri arasında məktəblərin tikintisi və yenilənməsi, müəllimlərin hazırlığı, tədris resurslarının təminatı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi yer alır. Dövlət proqramları çərçivəsində ali təhsil üçün təqaüdlər və aztəminatlı ailələrin uşaqlarının təhsil imkanlarının genişləndirilməsi də bu prioritetlərin tərkib hissəsidir.

Azərbaycan təhsil siyasətinin mühün hissəsi Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nını təşkil edir. Burada səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılması, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksəknüfuzlu təhsilverənin formalaşdırılması, təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması, müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, təhsilin dayanıqlı və müxtəlif mənbələrdən maliyyələşdirilməsinin yeni mexanizminin qurulması kimi stateji məqsədləri qarşıya qoyur ki, 2015-ci ildən etibarən bu xətt üzrə işlər görülmüşdür. Həmin işin nəticələrindən doğan addımlardan biri təhsilalma imkanlarını genişləndirmək üçün maliyyə mexanizmlərinin, o cümlədən tələbə kreditləri və qrantları sisteminin normativ hüquqi bazasının yaradılması daxildir ki, buna uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanı ilə Təhsil Tələbə Krediti Fondu yaradılmışdır. Fondun yaradılma məqsədi ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqlarının ödənilməsində onlara yardımçı ola bilməkdir. Burada əsas missiya tələbəninin maddi vəsaitini təhsil haqqına deyil, öz inkişafına yönəltməsi, əmək bazarının standartlarına tam cavab verən bir mütəxəssisə çevrilməsidir.

Təhsil tələbə kreditləri 2 formada tələbələrə təklif edilir. Sosial həssas ailənin üzvləri daha yumşaq şərtlərlə dövlətin yaratmış olduğu bu imkanlardan istifadə edirlər. Bununla tətbiq olunmuş siyasət həm sosial rifahda həm də insan kapitalının inkişafında əhəmiyyətli rol oynayır. Fond fəaliyyətə başladığı dövrdən etibarən Fonda 85 mindən çox müraciət daxil olmuşdur ki, bunlardan 69 mindən çox müraciət rəsmiləşdirilmişdir. 24 mindən çox rəsmiləşmə isə sırf sosial həssas qruplara daxil olan tələbələrdir. Fondun imkanları ailələrin sosial rifahına da təsir göstərir. Belə ki, 1101 ailədən iki və daha artıq tələbə eyni anda kreditdən yararlanmışdır. Bunlardan 24 ailədə 3 tələbə (cəmi 72 nəfər), 1.077 ailədə isə 2 tələbə (cəmi 2.154 nəfər) təhsil haqqı qayğısından azad olunmuşdur. Bu kimi nüanslarla biz bir daha təhsil siyasətində tətbiq olunmuş yeniliklərin sosial siyasətə təsirini görə bilərik. Təhsil tələbə kreditləri hər bir təhsil pilləsi üzrə tələbələri əhatə edir. Buda əhalinin bütün yaş qruplarından olan tələbələrin təhsil almasına dəstək göstərilməsi ilə sosial rifahini

yaxşılaşdırır və tələbələri əlavə maliyyə yükündən azad edir. Aparılan tədqiqat göstərir ki, təhsil tələbə kreditləri qadınların təhsilə davamlı çıxış imkanlarının artırılmasında strateji rol oynayır. Sözügedən imkanlardan yararlanan tələbələrin 60 faizindən çoxu xanım tələbələrdir. Cəmiyyətin bəzi bölgələrində sosial stereotiplər, ailəvi məhdudiyyətlər və iqtisadi çətinliklər qızların ali təhsilə daxil olma səviyyəsini məhdudlaşdıra bilir.

Təhsil tələbə kreditləri isə bu maneələrin əhəmiyyətli hissəsini neytrallaşdıraraq ailələrin maddi yükünü azaldır, qızların təhsildən yayınma ehtimalını aşağı salır və onların təhsillərini davam etdirməsi göstəricilərini yüksəldir. Qızların təhsil səviyyəsinin artması erkən nikah hallarının azalması ilə birbaşa əlaqəlidir. Qızların təhsildə qalma müddəti uzandıqca onların sosial seçiciliyi, qərarvermə bacarığı və iqtisadi müstəqilliyi güclənir. Bu isə həm ailə institutunun sağlamlaşmasına, həm də gender bərabərliyi indikatorlarının yaxşılaşmasına müsbət təsir edir. Təhsil tələbə kreditinin imkanlarından istifadə edən tələbə təhsil haqqı üçün ona ayrılmış kredit məbləğini təhsilini bitirdikdən və 2 il güzəşt müddəti bitdikdən sonra 10 il kimi uzun bir müddətdə geri qaytarır ki, nəticədə tələbəyə yeni məzun olduğu zamanlarda əlavə maliyyə yükü ilə qarşılaşmır. Lakin tələbə 2 il güzəşt dövründə aktiv əmək fəaliyyəti ilə məşğul olarsa o zaman, tələbənin geri ödənişi aktivləşdirilir.

Tələbələrin təhsillərini bitirdikdən sonra öz ixtisasları üzrə əmək fəaliyyətinə başlaya bilməsi, məşğulluq və doğru insan kapitalının dəyərləndirilməsi dövrün ən aktual məsələlərindən biridir. Universitetlərdə fəaliyyət göstərən karyera mərkəzləri tələbələrin təhsildən əmək bazarına keçidini asanlaşdıran ən vacib aktorlardan biridir. Bu mərkəzlər tələbələrə yalnız peşə seçimi ilə bağlı məlumat vermir, həm də onların gələcək iş fəaliyyətinə hazırlaşmasına kömək edir. Müasir əmək bazarında rəqabətin artması, yeni peşələrin yaranması və işəgötürənlərin tələblərinin dəyişməsi tələbələrin universitetdə aldıqları biliklərlə yanaşı praktik bacarıqlara da sahib olmasını vacib edir. Karyera mərkəzləri məhz bu ehtiyacı qarşılamaq üçün yaradılır. Bu mərkəzlər tələbələrə müxtəlif təlimlər, seminarlar və fərdi konsultasiyalar təqdim etməklə onların özünü inkişaf etdirməsinə şərait yaradır. Tələbələr burada CV hazırlamaq, müsahibəyə hazırlaşmaq, öz peşə imkanlarını dəyərləndirmək və iş axtarışı strategiyası qurmaq kimi mühüm bacarıqlar əldə edirlər. Bundan başqa, karyera mərkəzləri universitetlərlə şirkətlər arasında əlaqə yaradır və tələbələrin təcrübə proqramlarına qoşulmasını təşkil edir. Bu, gənclərin əmək bazarı ilə tanış olmasına, real iş mühiti haqqında fikir formalaşdırmasına və gələcəkdə daha asan iş tapmasına imkan verir.

Karyera mərkəzlərinin əhəmiyyəti yalnız peşə hazırlığı ilə məhdudlaşmır. Bu mərkəzlər sosial rifah baxımından da mühüm rol oynayır. Çünki tələbələrin təhsili bitirdikdən sonra daha tez işləməyə başlaması onların gəlir imkanlarının artmasına, sosial sabitliyinin möhkəmlənməsinə və cəmiyyətdə daha fəal iştirakına şərait yaradır. Həmçinin, bu mərkəzlərin fəaliyyəti sosial bərabərliyə də töhfə verir. Karyera mərkəzlərinin aktiv şəkildə çalışması universitetlərin fəaliyyətinə də müsbət təsir edir. Məzunların məşğulluq göstəriciləri yüksəlir, ali təhsil müəssisəsinin cəmiyyətdə nüfuzu artır və universitetin əmək bazarı ilə əlaqələri daha güclü olur. Bu əlaqələr həm tədrisin keyfiyyətini, həm də akademik proqramların təkmilləşdirilməsini stimullaşdırır. Günümüzdə dövlət və özəl üniversitetlərinin hər birində karyara mərkəzləri fəaliyyət göstərir ki, sözü gedən məsələlərin hər birində tələbə-məzunlara yardımçı olunur.

Ümumilikdə, təhsil tələbə kreditləri ilə karyera mərkəzlərinin paralel şəkildə inkişaf etdirilməsi insan kapitalının keyfiyyətinə birbaşa təsir edən strateji mexanizm ola bilər. Bu iki komponentin səmərəli inteqrasiyası həm tələbələrin təhsil imkanlarını genişləndirir, həm də onların məzun olduqdan sonra əmək bazarında rəqabətqabiliyyətliliyini artırır. Nəticə olaraq, dayanıqlı təhsil siyasəti və inklüziv sosial inkişaf baxımından kredit sisteminin və

karyera xidmətlərinin gücləndirilməsi dövlətin uzunmüddətli sosial-iqtisadi hədəflərinə mühüm töhfə verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidenti. (2015). *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı*;
2. Azərbaycan Respublikası Prezidenti. (2021). *"Təhsil Tələbə Krediti Fondunun yaradılması haqqında" Fərman (№1367)*. Bakı;
3. Schultz, T. W. (1961). "Investment in Human Capital." *American Economic Review;*
4. Rawls, J. (1971). *A Theory of Justice*. Cambridge: Harvard University Press;
5. Əliyeva, S. (2022). "Ali təhsildə karyera xidmətləri və əmək bazarına keçid mexanizmləri." *Azərbaycan Təhsil Tədqiqatları Jurnalı;*
6. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. (2024). *Dövlət büdcəsinin izahı və xərclərin funksional təsnifatı üzrə məlumatlar*.

## AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SİYASƏTİNİN SOSİAL SİYASƏT SİSTEMİNDƏ FUNKSİONAL ROLU VƏ İNSAN KAPİTALININ İNKİŞAFINDA STRATEJİ ƏHƏMİYYƏTİ

***Abusalamova Şəfiqə***

### XÜLASƏ

Müasir Azərbaycan Respublikasında təhsil siyasəti sosial inkişaf strategiyasının əsas komponentlərindən biri kimi çıxış edir və dövlətin insan kapitalının gücləndirilməsi, sosial bərabərliyin təmin olunması və rifah səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin mərkəzində dayanır. Məqalədə təhsil siyasətinin nəzəri bazası insan kapitalı nəzəriyyəsi, sosial ədalət yanaşmaları təhlil edilir və təhsilin sosial-iqtisadi proseslərdə oynadığı rol elmi əsaslarla izah olunur.

Aparılan ümumi təhlil göstərir ki, təhsil siyasəti Azərbaycanda yalnız təhsil sisteminin inkişafına deyil, daha geniş mənada sosial rifahın təmininə, sosial bərabərliyin möhkəmlənməsinə və bilik əsaslı iqtisadiyyatın qurulmasına yönəlmiş strateji alət kimi fəaliyyət göstərir.

## ФУНКЦИОНАЛЬНАЯ РОЛЬ ОБРАЗОВАТЕЛЬНОЙ ПОЛИТИКИ В СИСТЕМЕ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ И СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ В РАЗВИТИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В РЕСПУБЛИКЕ АЗЕРБАЙДЖАН

***Абусаламова Шафига***

### АННОТАЦИЯ

В современной Азербайджанской Республике образовательная политика выступает одним из основных компонентов стратегии общественного развития и находится в центре мер государства по укреплению человеческого капитала, обеспечению социального равенства и повышению уровня благосостояния. В статье анализируются теоретические основы образовательной политики, теория человеческого капитала, подходы к социальной справедливости, а также на научной основе объясняется роль образования в социально-экономических процессах.

Общий анализ показывает, что образовательная политика в Азербайджане выступает стратегическим инструментом, направленным не только на развитие системы образования, но и на обеспечение общественного благополучия в более широком смысле, укрепление социального равенства и построение экономики, основанной на знаниях.

## FUNCTIONAL ROLE OF EDUCATIONAL POLICY IN THE SOCIAL POLICY SYSTEM AND STRATEGIC IMPORTANCE IN HUMAN CAPITAL DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN

***Abusalamova Shafiga***

**SUMMARY**

In the modern Republic of Azerbaijan, education policy acts as one of the main components of the social development strategy and is at the center of the state's measures to strengthen human capital, ensure social equality and increase the level of well-being. The article analyzes the theoretical basis of education policy, the theory of human capital, social justice approaches, and explains the role of education in socio-economic processes on scientific grounds.

The general analysis shows that education policy in Azerbaijan acts as a strategic tool aimed not only at the development of the education system, but also at ensuring social well-being in a broader sense, strengthening social equality and building a knowledge-based economy.

# GÖMRÜK İŞİNİN TARİXİ İNKŞAF MƏRHƏLƏLƏRİ VƏ MÜASİR DÖVRDƏ FORMALAŞMA PROSESİ

***Ülkər İlqar qızı Cəfərova***
***BDU-nun II kurs magistrantı***
***ulker.jafarv@gmail.com***
***Zəhra İsa qızı Səmədova***
***i.f.d., dosent, BDU***
***zaxra.samadova@hotmail.com***

***Açar sözlər:*** gömrük fəaliyyəti, iqtisadi təhlükəsizlik, instutsional islahatlar, gömrük işi tarixi, suverenlik.
***Ключевые слова:*** таможенная деятельность, экономическая безопасность, институциональные реформы, история таможенного дела, суверенитет.
***Keywords:*** customs activity, economic security, institutional reforms, history of customs affairs, sovereignty.

**Giriş.** Gömrük fəaliyyəti ölkəmizin iqtisadi inkşaf yolunda birinci dərəcəli rol oynayan əsas sahələrdəndir. Müstəqil gömrük siyasəti formalaşdırılmağa başladığı dövr Azərbaycanın keçid dövrlərini təsadüf etdiyindən mestəqil gömrük siyasəti olmamışdır. Müqayisə üçün qeyd emək lazımdır ki, əvvəlki dövrdə gömrük siyasəti vergi toplamaq məqsədi daşıyırdısa müasir dövrdə beynəlxalq ticarəti asanlaşdırmaq və iqtisadiyyatı idarəetmək kimi məqsədyönlü məsələlərə xidmət göstərir. Gömrük fəaliyyətinin hüquqi və inzibati əsaslarının təkmilləşdirilməsi beynəlxalq səviyyədə inkişafına böyük təkan verdi. Nəzərə alanda ki, ölkəmizin əsas gəlirləri neft və qaz sektorundan sonra gömrük və vergi fəaliyyətindən formalaşır, onda gömrük işinin təşkilinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini anlamaq mümkündür. Gömrük işinin tarixi inkşafı Heydər Əliyevin dövrünə təsadüf edir. Yeni sistemin qurulması mühüm dövlətçilik ənənələrinin düzgün təşkil olunmasında ilkin iqtisadi və hüquqi faktorlardan biridir. Əsas mərhələ hüquqi sistemin qurulması idi ki, bu da ən ilkin mərhələdən başlayaraq qanunvericilik sisteminin qurulması olmuşdur.

**Metod.** Gömrük işinin tarixi inkşaf mərhələlərinin öyrənilməsində empirik müşahidə modeli, evolyusion modeli, PEST modeli və digər modellərdən istifadə olunmuşdur. Empirik müşahidə modelindən itifadə edərək gömrük işinin tarixi mərhələləri, hadisələrin zaman üzrə ardıcıllığı göstərilmişdir. Müstəqllikdən sonrakı proseslərin təbii dəyişmə və uyğunlaşma yolu ilə inkşafı evolyusion modeli vasitəsi ilə və siyasi, iqtisadi, sosial, texnoloji amillərin gömrük işinə təsirinin öyrənilməsi isə PEST modeli ilə verilmişdir.

Bildiyimiz kimi, vahid dövlətçilik prinsipəri olmadığından gömrük və digər sahələrdə qeyri-milli təsirlər vasitəsi ilə idarə edildiyindən ölkənin iqtisadi göstəricilərinə təsir göstərməməklə yanaşı heç bir fayda daşımırdı. Ölkəmiz XVIII əsrin sonu, XIX əsrin əvvəlləri Rusiya tərəfindən işğal olunmasına qədər sərbəst vergi və gömrük siyasəti yeritmişdir. 5 mart 1815-ci ildə Rusiya İmperiyasından Bakı gömrükxanasına göndərilən məktubda bildirilib ki, "1811-ci ildə qəbul olunmuş ticarət haqqındakı Əsasnamədə dəyişiliklər edilsin və yeni maddələr əlavə olunsun". Həmin əlavə olunan qanunlar dəniz və quru sərhədlərindən qanunsuz yollarla idxal və ixrac olunnan, həmçinin tranzit keçirilən qanunsuz malların məhv edilməsi ilə bağlı idi. Qısa müddət sonra Bakı gömrükxanası 4 may 1847-ildə Bakı Karantin-Gömrük idarəsinə yönləndirilir. Əsasnaməyə əsasən Bakı Karantin-gömrük Dairəsi Cəbrayıl - Erivan Quberniyasından İran sərhəddi boyu Astara çayına qədər , Bakı - Bakı Quberniyasının Xəzər dənizinin sahili boyu Dağıstan Vilayətinə qədər məsafədən ibarət olaraq hissələrə bölünmüşdü. Rusiya işqalçılıq siyasəti hessbına

iqtisadi potensialının artılması ilə məşğul olaraq təkmilləşdirilmiş 1891-ci ildə "Gömrük tarifi" və 1892-ci ildə "Gömrük nizamnaməsi" qəbul etdi. Həmin nizamnaməyə əsasən Avropa və Asiya bögələrində gömrük işi tənzimlənməsində vahid qaydalar toplusundan istifadə olunacaqdı. Əlavə olaraq, sahil zonası və dəniz sahilindən az məsafədə yerləşən sular da gömrük sərhədlərinin tərkibinə qatılaraq gömrük zonası elan olundu.

Azərbaycan Respublikasının dövlətçilik tarixində mühüm rolu və əhəmiyyəti olan Heydər Əliyev 14 iyul 1969-cu ildə Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçildikdən sonra qısa müddət ərzində ölkənin iqtisadi və siyasi mövqelərində ciddi addımlar atıldı. Xüsusilə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başqa millətlərin və qeyri-millilərin gömrük sahəsində ki, idarəçiliyinə və bu sahədən götürdüyü xalqın mənfəətlərinə son qoyuldu. H.Əliyevin göstərişi ilə ilk olaraq gömrük sistemində aidiyyatı şəxslərin azərbaycanlılardan təyin olunmasına başlanıldı. Həmçinin ölkəmizdə hələdə kadrların yetişdirilməsi və potensialının artırılması üçün milli mənbələr və peşəkar işçilər olmadığından Ulu Öndərin göstərişi ilə müxtəlif xarici təhsil mərkəzlərinə göndərilməsinə başlanıldı. Azərbaycanda ilk gömrükxananın açılmasında birmənalı rolu olan və gömrük sahəsinə diqqətli yanaşma göstərən H.Əliyev Azərbaycanda yaranmış gərginliyi aradan qaldırmaq missiyasını uğurla həyata keçirdi. Ölkəni parçalanmaqdan qurtarmaq həmçinin vətəndaş müharibəsinin qarşısını almaq niyyəti ilə xalqımız H.Əliyevi hakimiyyətə dəvət etdi. İlkin olaraq gömrük sahəsində keçirilən islahatlara əsasən 1995-ci ildən etibarən gömrük orqanlarının işinin yenidən qurulmasına başlanıldı. Heydər Əliyev tərəfindən miras qoyulan Azərbaycan Respublikasının iqtisadi və hüquqi quruculuğu bu gün İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Ölkənin iqtisadi quruculuğu düzgün formada strukturların fəaliyyətindən asılıdır. Əsas prinsiplərdən biridə gömrük orqanlarının iş bölgüsünün formalaşdırılması və beynəlxalq standartlara uyğun olaraq gömrük işinin qurulmasıdır.

1918-1920-ci illər aralığında ölkəmizin keçid dövrlərində gömrük sahəsində yüksək səviyyədə konkret işlər yerinə yetirilməsə də, dövlətin siyasi həyatının qurulması və təkmilləşdirilməsi istiqamətlərində bir çox addımlar atılmışdı. 1946-cı ilin ortalarından başlayaraq Bakı gömrükxanasının fəaliyyəti genişləndirildi və aşağıdakı kimi təşkil olndu:

Sxem 1. Bakı gömrükxanasının təkmilləşdirilmiş strukturu.




Yanlız ölkəmiz 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra gömrüklə bağlı hüquqi və siyasi məsələlər gündəmə gətirildi. Nəzərə alsaq ki, gömrük sistemi Azərbycanın keçid mərhələsində yaradılmağa başlanılmışdır o zaman aydın olar ki, bu prosesin çətinlik səviyyəsi hər kəsə məlumdur.

1992-ci il yanvarın 19-da Azərbycan gömrük siyəsətinin sistemli formada həyata keçirilməsi naminə DGK (Dövlət Gömrük Komtəsi) yaradıldı. Gömrük işinin tarixi formalaşma prosesində müsəna rolu olan DGK bu gündə missiyasını layiqincə yerinə yetirməkdədir.

Dövlətimizin iqtisadi gücü onun rəqabətqabiliyyətinin təmin edilməsi gömrük siyasəti ilə birbaşa bağlıdır. Bütün bunlar nəzərə alınmaqla qeyd etmək lazımdır ki, İlham Əliyev tərəfindən uğurlu gömrük siyasətinin davam etdirilmiş, gömrük fəaliyyətinin təkmilləş-dirilməsi uğurla yerinə yetirilmişdir. Əsas məqamlardan biri də gömrük fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırmaq prosesi olmuşdur ki, bu sahədə də ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır. Ölkəmizin inkşaf periodunda xüsusi rola malik üzərində işlənilməli sahələr əvvəlcədən araşdırılmağa başlanıldı. Həmin sahələrə misal olaraq məlumatların yığımını təmin edən sistemin yaradılması, gömrük orqanlarının informasiya mübadiləsinin təmin edilməsi, qaçaqmalçılıq ilə mübarizənin düzgün təşkilini misal göstərmək olar.

**Nəticə.** Müvafiq icra hakimiyyət orqanları ilə xüsusi hüquq mühafizə orqanlarının qarşılıqlı səyi nəticəsində istər gömrük fəaliyyətinin düzgün formada qurulması və kölgə iqtisadiyyatın təqib olunmasında mühüm töhfələrini vemişdir. Gömrük orqanları tərəfindən qanunçuluq və şəfaflıq prinsipləri prioritet tutularaq maksimum səviyyədə nəzarət sistemləri gücləndirilməkdədir. Gömrük işinin tarixi mərhələsinə baxıldıqda çətin periodlardan keçildiyini, lakin müasir dövrdə beynəlxalq standartlara cavab verən və qlobal sferada uğurla irəliləyən qabaqcıl ölkələrdəndir. Bütün dövrlərdə olduğu kimi, idarəetmənin bütün səviyyələrində qəbul edilən qərarlar gömrük işinin məhsuldarlığını artırır. Müasir dövrdə əsas istiqamət gömrük proseslərinin avtomatlaşdırılmaı, qabaqcıl gömrük cihazlardan istifadə və gömrük işinin modernizasiyadır. Hazırda gömrük işi istiqamətində əsas planlar gömrük işinin rəqəmsallaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Dövlət Gömrük Komitəsi tərəfindən gömrük işinin təkmilədirilməsi bu gün də uğurla davam etdirilir.

## ƏDƏBİYYAT


1. Abbasov, E. (2020). Gömrük işinin modernləşdirilməsi və rəqəmsal transformasiya. Bakı: Elm və Təhsil.
2. Əhmədov, N. (2021). Azərbaycan gömrük sistemində islahatların istiqamətləri. Bakı: BSU Nəşriyyatı.
3. Əliyeva, S. (2022). Gömrük xidmətində idarəetmənin təkmilləşdirilməsi yolları. Bakı: İqtisadi İnkişaf Nəşriyyatı.
4. Hacıyev, R. (2023). Gömrük işinin inkişafında beynəlxalq əməkdaşlığın rolu. Bakı: ADU Nəşriyyatı.
5. Hüseynov, F. (2019). Gömrük orqanlarının institusional inkişafı. Bakı: Hüquq Nəşriyyatı.
6. Məmmədov, A. (2020). Gömrük sistemində şəffaflığın artırılması və korrupsiyaya qarşı tədbirlər. Bakı: Qanun Nəşriyyatı.
7. Məmmədova, L. (2021). Rəqəmsal gömrük və innovativ texnologiyaların tətbiqi. Bakı: İqtisad Universiteti Nəşriyyatı.
8. Rustamov, T. (2022). Gömrük işinin inkişafında insan resurslarının rolu. Bakı: Elm Nəşriyyatı.
9. Smith, J. (2020). Development of modern customs administration. London: Routledge.
10. Иванов, А. (2021). Развитие таможенного дела в условиях глобализации. Москва: Наука.

# GÖMRÜK İŞİNİN TARİXİ İNKŞAF MƏRHƏLƏLƏRİ VƏ MÜASİR DÖVRDƏ FORMALAŞMA PROSESİ

***Cəfərova Ülkər, Səmədova Zəhra***

## XÜLASƏ

Gömrük işi tarixən müxtəlif mərhələrdən keçmiş və inkşaf etmişdir. Öncəliklə qeyd etmək lazımdır ki, gömrük fəaliyyəti insanların ticarət əlaqələrinin yaranması ilə bərabər formalaşmağa başlamışdır. Hətta ən ilkin mərhələrdə gömrük işi malların hərəkətinə nəzarət etmək və vergi toplamaq məqsədi ilə tətbiq olunurudu. İndi ki, dövrdə olduğu kimi qədim dövrlərdə də gömrük rüsumları dövlət xəzinəsinin mühüm gəlir məbəyi hesab olunurdu. Beynəlxalq ticarətin geniş miqyas alması orta əsrlərdə artıq gömrük fəaliyyətinə sistemli yanaşılmanı və gömrük qaydalarının gömrük icraatına tətbiq olunması vacibiyyətini irəli sürdü.

Bildirmək lazımdır ki, gömrük fəaliyyətinin inkşafı ölkə iqtisadiyyatının beynəlxalq arenada çıxış etməsi perspektivlərini gücləndirməklə dayanıqlı iqtisadi gücə sahib olmaq üçün prioritet vasitədir. Gömrük statistika göstəricilərinin xüsusilə son dövrlərdə müsbətə dəyişməsi iqtisadiyyatın canlanmasına səbəb olmuşdur. Mal və nəqiliyat vasitələrinin mübadilə həcminin artması ölkəmizin rəqabətqabiliyyətinədə müsbət təsiri olub. Hazırda iqtisadi təhlükəsizliyi təmin etmək missiyanı böyük həssəsini təmin etməsinə baxmayaraq ki, gömrük işi yeni sahə olaraq formalaşmaqdadır. Bu formalaşma prosesi müstəqillik əldə etdikdən sonra başlamış və bu gündə müvafiq icra hakimiyyət orqanlarının qarşılıqlı səyi nəticəsində inkşaf etdirilir. Gömrük işinin tarixi yeni olmasına baxmayaraq, üzərində yüksək səylə çalışılmış və yüksək nəticələr əldə edilmişdir. Tarixi inkşaf prosesində gömrük sistemi istər dövlət idarəetmə istərsədə iqtisadi tənzimləmə vasitəsi olaraq dövlətçilik ənənlərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

# ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ ТАМОЖЕННОГО ДЕЛА И ПРОЦЕСС ЕГО ФОРМИРОВАНИЯ В СОВРЕМЕННЫЙ ПЕРИОД

***Джафарова Улькар, Самедова Захра***

## АННОТАЦИЯ

Таможенное дело исторически прошло через различные этапы развития. Следует отметить, что таможенная деятельность начала формироваться одновременно с возникновением торговых отношений между людьми. Уже на самых ранних этапах таможенные процедуры применялись для контроля движения товаров и взимания налогов. Как и в современный период, в древние времена таможенные пошлины считались одним из основных источников доходов государства. Расширение международной торговли в средние века потребовало более системного подхода к таможенной деятельности и внедрения соответствующих правил в практику таможенного управления.

Развитие таможенной деятельности усиливает перспективы выхода национальной экономики на международную арену и служит приоритетным инструментом для обеспечения устойчивой экономической мощи. Улучшение показателей таможенной статистики в последние годы способствовало оживлению экономики. Увеличение объемов обмена товарами и транспортными средствами положительно сказалось на конкурентоспособности страны. Несмотря на то, что обеспечение экономической

безопасности остается одной из главных миссий таможенного дела, данная сфера продолжает процесс своего формирования. Этот процесс начался после обретения страной независимости и продолжается благодаря совместным усилиям соответствующих исполнительных органов. Несмотря на то, что таможенное дело имеет исторический характер, над ним велась интенсивная работа, и были достигнуты высокие результаты. В ходе исторического развития таможенная система стала неотъемлемой частью государственного управления и экономического регулирования, а также важным элементом традиций государственности.

## THE HISTORICAL DEVELOPMENT STAGES AND THE FORMATION PROCESS OF CUSTOMS AFFAIRS IN THE MODERN PERIOD

***Ulkar Jafarova, Zahra Samadova***

## SUMMARY

The customs system has historically passed through various stages of development. It should first be noted that customs activity began to form simultaneously with the emergence of trade relations among people. Even in the earliest stages, customs control was applied to monitor the movement of goods and collect taxes. Just as in the modern era, customs duties in ancient times were considered one of the main sources of state revenue. The expansion of international trade during the Middle Ages required a more systematic approach to customs operations and the implementation of customs regulations in administrative practice.

It should be emphasized that the development of customs activities strengthens the country's prospects for entering the international economic arena and serves as a priority tool for achieving sustainable economic power. The improvement of customs statistics in recent years has contributed to the revitalization of the economy. The increase in the volume of goods and transport exchange has positively affected the competitiveness of our country. Although ensuring economic security remains one of the key missions of customs affairs, this field is still in the process of formation. This process began after the country gained independence and continues to develop through the coordinated efforts of relevant executive authorities. Despite being a historical field, customs work has been carried out with great effort and has achieved significant results. Throughout its historical development, the customs system has become an integral part of both state administration and economic regulation, as well as an essential element of statehood traditions.

# STRATEJI IDARƏETMƏNIN DÖVLƏT IDARƏÇILIYINDƏ ROLU

***Qasımova Ləman Abid qızı***
***Bakı Dövlət Universiteti,***
***Politologiya və sosiologiya kafedrasının müəllimi,***
***laman.kasimova8@gmail.com***
***ORCİD İD https://orcid.org/0000-0002-8755-7359***

***Açar sözlər*:** strategiya, dövlət idarəçiliyi, strateji idarəetmə, srtateji islahatlar
***Keywords*:** strategy, state management, strategic management, strategic reforms.
***Ключевые слова***: стратегия, государственное управление, стратегическое управление, стратегические реформы.

**Giriş**. Müasir dövrdə dövlət idarəçiliyi mürəkkəb sosial, iqtisadi və siyasi proseslərin dinamik xarakteri ilə səciyyələnir. Qlobal rəqabət, sürətli texnoloji yeniliklər, ictimai gözləntilərin artması və xarici mühitdə qeyri-müəyyənliyin yüksəlməsi dövlətlərin idarəetmə mexanizmlərinə yeni yanaşmalar tələb edir. Bu kontekstdə strateji idarəetmə dövlət sektorunda idarəetmə mədəniyyətinin yenilənməsi, resursların səmərəli istifadəsi və uzunmüddətli inkişaf prioritetlərinin formalaşdırılması üçün əsas vasitələrdən birinə çevrilmişdir. Strateji idarəetmə dövlət orqanlarına yalnız mövcud problemləri həll etməyə deyil, həm də gələcək çağırışları qabaqcadan müəyyənləşdirərək proaktiv qərarlar qəbul etməyə imkan yaradır. Bu yanaşma dövlət siyasətlərinin məqsədyönlü şəkildə hazırlanmasına, idarəetmə proseslərinin daha açıq və hesabatlı olmasına, institusional dayanıqlığın və innovasiya potensialının güclənməsinə şərait yaradır. Eyni zamanda strateji idarəetmə dövlət xidmətlərinin keyfiyyətinin artırılması, idarəetmədə çevik və nəticəyönlü mexanizmlərin qurulması baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu məqalənin məqsədi strateji idarəetmənin dövlət idarəçiliyində rolunu nəzəri və tətbiqi aspektlərdən təhlil etmək, onun dövlət sektorunun modernləşməsinə verdiyi töhfələri araşdırmaq və beynəlxalq təcrübədən çıxarılan nəticələr əsasında strateji idarəetmənin effektivliyini qiymətləndirməkdir.

Strategiyanın hər zaman daha irəliyə fokuslanmaq anlayışını özündə əks etdirməsi və gələcəyə yönəlik olması, onun inkşafa adekvat olan bir çox sahədə mənimsənilməsini və tətbiqinin başlıca səbəblərindəndir. Bu xüsusiyyəti ilə strategiya, məqsəd və məqsədə çatma düşüncəsinin var olduğu hər bir sahədə mövcuddur [1]. Bu fəaliyyətlər, idarəetmə hədəflərini, məqsədlərini, fəlsəfəsini əhatə edən təşkilati missiyanı müəyyən etmək; təşkilatın daxili və xarici strukturlarını araşdıraraq vəziyyət təhlili aparmaq; təşkilatın vizyon və əsas dəyərlərini formalaşdırmaq; təşkilat məqsəd və hədəflərini yaratmaq; təyin olunan məqsəd və hədəflərə çatma istiqamətində təqvim yaratmaq; performans qiymətləndirməsini yerinə yetirmək; işləri nəzarət oluna bir büdcə sisteminə oturtmaq və yoxlama mexanizmlərini aktivləşdirmək kimi ünsürləri saymaq mümkündür.

Strategiya üst səviyyə rəhbərliyin fikirləri ilə ortaya çıxır, lakin strategiyanın formalaşdırılması ətraf mühit şəraitinin və daxili elementlərin qarşılıqlı təsirindən yaranan məlumatlara əsaslanır.[2] Strategiya ilk növbədə müəyyən bir formalaşdırma deyil, müəssisədə bütün elementlərin qarşılıqlı əlaqəsi və iştirakı ilə inkişaf edən yenilənmiş və mürəkkəb bir prosesdir. Bununla bərabər, həm strategiya, həm də siyasət rəhbərliyin ən üst pilləsində tətbiq olunurlar. Hər ikisi də təşkilat daxilində və xaricində geniş bir məlumat bazası əsasında qəbul edilir və qərarların qəbul edilməsi imkanları geniş eyni zamanda çox variantlıdır [3].

Strateji idarəetmə uzunmüddətli hədəflərin müəyyənləşdirilməsi, resursların məqsədyönlü şəkildə yönəldilməsi, dəyişən mühitə uyğunlaşdırılmış siyasət və qərarların formalaşdırılması prosesidir. Özəl sektorda geniş tətbiq olunan bu yanaşma dövlət idarəçiliyinə daxil edildikdə ictimai maraqların təmin olunmasına, idarəetmədə səmərəliliyin artırılmasına və

xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Dövlət sektorunda strateji idarəetmənin zəruriliyi əsasən üç amil ilə bağlıdır:

1. Mürəkkəb mühit və qeyri-müəyyənlik – iqtisadi dalğalanmalar, regional və qlobal risklər, texnoloji transformasiyalar dövlətlərin adaptasiya qabiliyyətini tələb edir.

2. Cəmiyyətin artan tələbləri – vətəndaş mərkəzli idarəetməyə keçid dövlət xidmətlərinin çevikliyini və keyfiyyətini ön plana çıxarır.

3. Dövlət resurslarının məhdudluğu – büdcə resurslarının optimallaşdırılması strateji prioritetləşdirmə tələb edir.

Strateji idarəetmənin müsbət təsirinə baxmayaraq, dövlət sektorunda tətbiq prosesində bir sıra çətinliklər meydana çıxır:

1. İnstitusional müqavimət və dəyişiklik qorxusu – ənənəvi idarəetmə mədəniyyətinin strateji yanaşmalara qarşı dayanıqlığı.

2. Kadr potensialının məhdudluğu – strateji idarəetmə üzrə ixtisaslaşmış mütəxəssislərin çatışmazlığı.

3. Resurs məhdudiyyətləri – strateji layihələrin həyata keçirilməsi üçün tələb olunan maliyyə və texniki imkanların kifayət qədər olmaması.

4. Monitorinq və qiymətləndirmə sistemlərinin zəifliyi – performans indikatorlarının düzgün müəyyən edilməməsi nəticələrin ölçülməsini çətinləşdirir.

5. Qurumlararası koordinasiyanın zəifliyi – strateji məqsədlərin vahid şəkildə həyata keçirilməsinə mane olur.

Bu problemlərin həlli üçün institusional islahatlar, insan resurslarının inkişafı və innovativ idarəetmə alətlərinin tətbiqi zəruridir. Bununla yanaşı, strateji idarəetmənin dövlət sektoruna təsiri çoxşaxəlidir. İdarəetmədə effektivliyin artması, resursların səmərəli yönəldilməsi və fəaliyyətlərin planlı şəkildə qurulması xüsusi əhəmiyyətə malikdir. Hesabatlılıq və şəffaflığın güclənməsi, performans əsaslı idarəetmə mexanizmləri vasitəsilə ictimai nəzarətin artması, institusional dayanıqlığın yüksəlməsi – uzunmüddətli hədəflərlə uyğunlaşmış siyasət davamlılığı əsas təsirlər kimi özünü göstərir [4]. Bununla yanaşı, strateji idarəetmə kontekstində innovasiya və rəqəmsallaşmanın təşviqi yeni texnologiyaların tətbiqinə şərait yaradır. Həmçinin dövlət-vətəndaş münasibətlərinin yaxşılaşması, xidmət keyfiyyətinin yüksəlməsi və iştirakçılıq imkanlarının artması müşahidə olunmaqdadır.

Dövlət idarəetməsində strateji idarəetmənin tətbiqi idarəetmə sistemini reaktiv deyil, proaktiv, nəticəyönlü və hesabatlı modelə çevirir. Strateji idarəetmənin dövlət idarəçiliyində əsas funksiyaları xüsusi əhəmiyyətə malikdir. Strateji planlaşdırma dövlət qurumunun missiyasının, vizyonunun və prioritetlərinin dəqiq şəkildə müəyyənləşdirilməsinə xidmət edir. Bu proses siyasət hazırlanmasının sistemli xarakter almasına və institusional məqsədyönlülüyün təmin edilməsinə imkan yaradır. Bryson qeyd edir ki, strateji planlaşdırma olmadan dövlət orqanlarının uzunmüddətli davamlı inkişaf xətti qurması mümkün deyil. [6] Siyasətlərin koordinasiyası və institusional uyğunluq strateji idarəetmədə müxtəlif dövlət qurumları arasında koordinasiya mexanizmlərini gücləndirir.

Dövlət siyasətləri çox vaxt bir neçə institutun fəaliyyətindən asılı olduğu üçün strategiya əsaslı idarəetmə səmərəli əməkdaşlığı, funksional bölgünü və resursların uyğunlaşdırılmasını təmin edir. Bu, həm də dövlət proqramlarının nəticəyönlü monitorinqinin aparılmasına şərait yaradır. Resursların səmərəli bölüşdürülməsi büdcə planlaşdırmasını prioritetləşdirilmiş şəkildə həyata keçirməyə imkan yaradır. Dövlət qurumları strateji hədəfləri olmayan layihələr üçün resurs ayrılmasını məhdudlaşdırmaqla səmərəliliyi artırır. Poister və digər müəlliflərin tədqiqatları göstərir ki, strateji idarəetmə tətbiq edən dövlət təşkilatlarında məhsuldarlıq və resurs effektivliyi əhəmiyyətli dərəcədə yüksəlir. Dövlət xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması vətəndaş yönümlü xidmət modelinin qurulmasını stimullaşdırır. Bu, xidmətlərin əlçatanlığını, rəqəmsallaşdırılmasını və keyfiyyət standartlarının tətbiqini sürətləndirir. Bu çərçivədə dövlət orqanları performans göstəriciləri müəyyənləşdirir, fəaliyyətlərini ölçür və göstərilən xidmətlərin sosial təsirini qiymətləndirirlər.[7]

Strateji idarəetmənin tətbiqində beynəlxalq təcrübənin dəyərləndirilməsi analitik cəhətdən xüsusi əhəmiyyətə malikdir. Aİ ölkələrində strateji idarəetmə dövlət modernizasiyası siyasətinin əsas komponentidir. İctimai idarəetmənin yeni modeli çərçivəsində dövlət qurumları strateji planlaşdırma, performans ölçmə və iştirakçı idarəetmə modellərini geniş tətbiq etmişdir. [8] Xüsusilə Skandinaviya ölkələrində uzunmüddətli dövlət strategiyaları iqtisadi dayanıqlığın və sosial rifahın təmin olunmasında mühüm rol oynayır. ABŞ-da 1993-cü ildə qəbul edilən strateji planlaşdırmanı bütün federal qurumlar üçün məcburi etmişdir. Hər bir qurum missiya bəyanatı, strateji hədəflər və performans indikatorları hazırlayaraq ictimai hesabatlılığı gücləndirmişdir. Tədqiqatlar göstərir ki, bu addım dövlət qurumlarının nəticəyə əsaslanan idarəetmə mexanizmlərini gücləndirib. Cənubi Koreya, Sinqapur və Yaponiya kimi Asiya ölkələri strateji idarəetməni innovasiya yönümlü dövlət idarəçiliyi modeli ilə inteqrasiya etmişdir. Bu ölkələrdə rəqəmsal hökumət strategiyaları, uzunmüddətli inkişaf planları və yüksək səviyyəli koordinasiya mexanizmləri dövlət sektorunun çevikliyini artırmışdır.

**Nəticə**. Dövlət idarəetməsinin dəyişən milli və beynəlxalq nizama uyğunlaşmadakı müvəffəqiyyətsizliyi cəmiyyətin hər seqmenti tərəfindən bir problem olaraq qəbul edilməkdədir. Bir tərəfdən keçmişin vərdişləri və üsulları dövlət rəhbərliyinin əsas problemlərini meydana gətirərkən, digər tərəfdən cəmiyyətin müxtəlif təbəqələrini qane etməyən həll yollarının yaratdığı dəyişmə təzyiqi getdikcə artırmaqdadır.[9] Dövlətin demokratik bir nizamda varlığını daha təsirli şəkildə davam etdirə bilməsi iqtisadi problemlərin həll edilmesinin yanında, ictimai idarəetmənin effektivlik, davamlı dəyişmə və yenilik məhvumlarına uyğunlaşmasına bağlıdır. Hüquqi dövlət anlayışının hakim olduğu ölkələr başda ictimai, iqtisadi, texnoloji, siyasi, mədəni və elmi resursların əlaqələndirilməsi olmaqla təməl bir çox sahədə varlığını ortaya qoymaq məcburiyyətindədir. Bu zərurət də dövlət idarəçiliyində yeni axtarışları gündəmə gətirmişdir.

Strateji idarəetmə müasir dövlət idarəçiliyinin əsas istiqamətlərindən biri kimi idarəetmədə məqsədyönlülüyü, səmərəliliyi və uzunmüddətli inkişafı təmin edən vacib alətə çevrilmişdir. Qlobal dəyişikliklərin sürətlənməsi, cəmiyyətin artan gözləntiləri və dövlət resurslarının məhdudluğu şəraitində dövlət qurumlarının ənənəvi idarəetmə metodları artıq kifayət etmir. Bu baxımdan strateji idarəetmə dövlət sektorunda qərarların elmi əsaslarla qəbul edilməsinə, prioritetlərin düzgün müəyyənləşdirilməsinə və idarəetmə sisteminin gələcəyə istiqamətlənməsinə imkan yaradır.

Məqalənin təhlili göstərir ki, strateji idarəetmə dövlət idarəçiliyində aşağıdakı əsas funksiyaları yerinə yetirməklə mühüm rol oynayır: strateji planlaşdırmanın tətbiqi, resursların optimal bölüşdürülməsi, nəticəyönlü idarəetmə mexanizmlərinin formalaşdırılması, dövlət xidmətlərinin keyfiyyətinin artırılması və qurumlararası koordinasiyanın gücləndirilməsi. Beynəlxalq təcrübə də göstərir ki, strateji düşüncə və uzunmüddətli planlaşdırma dövlət idarəçiliyinin çevikliyini, innovasiya potensialını və hesabatlılıq səviyyəsini yüksəldir.

Eyni zamanda, strateji idarəetmənin tətbiqi müəyyən problemlərlə müşayiət olunur: idarəetmə mədəniyyətində dəyişikliklərin çətinliyi, kadr potensialının məhdudluğu, monitorinq və qiymətləndirmə mexanizmlərinin zəifliyi və institusional koordinasiya problemləri. Bu çətinliklərin aradan qaldırılması üçün dövlət qurumlarında strateji idarəetmə üzrə insan resurslarının inkişaf etdirilməsi, rəqəmsal idarəetmə alətlərinin geniş tətbiqi, şəffaf performans ölçmə sistemlərinin qurulması və koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi zəruridir.

Nəticə olaraq, strateji idarəetmə dövlət idarəçiliyinin modernləşdirilməsində və ictimai idarəetmə sisteminin effektivliyinin artırılmasında əsas meyarlardan biridir. Dövlətin idarəetmə fəaliyyətinin uzunmüddətli perspektivdə dayanıqlı inkişaf strategiyaları ilə uyğunlaşdırılması yalnız strateji idarəetmənin sistemli şəkildə tətbiqi nəticəsində mümkündür. Buna görə də strateji idarəetmənin gücləndirilməsi müasir dövlətlər üçün prioritet islahat istiqaməti kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT

1. Osborne, S. (2010). The new public governance? Routledge.
2. Poister, T. H., Pitts, D. W., & Edwards, L. H. (2010). Strategic management research in the public sector: A review, synthesis, and future directions. American Review of Public Administration, 40(5).
3. Andrews, R., Boyne, G., & Walker, R. (2011). The impact of management on administrative performance: An empirical analysis. Public Administration Research and Theory.
4. Özdevecioğlu Mahmut, Anakent Belediyelerinde Stratejik Planlama Çalışmaları Stratejik Planlama Sürecine İlişkin Model Önerisi ve Anakent Belediyelerinde Bir Araştırma, İstanbul Üniversitesi, İstanbul,1998
5. Bryson, J. M. (2018). Strategic planning for public and nonprofit organizations. Wiley.
6. Özdemir Bülent, Stratejik Yönetim ve Stratejik Planlamanın Türk Kamu Yönetiminde Uygulanabilirliği,Hacattepe üniversitesi,Ankara,1999
7. Bureaucratic Management Theory by Max Weber
8. https://president.az/articles/31521
9. https://www.managementstudyguide.com/strategic-management.html

## STRATEJİ İDARƏETMƏNİN DÖVLƏT İDARƏÇIİLİYİNDƏ ROLU

***Qasımova Ləman***

## XÜLASƏ

Strateji idarəetmə müasir dövlət idarəçiliyində xüsusilə aktual rola malikdir. Dövlət idarəçiliyində strateji idarəetmənin həyata keçirilməsini və tətbiqi, dövlət idarəçiliyindəki problemlərin aradan qaldırılmasında mühüm fəaliyyət hesab edilir.

## РОЛЬ СТРАТЕГИЧЕСКОГО МЕНЕДЖМЕНТА В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

***Касымова Ляман***

## АННОТАЦИЯ

Стратегическое управление играет особенно важную роль в современном государственном управлении. Внедрение и применение стратегического управления в государственном управлении считается важной деятельностью в решении проблем государственного управления.

## THE ROLE OF STRATEGIC MANAGEMENT IN PUBLIC ADMINISTRATION

***Gasimova Laman***

## SUMMARY

Strategic management plays an especially important role in modern state management. Implementation and application of strategic management in state administration is considered an important activity in solving problems of state administration.

# MÜNDƏRİCAT

## SOSİOLOGİYA, SOSİAL İŞ

***Vəliyev Elçin.*** Yaşlı insanların sosial fəallığının artması və iqtisadi çevrilmə şəraitində cəmiyyətə reinteqrasiya mexanizmləri ........ 3
***Əmrahova Ülviyyə.*** Nikah və ailə anlayışlarına sosioloji və psixoloji kontekstdə yanaşmalar ........ 9
***Nərimanlı Nuhu.*** Ekolojı ədalət və sosial iş: yaşıl sosial işə giriş ........ 15
***Əlizadə Kənan.*** Əlillik və əmək bazarı: inteqrasiya problemləri və həll yolları ........ 21
***Hüseynzadə Günay.*** Pandemiya dövründə sosial işçilərin psixoloji yükü və dəstək strategiyaları ........ 29
***Abbaszadə Əsmər.*** Uşaqların yaşadığı fiziki zorakılıq və onun diaqnostik indikatorları ........ 35
***Behbudova Lamiyə.*** Uşaq əmək və istismarının qarşısının alınmasında sosial müdaxilələr ........ 40
***Mehdizadə Məlahət.*** Yeniyetməlik dövründə suisidal davranışların psixoloji xüsusiyyətləri ........ 47
***Hüseynli Aliyə.*** Qadınların cəmiyyətdə, siyasətdə, iş dünyasında və digər sahələrdə lider olaraq rolu (Azərbaycan nümunəsi) ........ 55

## PSİXOLOGİYA, PEDAQOGİKA

***Cəbizadə Arzu.*** müasir təhsil mühitində müəllim-şagird münasibətlərinin şagirdlərdə idrak potensialının inkişafına təsiri ........ 61
***Qələndərli Nuranə.*** müasir inklüziv təhsil mühitində autizmli uşaqların inkişaf perspektivləri ........ 67
***Quliyeva Sürəyya.*** Məktəblilərdə sosial fobiyanın tədris prosesinin təşkilinə psixopedoqoji təsiri ........ 72
***Salmanova Jalə.*** Koqnitiv qiymətləndirmənin emosional və davranış reaksiyalarına təsiri ........ 75
***Rəhimli Sara.*** Narsist şəxsiyyətin sosial münasibətlərdə rolunun psixoloji təhlili ........ 79
***Səfərova Elnurə, İsrafilli Lamiyə.*** "Dərman bitkiləri, müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydalari" mözusunun tədrisində "beyin həmləsi" metodlarinin tətbiqi ........ 86
***Seyidova Fatimə.*** Yeniyetmə yaşının xüsusiyyətləri və ailə daxili münaqişələrin onların formalaşmasına psixoloji təsiri ........ 91

## İDARƏETMƏ, İQTİSADİYYAT, İNFORMASİYA

***Abusalamova Şəfiqə.*** Azərbaycan Respublikasında təhsil siyasətinin sosial siyasət sistemində funksional rolu və insan kapitalının inkişafında strateji əhəmiyyəti ........ 95
***Cəfərova Ülkər, Səmədova Zəhra.*** Gömrük işinin tarixi inkşaf mərhələləri və müasir dövrdə formalaşma prosesi ........ 100
***Qasımova Ləman.*** Strateji idarəetmənin dövlət idarəçiliyində rolu ........ 105

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 45
(I HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı: fəlsəfə üzrə fəlsəfə doktoru **Vüsalə Kərəm qızı Musayeva**


Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Röya Nəsirova

---

Çapa imzalanmışdır: 15.12.2025
Format: 60×84 1/8
Şərti çap vərəqi – 13,75
Sifariş № 218
Tiraj – 100 nüsxə

“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69
e-mail: fuyuzat2020@gmail.com